AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ
АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ ПЕДАГОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ
AZERBAIJAN STATE PEDAGOGICAL UNIVERSITY

**ISSN 2664-407X**

# Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri

# Актуальные проблемы музыкальной науки, культуры и образования

# Actual problems of the science, culture and education of music

**www.adpu.edu.az**

**2023 №1 (13)**

**Redaksiya şurasının sədri**

| | |
|---|---|
| C.M.Cəfərov | tarix üzrə elmlər doktoru, professor |

**Redaksiya şurasının sədr müavini**

| | |
|---|---|
| A.D.Zamanov | fizika-riyaziyyat elmləri doktoru, professor |

**Redaksiya heyəti**

| | |
|---|---|
| Fərəh Əliyeva | sənətşünaslıq doktoru, professor |
| Fərhad Bədəlbəyli | Bakı Musiqi Akademiyasının rektoru, professor |
| Firəngiz Əlizadə | Azərbaycan Bəstəkarlar İttifaqının sədri, xalq artisti, professor |
| Səyavuş Kərimi | Azərbaycan Milli Konservatoriyasının rektoru, xalq artisti, professor |
| Zemfira Səfərova | sənətşünaslıq doktoru, AMEA-nın müxbir üzvü, professor |
| Ceyran Mahmudova | ADMİU-nun rektoru, sənətşünaslıq doktoru, professor |
| Rəna Məmmədova | sənətşünaslıq doktoru, AMEA-nın müxbir üzvü, professor |
| Gülnaz Abdullazadə | fəlsəfə elmləri doktoru, professor |
| Rəna Abdullayeva | sənətşünaslıq doktoru, professor |
| Yuliy Əliyev | pedaqogika elmləri doktoru, professor (Rusiya) |
| İmruz Əfəndiyeva | sənətşünaslıq doktoru, professor |
| Çingiz Abdullayev | kulturologiya doktoru, professor |
| Vidadi Xəlilov | pedaqogika elmləri doktoru, professor |
| Vladimir Adişev | pedaqogika elmləri doktoru, professor (Rusiya) |
| Eduardas Balçitis | pedaqogika elmləri doktoru, professor (Litva) |
| Anatoliy Bolqarskiy | pedaqogika elmləri doktoru, professor (Ukrayna) |
| Anatoliy Qoremıçkin | pedaqogika elmləri doktoru, professor (Ukrayna) |
| Rauf Kadırov | pedaqogika elmləri doktoru, professor (Özbəkistan) |
| Yelena Nikolayeva | pedaqogika elmləri doktoru, professor (Rusiya) |

**Baş redaktor**

| | |
|---|---|
| Jalə Qədimova | pedaqogika elmləri doktoru, professor |

**Baş redaktorun müavini**

| | |
|---|---|
| Tamilla Kəngərli | pedaqogika elmləri doktoru, professor |

**Elmi redaktor**

| | |
|---|---|
| Fərrux Rüstəmov | pedaqogika elmləri doktoru, professor |

**Məsul redaktorlar**

| | |
|---|---|
| Həcər Hüseynova | filologiya elmləri doktoru, dosent |
| Ülviyyə Hacıyeva | filologiya üzrə fəlsəfə doktoru, dosent |

**Məsul katib**

Sevinc Mamoyeva

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin**
**Elmi Şurasının 15 aprel 2016-cı il, 15 saylı qərarı ilə çap olunur.**
Təsisçi: **Azərbaycan Respublikası Təhsil Nazirliyi**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**

Jurnal ildə iki dəfə çıxır.
Azərbaycan Dövlət Pedaqoji Universiteti Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri №1
Bakı, 2023, 122 s.
Ünvan: AZ 1000, Azərbaycan Respublikası, Bakı, Üzeyir Hacıbəyli küçəsi 68
Адрес: AZ 1000, Азербайджанская Республика, Баку, улица Узеира Гаджибейли 68
Address: AZ 1000, Azerbaijan Republic, Baku, Uzeyir Hajibeyli street 68
Tel.: (99412) 493-00-32 Fax: (99412) 598-10-35
e-mail: n_s_q@mail.ru

## Sahələr üzrə redaksiya komissiyaları:

- **Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi ixtisası üzrə:** pedaqogika elmləri doktoru, professor Tamilla Kəngərli (sədr), pedaqogika üzrə fəlsəfə doktoru Firəngiz Rzayeva, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Nelli Abutidze, pedaqogika üzrə fəlsəfə doktoru Məlahət Məmmədova, pedaqogika üzrə fəlsəfə doktoru Kəmalə İsmayılova;

- **Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (Musiqinin tədrisi metodikası) ixtisası üzrə:** psixologiya elmləri doktoru, professor Qızxanım Qəhrəmanova (sədr), pedaqogika üzrə fəlsəfə doktoru, dosent Mədinə Tuayeva, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Firəngiz Hidayətova, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Afət Həsənova;

- **Musiqi sənəti ixtisası üzrə:** sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Nərminə Quliyeva (sədr), sənətşünaslıq doktoru, professor Nailə Rəhimbəyli, sənətşünaslıq doktoru, professor Ülkər Əliyeva, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Kamilə Dadaşzadə, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Zemfira Abdullayeva;

- **Kulturologiya ixtisası üzrə:** tarix üzrə elmlər doktoru Fuad Məmmədov (sədr), fəlsəfə elmləri doktoru, professor Mübariz Süleymanlı, fəlsəfə elmləri doktoru, professor Niyazi Mehdi, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Laçın Həsənova;

- **Məktəbəqədər təlim, tərbiyə ixtisası üzrə:** pedaqogika elmləri doktoru, professor Şəhla Əliyeva (sədr), pedaqogika elmləri doktoru, professor Museib İlyasov, pedaqogika üzrə fəlsəfə doktoru Sədaqət Əliyeva, pedaqogika üzrə fəlsəfə doktoru Pərişan Həsənova, psixologiya üzrə fəlsəfə doktoru Qəribə Rəhimova.

---

**11 may 2016-cı il tarixdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyində dövlət qeydiyyatına alınmışdır.**

**Qeydiyyat №: 4050**

# MÜNDƏRİCAT

## ÜMUMİ PEDAQOGİKA, PEDAQOGİKANIN VƏ TƏHSİLİN TARİXİ

**QƏDİMOVA J.**
Müasir təhsilin dəyişən paradiqması ........................................................ 10
**HÜSEYNOVA H.**
Musiqinin sehrli gücü .................................................................................. 15
**RZAYEVA F.İ.**
Uşaqların şəxsi keyfiyyətlərinin formalaşmasına pedaqoji təsir ............ 22
**ƏLİYEVA M.T.**
Qərbdə və Azərbaycanda müasir musiqi təhsilinin müqayisəli təhlili ........ 30
**İSMAYILOVA K.Q.**
"Musiqi" fənninin tədrisində şagirdlərin musiqi mədəniyyətinin formalaşdırılması ........................................................................................ 35
**QASIMOVA L.E.**
Müasir müsiqi dərsi və innovativ texnologiyalar ....................................... 39
**QULİYEVA Ç.R.**
Musiqi müəliminin peşə səriştəsi strukturunda yaradıcılıq komponenti ..... 43
**ABDULLAYEVA L.Ş.**
Müəllimin humanist keyfiyyətləri ……………………………………... 50
**ŞAKİRLİ N.F.**
Musiqi tərbiyəsində yaradıcı proses tələbə və şagirdin şəxsi keyfiyyəti kimi ....................................................................................................... 54

## TƏLİM VƏ TƏRBİYƏNİN NƏZƏRİYYƏSİ VƏ METODİKASI (MUSİQİNİN TƏDRİSİ METODİKASI)

**AXUNDOVA G.Ə.**
Musiqi müəllimlərinin dirijorluq hazırlığı ................................................ 61
**HİDAYƏTOVA F.Ş.**
Musiqi təhsilinin məktəblilərin bədii tərbiyəsi məqsədlərinə yönəldilməsi 66
**ASLANOVA G.Ç.**
Azərbaycan bəstəkarlarının fortepiano üçün yazılmış əsərlərində xalq musiqisindən istifadə ......................................................................... 73

## MUSİQİ SƏNƏTİ

**CƏFƏROVA C.F.**
Dünya təcrübəsində və Azərbaycanda konsertmeysterlik sənətinin yaranması və inkişafı ........ 80
**RAMAZANOV R.**
Müasir musiqinin təhlilinə dair elmi-nəzəri mülahizələr ........ 86

## KULTUROLOGİYA

**ABDULLAYEVA Z.K.**
Heydər Əliyev və Azərbaycan mədəniyyəti ........ 92
**QULİYEVA L.D.**
Azərbaycanın sosial-fəlsəfi fikrinin tarixində multikulturalizm və tolerantliq ideyaları ........ 98

## MƏKTƏBƏQƏDƏR TƏLİM, TƏRBİYƏ

**QƏRİBOVA A.H.**
Uşaq bağçalarında musiqi repertuarı məsələləri ........ 105
**ƏLİXANOVA G.H.**
Yeniyetmə uşaqlarda peşə seçiminə münasibətin formalaşması ........ 110

**Qaydalar** ........ 116

# СОДЕРЖАНИЕ

## ОБЩАЯ ПЕДАГОГИКА, ИСТОРИЯ ПЕДАГОГИКИ И ОБРАЗОВАНИЯ

**КАДИМОВА Ж.**
Меняющаяся парадигма современного образования ........................... 10
**ГУСЕЙНОВА Х.**
Волшебная сила музыки ........................................................................ 15
**РЗАЕВА Ф.И.**
Педагогическое воздействие на формирование личностных качеств детей ........................................................................................................ 22
**АЛИЕВА М.Т.**
Сравнительный анализ современного музыкального образования на Западе и в Азербайджане ...................................................................... 30
**ИСМАЙЛОВА К.Г.**
Формирование музыкальной культуры учащихся при преподавании предмета «Музыка» .............................................................................. 35
**ГАСЫМОВА Л.Э.**
Современные музыкальные уроки и инновационные технологии ...... 39
**ГУЛИЕВА Ч.Р.**
Творческий компонент в структуре профессиональной компетенции учителя музыки ............................................................ 43
**АБДУЛЛАЕВА Л.Ш.**
Гуманистические качества учителя ...................................................... 50
**ШАКИРЛИ Н.Ф.**
Творческий процесс в музыкальном образовании как личностное качество студента и ученика ................................................................ 54

## ТЕОРИЯ И МЕТОДИКА ОБУЧЕНИЯ И ВОСПИТАНИЯ (МЕТОДИКА ПРЕПОДАВАНИЯ МУЗЫКИ)

**АХУНДОВА Г.А.**
Дирижёрская подготовка учителей музыки .......................................... 61
**ГИДАЯТОВА Ф.Ш.**
Направление музыкального образования на цели художественного воспитания школьников ........................................................................ 66
**АСЛАНОВА Г.Ч.**
Использование народной музыки в фортепианных произведениях азербайджанских композиторов ............................................................ 73

## МУЗЫКАЛЬНОЕ ИСКУССТВО

**ДЖАФАРОВА Дж.Ф.**
Возникновение и развитие концермейстерского искусства
в мировой практике и Азербайджане .................................................. 80
**РАМАЗАНОВ Р.**
Научно-теоретические рассмотрения по анализу современной
музыки .................................................................................................. 86

## КУЛЬТУРОЛОГИЯ

**АБДУЛЛАЕВА З.К.**
Гейдар Алиев и азербайджанская культура ......................................... 92
**ГУЛИЕВА Л.Д.**
Идеи толерантности и мультикультурализма в истории
социально-философской мысли Азербайджана .................................... 98

## ДОШКОЛЬНОЕ ОБУЧЕНИЕ И ВОСПИТАНИЕ

**ГАРИБОВА А.Г.**
Вопросы музыкального репертуара в детских садах ........................... 105
**АЛИХАНОВА Г.Г.**
Формирование отношения к выбору профессии у детей
подросткового возраста ....................................................................... 110
**Правила оформления статей**............................................................ 116

# CONTENTS

## GENERAL PEDAGOGICS, HISTORY OF PEDAGOGICS AND EDUCATION

**GADIMOVA J.**
The changing paradigm of modern education …………………………… 10
**HUSEYNOVA H.**
The magical power of music ……………………………………………... 15
**RZAYEVA F.I.**
Pedagogical impact to the formation of personal qualities of children ….. 22
**ALIYEVA M.T.**
Comparative analysis of modern music education in the West and in Azerbaijan ……………………………………………………………………... 30
**ISMAYILOVA K.G.**
Formation of the musical culture of students in teaching the subject of "Music" .......................................................................................................... 35
**GASIMOVA L.E.**
Modern music lessons and innovative technologies ……………………... 39
**QULIYEVA Ch.R.**
The creative component in the structure of the professional competence of a music teacher ……………………………………………... 43
**ABDULLAYEVA L.S.**
Humanistic qualities of a teacher ………………………………………… 50
**SHAKIRLI N.F.**
Creative process in music education as a personal quality of the student and pupil ...................................................................................................... 54

## THEORY AND METHODS OF TRAINING AND EDUCATION (METHODS FOR TEACHING OF MUSIC)

**AKHUNDOVA G.A.**
Conductor's training for music teachers …………………………………… 61
**HIDAYATOVA F.Sh.**
Directing music education to the goals of artistic education of schoolchildren ……………………………………………………………. 66
**ASLANOVA G.Ch.**
The use of folk music in the piano works of Azerbaijani composers …… 73

## ART OF MUSIC

**JAFAROVA J.F.**
The origin and development of concernmeister art in world practice and Azerbaijan ........................................................................................ 80
**RAMAZANOV R.**
Scientific theoretical considerations on the analysis of modern music ….. 86

## CULTUROLOGY

**Abdullaeva Z.K.**
Heydar Aliyev and the culture of Azerbaijan ……………………………. 92
**GULIYEVA L.D.**
The ideas of tolerance and multiculturalism in history of social-philosophical thought of Azerbaijan ……………………………… 98

## PRESCHOOL TRAINING AND UPBRINGING

**GARIBOVA A.H.**
Questions of the musical repertoire in kindergarten ……………………... 105
**ALIKHANOVA G.H.**
Formation of attitude towards career choice in adolescent children …….. 110
**Rules**……………………………………………………………………. 116

Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №1, 2023, **s. 10-14**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №1, 2023, **c. 10-14**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №1, 2023, **pp. 10-14**

# ÜMUMİ PEDAQOGİKA, PEDAQOGİKANIN VƏ TƏHSİLİN TARİXİ

**UOT 37**

**Jalə Qədimova**
pedaqogika elmləri doktoru, professor
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
*E-mail: jale.gadimova@mail.ru*

## MÜASİR TƏHSİLİN DƏYİŞƏN PARADİQMASI

***Açar sözlər:*** *qloballaşma, təhsilin modernləşdirilməsi, idarəetmə, yeni texnologiyalar, kurikulum, təhsil modeli*

İndiki zamanda ölkəmizin təhsil sistemində həyata keçirilən yenilik və modernləşmənin əsas istiqamətlərindən biri təhsilin yüksək keyfiyyətinə nail olmaqdır. Təhsilin keyfiyyətinin yüksəldilməsində ona nəzarət, indiki dövrün tələblərinə uyğun yeni metod və formalarla idarə olunması, yeni yollar və vasitələrin tapılması aktual problem kimi qarşıda duran vacib məsələlərdən biridir.

İndiki dövrdə cəmiyyətdə adətən humanitar elmlərə xüsüsu yer ayrılır, çünki bu elmlərin müasir məktəblər səviyyəsində mənimsənilməsi nəticəsində tədris prosesində şagird və tələbələrin dünyagörüşünün əsasları formalaşır, mənəvi, fiziki və psixoloji mənada möhkəmlənir.

Dinamik surətdə dəyişən bazar iqtisadiyyatında bu günün tələblərinə uyğunlaşa bilən mütəxəssislərin hazırlanmasını təmin etmək üçün ali məktəb informasiya texnologiyalarını və tədrisin fəal formalarını səylə həyata keçirməlidir.

**Жаля Кадимова**

## МЕНЯЮЩАЯСЯ ПАРАДИГМА СОВРЕМЕННОГО ОБРАЗОВАНИЯ

***Ключевые слова:*** *глобализация, модернизация образования, управление, новые технологии, куррикулум, модель образования*

Одним из основных направлений инноваций и модернизации, осуществляемой в образовательной системе нашей страны в настоящее время, является достижение высокого качества образования. Контроль в сфере образования, управление новыми методами и формами,

соответствующими требованиям современного периода, поиск новых путей и средств – ключевые вопросы повышения качества образования, стоящие перед нами как актуальная проблема.

В настоящее время особое внимание уделяется гуманитарным наукам, так как в результате освоения этих наук на уровне современных школ в процессе обучения формируются, морально, физически и психологические укрепляются основы мировоззрения учеников и студентов.

Для обеспечения подготовки специалистов, адаптирующихся к требованиям сегодняшнего дня в условиях динамически меняющейся рыночной экономики, высшие учебные заведения должны усердно применять информационные технологии и осуществлять активные формы обучения.

**Jale Gadimova**

## THE CHANGING PARADIGM OF MODERN EDUCATION

***Keywords:*** *globalization, modernization of education, management, new technologies, curriculum, educational model*

One of the main directions of innovation and modernization introduced in the education system of our country today is to achieve high quality of education. To improve the quality of education, the following goals are set: control of education, new management methods and forms, which meet current needs, finding new ways and means.

Nowadays, humanitarian sciences are in the focus of attention, because study of these sciences in modern schools helps to develop the worldview of pupils and students in the educational process, and improves their spiritual, physical and psychological condition.

To ensure the development of specialists who can adapt to current requirements in a dynamically changing market economy, higher education institutions should actively apply information technologies and active forms of education.

XXI əsrin başlanğıc illərində siyasi və iqtisadi sahələrdə Azərbaycanın potensialının güclənməsi əhalinin rifahının yüksəlməsinin əsas şərtlərindən biri oldu. Qloballaşma yolu ilə gedən müasir dünya qarşısında duran beynəlxalq rəqabət şərtlərinə tezliklə uyğunlaşmaq bacarığı, onun uğurlu və davamlı inkişafı da mühüm əhəmiyyət kəsb edən amillərdən biridir. Yüksək səviyyədə inkişaf etmiş ölkələrin rəqabət üstünlüyü başlıca olaraq təhsillə müəyyənləşən insan potensialının inkişafı ilə bağlıdır. Hazırda ölkəmizin bütün sahələrində olduğu kimi, təhsil sahəsində də sürətli dəyişikliklər baş verir. Lakin hələ bir sıra həll

olunmamış problemlər qalmaqdadır. Onların həllini əvvəldən görmək çətindir. Çünki əldə olunan bilik sürətli dəyişikliklərə görə tez bir zamanda köhnəlir, bu səbəbdən bilik və təhsilin paradiqması dəyişilir. Məhz bu deyilənləri nəzərə alıb qeyd edə bilərik ki, insanların əldə etdikləri ali təhsil faktorları da dəyişilir. Aktual məsələlərdən biri də indiki dövrdə universitetlərdə müasir tələblərə uyğun yeniliklər və beynəlxalq rəqabətə dözümlülük yaratmaqdır. Bunu nəzərə alan dövlətimiz dünyanın bir çox nüfuzlu ölkələrində olduğu kimi, ali təhsil sahəsinə diqqəti daha da artırır.

İndiki zamanda ölkəmizin təhsil sistemində həyata keçirilən yenilik və modernləşmənin əsas istiqamətlərindən biri təhsilin yüksək səviyyədə keyfiyyətinə nail olmaqdır. Təhsilin keyfiyyətinin yüksəldilməsində ona nəzarəti, indiki dövrün tələblərinə uyğun yeni metod və formalarla idarə olunması, yeni yollar və vasitələrin tapılması aktual bir problem kimi qarşıda duran vacib məsələlərdən biridir. Çünki müasir təhsilin dəyişən paradiqması, onun yeniləşməsi və modernləşməsi istiqamətində formalaşmasına yönəlməsi ilə əlaqədar olaraq onun inkişafının proqram məqsədli idarə olunması əhəmiyyətli dərəcədə dəyişir. Bu isə təhsil siyasətində onun formalaşması və təhsilin proqram məqsədli idarə olunmasının, onun daxil edilməsinin müasir tələblərə uyğun yeni yollarının axtarılmasını tələb edir.

Azərbaycan dövlət qanunvericiliyində baş vermiş və baş verən dəyişikliklər ali məktəb, ali təhsil və sonrakı təhsil haqqında qanunlardakı dəyişikliklər, yeni hüquqi təşkilati formalar haqqında qanunların layihələri ali məktəblərin inkişaf strategiyasının seçilməsinə güclü təsir göstərir. İndiki zamanda müasir bazar iqtisadiyyatının inkişafının səviyyəsi yeni bir təhsil keyfiyyəti də nəzərdə tutur. Yəni cəmiyyət üçün yeni biliklər üzərində qurulmuş iqtisadiyyat hazırlanmalıdır. Əgər dövlət təhsil sistemi bazar iqtisadiyyatı ilə əlaqəsini itirərsə, onda getdikcə öz rolunu itirməyə başlayar. İndi müəssisələr, biznes strukturları öz təhsil institutlarını yaradırlar. Hazırda müasir tələblərə uyğun olaraq Azərbaycan təhsil sisteminin qloballaşması prosesi gedir və ölkəmizin təhsil sistemi təhsil xidmətləri göstərən dünya bazarına daxil olmağa başlayır.

Ölkəmizdə bütün sahələrdə olduğu kimi, 1993-cü ildə ikipilləli ali təhsil sisteminə (bakalavr və magistr) keçildi. 1995-ci ildə qəbul olunmuş Konstitusiyaya əsasən icbari ümumi təhsil tətbiq olunaraq təhsilin bütün sahələrində yenilik və modernləşmə işləri aparılmağa başlandı.

İndiki zamanda təhsilin proqram məqsədli idarə olunma prinsipi ən önəmli məsələlərdən biridir. Bu prinsip artıq təhsilin idarə olunmasına daxil edilmişdir, lakin burada müxtəlif yanaşmalar mövcuddur. Ümumiyyətlə, deyə bilərik ki, proqram məqsədli idarə olunma prinsipinin əsas nailiyyəti aşağıda qeyd olunanların həyata keçməsindən asılıdır: təhsil məkanında idarəetmə fəaliyyətinə üstünlük vermək; proqram əsasında idarəetmə fəaliyyətini alqoritmləşdirmək; əldə olunmuş nəticələrin reallaşdırılması üçün müsbət nailiyyətlərin monitorinqini

həyata keçirmək və s. Həm də respublikamızda təhsil sisteminin inkişafında əsas problemlər kimi: insan kapitalı inkişafını ölkə vətəndaşlarının rifahının yüksəlməsi ilə əlaqələndirən mexanizmlərin yaradılması; təhsilin məzmununun, təhsil texnologiyalarının; təhsil sisteminin bütün strukturunun və infrastrukturunun, kadr potensialının güclənməsi və onların seçilməsi, yeni iqtisadiyyatın tələbləri ilə təhsil arasında səddin götürülməsi; təhsil sisteminin idarə olunmasında dövlətin və özünü idarə olunmanın rolunun yenidən artırılması amillərini göstərmək olar. Ancaq etiraf edək ki, hazırda təhsilin idarə olunma strukturu təhsil fəaliyyətinin həyata keçirilməsində yaranmış forma müxtəlifliyinə uyğun gəlmir. Göstərilənlərin həyata keçirilməsində əsas rol oynayan problemlərdən biri inkişaf proqramıdır. İnkişaf proqramı keçid prosesinin ümumiləşmiş ideyası olan strateji məsələdir. Təhsil siyasətindən biri də hazırlanmış bu cür inkişaf proqramının həyata keçirilməsi və qiymətləndirilməsidir, həm də əldə olunmuş dəyərlərin, məqsədlərin, hər bir idarəetmə üsulundan müxtəlif mexanizmlər vasitəsilə həyata keçirilməsidir.

Təhsil sisteminin idarə olunmasında proqram məqsədli prinsip üstünlük təşkil etdiyi şəraitdə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən aşağıdakı kimi mexanizmlər sistemi müəyyən edilmişdir: inkişaf proqramı; kiçik proqramların həyata keçirilməsi; illik plan; monitorinq və məktəbdaxili nəzarət; təhsil proqramı.

Respublikanın Elm və Təhsil Nazirliyi tərəfindən təhsil sisteminin inkişafı, vahid təhsil konsepsiyası və proqramı məsələsi tam həll olunmaqdadır. Bu yolda atılan ən mühüm addım təhsil sistemində yeni müasir tələblərə cavab verən bazis tədris planının hazırlanmasıdır. Hazırda yenilik, yeniləşmə, modernləşmə proseslərinə şərait yaradılmasının yeni yolları axtarılır.

İndiki dövrdə cəmiyyətdə adətən humanitar elmlərə xüsusi yer ayrılır, çünki bu elmlərin müasir məktəblər səviyyəsində mənimsənilməsi nəticəsində tədris prosesində şagird və tələbələrin dünyagörüşünün əsasları formalaşır, mənəvi, fiziki və psixoloji mənada möhkəmlənir.

Dünya ölkələri arasında ən aktual məsələlərdən biri təhsilin keyfiyyəti məsələsidir. Hazırda son on ildə aparılan təhsil islahatlarının nəticəsi olan yeniləşmə və modernləşmənin həyata keçməsi öz müsbət nəticələrini göstərir. Təhsilin keyfiyyətinin yüksəldilməsi, dünya təhsil sisteminə inteqrasiya və vahid təhsil məkanının yaradılmasında indiki zamanın tələblərinə uyğun yeni informasiya texnologiyalarından istifadə böyük rol oynayır. Bu məsələ ölkəmizdə uğurlu həllini tapmaqdadır.

Hazırda distant təhsil ən perspektiv təhsil texnologiyalarından biridir. İndiki zamanda gündən-günə artan əhalinin təhsil tələbata uyğun tamamilə təmin olunur. İnternet və başqa gündəlik məlumatlarla zənginləşən cəmiyyət dünyada gedən qloballaşma prosesini vaxtında mənimsəmək üçün yeni təhsil modeli, distant təhsil modelini formalaşdırır. Son 14 ildə bakalavr və magistr təhsil pilləsində əldə edilmiş müsbət nəticələr təhsil sistemində müasir tələblərə uyğun hüquqi-normativ

bazanın yaranmasında, iqtisadi və sosial həyatın demokratikləşməsinin müvəffəqiyyət qazanmasında böyük rol oynayır. Milli təhsil quruculuğunda yenilik, yeniləşmə və modernləşmə yeni məzmun və struktur dəyişiklikləri ilə nəticələndi. Bu dəyişikliklər həm də yeni anlayışların yaranmasına, məsələn, kurikulumun meydana gəlməsinə səbəb oldu. Ölkəmizdə bu sənəd dövlət tərəfindən təsdiq edildikdən sonra geniş pedaqoji ictimaiyyət tərəfindən müzakirə olunmuş, ayrı-ayrı fənlər üzrə fənn kurikulumları hazırlanmış və ümumtəhsil məktəblərində tətbiq olunur. Kurikuluma dünyanın ən qabaqcıl ölkələrində, o cümlədən Avropada təhsilin əsasını təşkil edən proqram kimi yanaşılır. Azərbaycanın Bolonya təhsil sisteminə qoşulması, ölkəmizin Ümumdünya Ticarət Təşkilatına daxil olmasına hazırlıq prosesi kimi irəliyə doğru atılan bir addımdır. Bu proqrama əsasən müxtəlif ölkələrin təhsil sisteminin qloballaşdırılması və vahid təhsil məkanı və standartları yaratmaq istiqamətində hərəkət edilir.

Yuxarıda deyilənləri geniş şəkildə tam araşdırdıqdan sonra belə nəticəyə gəlmək olur ki, ölkəmizdə keçid dövründə bütün sahələrdə olduğu kimi, təhsil sistemində də hazırlanmış proqramlar ardıcıllıqla və ehtiyatla həyata keçir, bu isə sevindirici haldır. Yeni universitetlərin yaranması daha keyfiyyətli formaların və cəmiyyətin ali təhsilə artan tələbatını təmin etməyə qadir olan optimal modellərin hazırlanması problemlərini nəzərdən keçirir. Dövlət tərəfindən maliyyələşdirmənin ixtisar olunması, ödənişli təhsil sektorunun genişlənməsi problemləri bir çox ölkələrdə böyük əhəmiyyət kəsb edən ənənədir. Dünyanın bütün ölkələrində ödənişli təhsil sürətlə inkişaf edir. Ali məktəblər bazar iqtisadiyyatının fəal subyektlərinə çevrilir. Bu isə onların inkişafına təsir göstərməyə bilməz.

## ƏDƏBİYYAT


1. Mehrabov A.O. Pedaqoji prosesin optimallaşdırılmasının psixo-pedaqoji məsələləri. 2011.
2. Axundov S.A. İstedadlı şagirdlərlə işin təşkili // Azərbaycan məktəbi, 1990.
3. Əliyev B., Cabbarov R. Təhsildə şəxsiyyət problemi. 2008.
4. Qədimova J.H. Musiqi pedaqogikası tarixilik və müasirlik. 2012.
5. Paşayev Ə., Rüstəmov F. Pedaqogika. 2003.
6. Abbasov Ə.M. Təhsil islahatı və kurikulumu // İbtidai məktəb və məktəbəqədər tərbiyə. 2005.
7. Абдуллаева Р.Г. Проблема художественного стиля в информационной культуре. Баку: Элм, 2003.



**Məqalənin redaksiyaya daxil olma tarixi: 01.05.2023**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 05.05.2023**
**Məqalənin çapa qəbul olunma tarixi: 01.06.2023**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika elmləri doktoru, professor Tamilla Kəngərli**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 78**

**Həcər Hüseynova**
filologiya elmləri doktoru, professor
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
*E-mail: hacerhuseynova@mail.ru*
**https://orcid.org/0000-0002-3223-427X**

# MUSİQİNİN SEHRLİ GÜCÜ

***Açar sözlər:*** *musiqi, sehrli, sağlamlıq, müalicəvi, din, islam*

Allahın bəxş elədiyi nemətlər sırasında musiqi də var. Musiqinin insan həyatında rolu danılmazdır. Bəzən dini qadağaları əsas gətirib musiqini düzgün təqdim etməsələr də, bu, sosializm quruluşunun, Marksizm-Leninizm cərəyanının uydurmalarından başqa bir şey olmamışdır. Çünki insan musiqisiz yaşamamışdır. İnsanı yaradan onun yaşaması üçün vacib olan hər şeylə təmin etmişdir. İnsan həyatı boyunca gözəl sevincli günlərində də, kədərli anlarında da musiqi onu müşayiət etmişdir.

**Хаджар Гусейнова**

## ВОЛШЕБНАЯ СИЛА МУЗЫКИ

***Ключевые слова:*** *музыка, магия, здоровье, исцеление, религия, ислам*

Музыка относится к благословению Бога. Роль музыки в жизни человека неоспорима. Хотя иногда и не правильно преподносили музыку, ссылаясь на религиозные запреты, это было не более чем фикции социалистического строя и марксистско-ленинского направления. Потому что человек не жил без музыки. Создатель снабдил человека всем необходимым для жизни. На протяжении всей жизни человека музыка сопровождала его в его прекрасные счастливые дни и в его печальные минуты.

**Hajar Huseynova**

## THE MAGICAL POWER OF MUSIC

***Keywords:*** *music, magic, health, healing, religion, Islam*

Music is among the blessing of God. The role of music in person's life is undeniable. Although sometimes they did not present music correctly, citing religious prohibitions, it was nothing more than fictions of the socialist system and the Marxism-Leninism trend. Because man has not lived without music. The Creator has provided man with everything necessary for him to live. Throughout human life, music has accompanied him in his beautiful happy days and in his sad moments.

Uca Tanrı insanı yaratmış, ona həyat, ruh vermis, yeraltı və yerüstü sərvətlər bəxş etmiş, insanların ağzına söz, kəlam, kitab, elm vermişdir. Allahın bəxş elədiyi nemətlər sırasında musiqi də var. Musiqinin unsan həyatında rolu danılmazdır. Bəzən dini qadağaları əsas gətirib musiqini düzgün təqdim etməsələr də, bu, sosializm quruluşunun, Marksizm-Leninizm cərəyanının uydurmalarından başqa bir şey olmamışdır. Çünki insan musiqisiz yaşamamışdır. İnsanı yaradan onun yaşaması üçün vacib olan hər şeylə təmin etmişdir. İnsan həyatı boyunca gözəl sevincli günlərində də, kədərli anlarında da musiqi onu müşayət etmişdir.

Dinimizdə də musiqiyə qadağa qoyulmamaşdır. Çünki Allahın insanlara bəxş etdiyi mənəvi sərvətlər sırasında musuqinin öz yeri, öz məqamı vardır. Musiqi duyumunu, gözəl səsi də, təbiətdəki gözəl səsləri - çayın şırıltısını, quşların cəh-cəhini, yağışın səsini də insanlara bəxş edən Allahdır. Hətta müqəddəs dini kitabımız "Qurani-Kərim"in özü belə, həzin musiqi ilə oxunur. Hər gün beş dəfə namaz vaxtını bildirmək məqsədilə məscidlərdən oxunan namazın öz ecazkar ahəngi, musiqisi var. Deməli, musiqini cəmiyyətə bəxş edən uca Tanrı onun ecazkar təsiri ilə insanları doğru yola, sağlam mühitə, böyük işlər görməyə yönəltmişdir.

Musiqi, demək olar ki, tarixin hər dövründə və həyatın bütün sahələrində mövcud olmuşdur. Bu mənada Quranın nazil olmağa başladığı miladi yeddinci əsrdə musiqi ilə bağlı bir çox məqamdan danışmaq olar. Həzrət Peyğəmbərimizin (s.ə.s) hədislərinə nəzər yetirəndə görürük ki, orada bu və ya digər formada dövrün musiqi ənənəsindən xəbər verilmiş, dövrün musiqi mədəniyyətindən bəhs edilmiş, o dövrün musiqiçilərinin adları çəkilmiş, çalğı alətlərinin adlarına yer verilmişdir. Vəhyin nazil olduğu ərəb cəmiyyətində musiqi fəaliyyətinin mövcud olması ilə bağlı əldə bir sıra məlumat olsa da Quran ayələrində məhz "musiqi" sözünü ifadə edən hər hansı deyim və ya ifadəyə rast gəlmirik.

Quranda birbaşa musiqi mövzusuna müraciət edilməsə də, dolayı yolla bu məsələyə təmas edildiyini görürük. İslam alimlərinin musiqiyə işarə edildiyini qeyd etdikləri bir sıra ayələr vardır. Dolayı yolla musiqidən bəhs edildiyi vurğulanan bu ayələrdə daha çox zərərli və din əleyhinə köklənmiş söz, davranış məqamlardan bəhs edildiyini görürük:

*“Siz (qəflət içində) oynayır - əylənirsiniz (Nəcm, 53/61). “Onlar yalan yerə şahidlik etməz və boş şeylərlə qarşılaşdıqları zaman vüqarlı bir şəkildə oradan keçib gedərlər” (Furqan, 25/72). “Onlar boş söz eşitdikləri zaman ondan üz çevirər və: “Bizim əməllərimiz bizə, sizin əməlləriniz sizə aiddir. Sizə salam olsun! Biz cahilləri (özümüzə dost tutmaq) istəmirik”, - deyərlər” (Qasas, 28/55) və s.*

Göründüyü kimi, ayələrdə birbaşa müasir musiqidən bəhs edilməsə də, bəzən musiqi elementlərinin olduğu ayələrdə musiqinin nəzərdə tutulduğunu əsas götürmüşlər.

İslamın təbliği zamanında İbn Haldunun demişdir ki, musiqi iqtisadi rifahın yüksəldilməsi ilə yüksələn, rifah səviyyəsi aşağı olduqda səviyyəsi düşən, tənəzzül edən sənət sahəsidir.

İslamşünas Fərabi isə demişdir ki, tarixən insanlar musiqidən müxtəlif məqamlarda, bəzən öz kədərlərini, bəzən öz sevinclərini ifadə etmək üçün, bəzən də dini rituallar zamanı istifadə etmişlər. Tədqiqatçılar maq (maqiya-sehr)-mağar-muğam sözlərinin eyni semantik sferaya daxil olduğunu isbat etməyə çalışmışlar.

İslam cəmiyyətləri və dövlətləri fəth hərəkatlarından əvvəl, həmçinin fəth hərəkatları davam edən müddətdə, əsasən, Quran tilavəti və dini musiqi ilə məşğul olmuş, fəthlərdən sonra isə əyləncə xarakterli musiqiyə yer vermiş, xarici mədəniyyətlərin musiqi anlayışını mənimsəməyə və oradan təsirlənməyə başlamışlar. İslam tarixi boyunca din alimləri, fəqihlər, təfsir və hədis alimləri musiqi ilə bağlı bu və ya digər hökmlər bildirmiş olsalar da, sosial reallıq onu göstərir ki, müsəlman cəmiyyətində musiqinin varlığı tarixən hər zaman davam etmişdir.

Sözsüz ki, hər şeyin yaxşısı və pisi olduğu kimi, musiqinin də insanlarda gözəl, incə ruh yaradanı ilə yanaşı, qətllər törətməyə, cinayətlərə həvəsləndirən, mənfi hisslər yaradan formaları da vardır. Həmin musiqilər hər zaman pislənmiş, tənqid edilmişdir.

Bizə məlumdur ki, musiqi həm əhvali-ruhiyyəmizi yaxşılaşdıra, həm də pisləşdirə bilir. Tədqiqatçılar isbat etmişlər ki, musiqinin insana göstərdiyi təsir bizim anladıqlarımızdan daha dərindir. Əhvalımızdan asılı olaraq qulaq asdığımız musiqilər fərqli olur. Biri klassik musiqini, aşıq havasını, biri cazı və ya hard-rocku dinləməyi sevir.

Musiqi sədaları dinləyərək yatmağı üstün tutan insanlar da vardır. Körpə uşağın həzin musiqi sədaları altında-ana laylasının sədaları altında yatması belə məqbul sayılır. Onu da qeyd etmək yerinə düşər ki, folklor nümunələri saydığımız, min illər öncəyə aid mədəniyyətimizi əks etdirən laylalar da körpələri yatırmaq məqsədilə analarımızın, nənələrimizin oxuduğu həzin parçalar olmuş, xüsusi avazla oxunmuşdur. Belə parçalar bütün xalqlarda olmuşdur. Analar öz körpələri haqqında gələcək arzu və istəklərini laylalarda dilə gətirmişlər. Bir neçə nümunəyə baxaq:

Laylay dedim yatasan,
Qızılgülə Batasan,
Qızılgülün içində
Şirin yuxu tapasan.
***
Laylay balam, a laylay,
Körpə balam, a laylay.

Laylaların müşayiət olunduğu musiqi onları yatırmaq məqsədilə söyləndiyi üçün daha həzin olur. Bir az böyük uşaqlarda isə, onları oynatmaq, əzizləmək məqsədilə söylənən parçalar- nazlamalar oynaq ritmlə oxunur. Məsələn;

Dağda darılar
Sünbül sarılar
Qoca qarılar
Bu balama qurban.

Müxtəlif səpkili mahnılrın insanların fiziki və əqli vəziyyətinə, psixikasına göstərdiyi təsir elmi əsaslarla öyrənilmişdir. Müəyyən edilmişdir ki, müxtəlif səpkili mahnılar bizim emosional, fiziki sağlamlığımıza təsir edir. Musiqinin insanlara təsiri psixo-emosional xarakterlidir. Hər hansı bir psixoloji vəziyyətdə musiqi həmin vəziyyətlə harmoniya yaradarsa, insana müsbət təsir göstərər. Əks halda mənfi təsir göstərib vəziyyəti daha da gərginləşdirər.

Musiqinin insanların fiziki durumuna və psixologiyasına təsiri həmin musiqinin psixoemosional təsiri ilə əlaqələndirilir. Musiqinin insanın psixoloji durumu ilə harmoniya təşkil etməzsə, bu zaman onun təsiri mənfi olacaq.

Musiqinin yalnız üslubu deyil, ritmi, tonu, hansı musiqi alətində ifa edilməsi mühümdür və insanın fiziki vəziyyətinə təsir göstərir.

Məsələn, simli alətlərdə çalınan musiqi insanların əsəblərini sakitləşdirir, Həkimlərin bildirdiyinə görə, ürək və qan-damar sisteminin işini qaydaya salır.
Nəfəs alətlərində ifa edən şəxslərin ağciyərləri, nəfəs orqanları inkişaf edir. Zərb alətləri isə ürəyin ritmini bərpa edir, qaraciyərin inkişafına müsbət təsir göstərir.

Hər bir musiqi insanların əzələlərindəki yorğunluğu atmasına kömək edir. Bu baxımdan klassik musiqi daha təsirlidir. Musiqinin insanı fiziki cəhətdən gümrahlandırması istiqamətində dünyanın müxtəlif musiqiçilərinin əsərləri dəyərləndirilmişdir. Musiqininbir terapiya adlandırmaq doğru olar. Məsələn; Motsartın musiqiləri beyin fəaliyyətini nizamlamağa, Bethovenin "Fidelio"su baş ağrısını aradan qaldırmağa, Vivaldinin "İlin fəsilləri" əsəri isə yaddaşı qaydaya salmağa müsbət təsir göstərir. Hətta belə fikir var ki, klassik musiqi dinləyən xəstə

insanlar digər musiqiləri dinləyənlərdən daha tez sağaldır. Nitşenin dediyi kimi, musiqisiz həyat mümkün deyil.

Hər bir insan öz bədəninin hansı musiqidən daha müsbət nəticələr əldə etdiyini bilmək istəsə, özü müxtəlif musiqi növlərinə qulaq asaraq müəyyən edə bilər.

Azərbaycan ədəbiyyatı nümunələri, klassik və müasir şairlərimiz, yazıçılarımız yaxşı musiqiyə hər zaman dəyər vermis, ona əsərlər həsr etmişlər. Belə sənətkarlardan biri də dahi şairlərdən biri olan Məhəmməd Füzuli olmuşdur.

Şairin "Yeddi cam" əsəri Nizaminin "Yeddi gözəl" poeması səpkisindədir. Həftənin yeddi günü, yeddi planet, yeddi qədəh, musiqi ilə yeddi görüş əsəri Nizami poemasındakı yeddiliklə bağlıdır. "Yeddi cam" əsəri orijinal bir janrda yazılmışdır. Burada ayrı-ayrı musiqi alətlərinin dili ilə müxtəlif fəlsəfi görüşlərin istiqamətləri öz əksini tapır. İlk görüşdə ney, ümumiyyətlə, dünya və yaradılış haqqında materialist görüşlərə yaxın olan çox maraqlı mülahizələr irəli sürür. O, yoxluq aləmindən dörd ünsürün (su, od, hava və torpaq) sayəsində yarandığını, boy atıb böyüdüyünü, lakin sonradan yenə də həmin dörd ünsürün vəfasızlığı nəticəsində öz şövkətini itirdiyini və bunun üçün də şikayət etdiyini göstərir. Şübhəsiz ki, buradakı neylə Cəlaləddin Ruminin "Məsnəvi"sindəki ney arasında bir yaxınlıq görünür. Füzuli bu əsərində dünya və yaradılış haqqında müəyyən bir münasibəti ifadə etmişdir. Ney görür ki, kəndli tənəkdən şərab alıb əvəzində ona su verir. Tənək bağbandan su alıb əvəzində ona mey verir. Ona görə də belə nəticəyə gəlinir ki, cəmiyyətdəki inqilablardan heç kəs yaxa qurtara bilməz. Şair tar, setar, qanun, dəf, ud ilə birlikdə cam içərkən bu musiqi alətlərinin hər birisini bir təriqətin, bir dünyagörüşünün, bir fəlsəfi fikrin nümayəndəsi kimi canlandırır və son yeddinci camı mütrüblə (artistlə) – insanla içir.

Yeddinci camdan sonra məclisdə mütrüb ona cansız musiqi alətlərindən düzgün söz eşidə bilməyəcəyini göstərib, onun təmas etdiyi bütün fəlsəfi görüşlərin boş və mənasız olduğunu bildirir. Füzuli göstərmək istəyir ki, dünyanın sirlərini ancaq Məhəmməddən (s.ə.s.), islam peyğəmbərindən öyrənmək olar. Nəticə etibarilə, şair mütrübün sözləri ilə bütün fikirlərə yekun vuraraq şəriət mövqeyində durduğunu göstərir.

B.Vahabzadənin "Muğam" şeirində muğamın sehrinə düşməmək olmur. Şair əsərdə, qəzəlin hər bir beytində muğamın bir qüvvəsindən, sehrindən bəhs etmişdir:

Daş ürəklərdə yanıb daşları sındırdı muğam.
Haqqa düşmən olanı haqqa tapındırdı muğam.
Nə güman eyləmisən ondakı tilsimləri sən,
"Kürü ahıyla qurutdu", "Salı yandırdı" muğam.
Onun hər guşəsi bir xatirə, bir canlı kitab,

Keçilən yolları hərdən bizə andırdı muğam.
Su çilər kinli ürəklərdə qəzəb tonqalına,
Neçə qəsdin önünü kəsdi, dayandırdı muğam.
O, ürək yanğısı, göz yaşları, bir çəngə bulud,
Oyadıb yaddaşı, vicdanı utandırdı muğam.
Dəfn edin siz məni Zabul segahın mayəsinə,
Deyirəm, bəlkə, məni bir gün oyandırdı muğam.
Çox kitablar oxudum, zənn elədim bəxtiyaram,
Mənə çox mətləbi ahəstəcə qandırdı muğam.

Böyük şairin muğama həsr etdiyi bu gözəl, kiçik qəzəl – Böyük bir sənət əsərini ürək yanğısı olmadan oxumaq mümkün deyil.

Musiqinin sehrli gücünü böyük qəzəlxan Əliağa Vahid də yüksək qiymətləndirmişdir. Şair yazmışdır:

Musiqi zövqünə ol kəs ki, deyildir vaqif,
Bu büsatın nə bilir ki, nə şərafətləri var.
Tarı bihudə hesab etmə əgər arifsən,
Gör ki, məhrulər əlindən nə şikayətləri var!...
Musiqi qəm dağıdır, zövq verir insanə,
Dərk qılmaz bunu onlar ki, səfahətləri var!

Musiqiyə həsr edilmiş bədii əsərlərin hər birində müəlliflər insanların musiqi zövqünü, xalqımızın musiqi mədəniyyətini inkişaf etdirmək, dünyaya tanıtmaq məqsədini qarşılarına qoymuşlar. Nəticə olaraq Azərbaycanın dünya miqyasında tanınan dəyərləndirilən musiqisi, müənniləri, muğam ustaları olmuşdur. Bülbülün, Xan Şuşinskinin, Müslüm Moqomayevin, Rəşid Behbudovun, onlardan başqa yüzlərlə gənc muğam ustalarının səsinə bütün dünya heyran olmuşdur.

Əsərin elmi yeniliyi ondan ibarətdir ki, bəzən musiqini islam dini qadağan edir-deyənlərə tutarlı bir cavab veriri ki, bütün pis adətlər kimi, islam pis musiqini, insanları ölümə, müharibələrə, qəddarlığa səsləyən musiqini qadağan etmişdir ki, bu da labüddür. Daha sonra konkret musiqi janrlarının konkret xəstəliklərin müalicəsində, muğamın insan ruhunu dincəldən bir xüsusiyyəti olduğu kimi cəhətlər diqqətə çatdırılmışdır. Diqqətə çatdırılmışdır ki, qədim dövrdən bu günə qədər klassik sənətkarlarımız, müasir şair və yazaıçılarımız musiqiyə yüksək dəyər vermis, ən gözəl əsərlərini musiqini vəsf etməyə həsr etmişlər.

## ƏDƏBİYYAT

1. Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. Bakı: Öndər, 2004.
2. Əliağa Vahid. Seçilmiş əsərləri. Bakı: Lider, 2005
3. Məhəmməd Füzuli. "Yeddi cam" əsəri. Seçilmiş əsərləri VI cilddə. V cild. Bakı: Şərq-Qərb, 2005.
4. http://uzeyir.musigi-dunya.az/az/xatire_10.html
5. http://genderi.org/samil-veliyev--50.html?page=6

**Məqalənin redaksiyaya daxil olma tarixi: 01.05.2023**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.05.2023**
**Məqalənin çapa qəbul olunma tarixi: 01.06.2023**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika elmləri doktoru, professor Tamilla Kəngərli**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №1, 2023, **s. 22-29**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №1, 2023, **с. 22-29**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №1, 2023, **pp. 22-29**

**UOT 78.07**

**Ф.И.Рзаева**
доктор философии по педагогике, доцент
Азербайджанский Государственный
Педагогический Университет
AZ 1000, г. Баку, ул. У.Гаджибейли, 68
*E-mail: firangiz – rzayeva @ mail.ru*

# ПЕДАГОГИЧЕСКОЕ ВОЗДЕЙСТВИЕ НА ФОРМИРОВАНИЕ ЛИЧНОСТНЫХ КАЧЕСТВ ДЕТЕЙ

***Ключевые слова:*** *педагогическое воздействие, личностные качества, музыкальное восприятие, учитель музыки, детский фольклор*

В статье отмечается, что задача учителя музыки в школе состоит в том, чтобы направить творческую мысль на поиски и применение таких приёмов и методов педагогического воздействия, которые опирались бы на наиболее сильные стороны формирующейся личности современных детей, на широкий круг их знаний и интересов. Педагоги и исследователи должны чётко представлять, с кем они работают, на кого направлена научно-практическая деятельность учёных-педагогов. Задача общеобразовательной школы в целом и предмета музыка, в частности, ориентированы на общие для нашего общества перспективы воспитания грамотного, культурного, гармонично развитого члена общества.

**F.İ.Rzayeva**

# UŞAQLARIN ŞƏXSİ KEYFİYYƏTLƏRİNİN FORMALAŞMASINA PEDAQOJİ TƏSİR

***Açar sözlər:*** *pedaqoji təsir, şəxsi keyfiyyətlər, musiqi qavrayışı, musiqi müəllimi, uşaq folkloru*

Məqalədə qeyd olunur ki, məktəbdə musiqi müəlliminin əsas vəzifəsi, yaradıcı fikrin pedaqoji təsirini elə axtarış, tətbiqolunma üsul və metodlarına istiqamətləndirsin ki, onlar müasir uşaqların şəxsiyyətinin formalaşmasının daha güclü, inkişaf edən, biliklərinin və maraq dairələrinin geniş spektrinə istinad etsin. Pedaqoq və tədqiqatçılar kimlərlə işlədiklərini, alim-pedaqoqlar isə elmi-praktiki fəaliyyətlərinin kimlərə istiqamətləndiyini aydın dərk etməlidirlər. Musiqi fənni daxil olmaqla, ümumtəhsil məktəbinin əsas vəzifəsi cəmiyyətimiz üçün perspektiv olan savadlı, mədəni, harmonik inkişaf etmiş şəxsiyyət yetişdirməkdən ibarətdir.

**F.I.Rzayeva**

# PEDAGOGICAL IMPACT TO THE FORMATION OF PERSONAL QUALITIES OF CHILDREN

***Keywords:*** *pedagogical impact, personal qualities, musical perception, music teacher, children's folklore*

The article notes that the task of a music teacher at school is to direct the pedagogical influence of creative thinking to the research techniques and methods so that they appeal to the formation of children's personality, knowledge and interest. Teachers should clearly realize with whom they work, and professors should understand whom they direct their scientific and practical activities. The role of the comprehensive school as well as music lesson is to bring up competent, cultural, harmoniously -developed members of society.

Огромное значение фольклорного наследия в развитии духовной культуры народа неоспоримо. Искусство всегда национально, воспитывая подрастающее поколение будущих музыкантов – профессионалов и любителей, нам следует позаботиться и о развитии восприятия музыкального фольклорного материала уже с детского возраста.

Может возникнуть вопрос, есть ли какие-либо общие особенности, отличающие детей того или иного исторического периода. Ведь дети все очень разные. Однако мы видим, что даже при наличии бесконечного множества индивидуальных и возрастных различий, сочетания которых создают бесконечное количество неповторимых индивидуальностей, дети одного народа в конкретный период общественного развития одного народа в конкретный период общественного развития характеризуются некоторыми общими чертами, формирующимися под влиянием специфи- ческих условий переживаемого периода.

Начнём с того, что в настоящее время в школу поступают дети, значительно более развитые, чем первоклассники предидущих годов. Это и не удивительно, ведь они получают огромный поток самой различной информации.

Исходя из вышесказанного ясно, что задача учителя состоит в том, чтобы направить свою творческую мысль на поиск и применение таких приёмов и методов педагогического воздействия, которые опирались бы на наиболее сильные стороны формирующейся личности современных детей, на широкий круг их знаний и интересов.

Однако, учитывая общий уровень развития современных детей, нельзя недооценивать и различий для преодоления которых необходимо их чётко

себе представлять.

Когда речь идёт о воспитании музыкальности детей, следует более внимательно и дифференцированно подходить и к тому слуховому опыту, который ребёнок получает в первые годы жизни. Ведь дети приходят в школу не только с уже формировавшейся разговорной речью, с умением воспринимать определённые понятия, но также и с определённым запасом жизненных впечатлений. Для построения эффективной системы музыкального воспитания необходимо изучить все предпосылки проблемы, все её стороны.

Одним из важных условий, обеспечивающих не формальное отношение детей к предмету «музыка» в общеобразовательной школе, является учёт «естественной» подготовки ребёнка не только к восприятию музыки, но и даже к самостоятельному музицированию. Создавая систему, мы не вправе закрывать глаза на то, что азербайджанские дети, проживающие в сёлах и деревнях Азербайджана, имеют иные предпосылки для формирования музыкального вкуса, нежели городские дети. Речь идёт о своеобразном культурном «билингвизме», имеющем место, по существу, в любой современной культуре.

Поэтому сосредоточим своё внимание на той музыкальной среде, в которой растут наши дети. Безусловно, что в эпоху развития средств коммуникаций, проникновения каналов трудно говорить о «чистоте» музыкальных традиций, беспреспективно утверждать, что дети развиваются лишь под воздействием традиционной народной музыки. Вместе с тем, условно можно выделить тот доминирующий слой музыкальной традиции, который так или иначе обнаруживает своё преимущественное влияние на становление воспрятия и мышления сельских детей (речь идёт пока только о них).

Известно, что азербайджанская музыкальная культура в многовековой период своего развития довольствовалась устными формами бытования. Причём, внутри культуры довольно отчётливо отделялся пласт собственного народного, фольклорного музицирования и пласт высокой профессиональной музыки устной традиции. К последним относятся мугамат и искусство азербайджанских ашыгов. Азербайджанские исследователи отмечают также и высокий профессионализм инструме-н тально духовой народной музыки.

Однако формирование этих форм немыслимо без опоры на столь же высокий уровень слушательской культуры. Изучение особенностей традиционного музыкального воспитания должно стать для нас своеобразной моделью, демонстрирующей связь высоких пластов культуры с потенциальной художественной средой, где будут в дальнейшем развиваться и совершенствоваться традиционные формы народно-профессионального искусства.

Наиболее эффективным, с точки зрения интересующей проблемы, нам представляется взгляд на азербайджанский детский фольклор как на выработанный культурой механизм приобщения детей к традиционной музыкальной культуре. Ведь именно в детском возрасте формируются предпосылки для восприятия тех или иных видов музыкального искусства.

Среди работ азербайджанских фольклористов о детском фольклоре следует отметить обзорное исследование Паша Эфендиева, информирующего о первых собирателях азербайджанского детского фольклора. (8) Важным этапом в научном освоении этого пласта народного творчества является исследование А.Набиева. (2)

Однако воспитательная роль детского фольклора впервые была отмечена в работах музыковедов-фольклористов Р.Исмаил-заде, Б.Гусейнли, Т.Керимовой. (1,4,5) Методологически особенно ценным является исследование Т.Керимовой, указывающей на формирование исходных элементов азербайджанского национального музыкального стиля в недрах такого глубинного пласта фольклора как колыбельные и детские песни. (5)

Т.Керимова находит в этих песнях наиболее элементарные ячейки ладовых образований, метроритмических формул, типов интонирования. Потому справедливо её заключение о том, что практически музыкальное воспитание детей начинается с колыбели, точнее с колыбельных песен. Важную роль в первичном музыкальном опыте детей играют также всевозможные игровые песенки и потешки, именуемые «охшама», «беслеме», «севелеме», «назлама» и т.д.

Вместе с тем, нормы традиционного музыкального воспитания вырабатывались в соответствии с нормами общественной жизни разных эпох. «Если в ранних общественно-экономических формациях процесс социализации детей происходил посредством их практического включения в различные формы игровой, общественно-производственной и ритуальной деятельности, что находило отражение в широкой вовлечённости детей в календарную и иную обрядность, то на данном этапе наряду с традиционно-социальным встал также вопрос эстетического воспитания». (3)

По существу, в приобщении детей к музыке через детский фольклор решались как общесоциальные, так и музыкально-эстетические воспитательные задачи.

Однако, дети в традиционной этнической среде не находились в абсолютной изоляции от взрослых. Музыкальный быт – свадьбы, календарные празднества, похороны, вечеринки – это та естественная среда, где воспитывались музыкальные вкусы детей, где формировались нормы их музыкального восприятия.

Проследим последовательно за тем музыкальным опытом, который

формировался у детей уже в первые годы жизни. Каковы были колыбельные песни по своему музыкальному содержанию? Исследование Т.Керимовой показывает, что азербайджанские колыбельные песни неимеют определённой типической музыкальной структуры. Эти напевы импровизируются матерьми на основе того музыкального опыта, которым они располагают. Вот почему азербайджанские колыбельные песни оказывались ориентированными на «жанрово-стилевую доминанту» региона. Музыковед Т.Керимова выделяет колыбельные в мугамном стиле (близкие свободному мугамному распеву и поющиеся на основе теснифов и рянгев), колыбельные в ашыгском стиле, колыбельные в стиле традиционного азербайджанского причета, колыбельные в песенном стиле. (5)

Таким образом, колыбельные песни подготавливают ребёнка к восприятию именно такого стиля, который характерен для данной среды и региона.

Важно отметить тот факт, что первые самостоятельные пути ребёнка в музыке, первые жанры детского музыкального фольклора – это игровые песенки. Это имеет своё глубокое психологическое обоснование. «Воспрятие учащихся в начале младшего школного возраста, - пишет В.А.Крутецкий, - тесно связано с действием, с практической деятельностью ребёнка». (6) Безусловно, что сказанное справедливо и для более младшего возраста.

Музыкальное мышление ребёнка до семи – восьми лет формируется в основном под влиянием женской музыкальной среды. Здесь идёт интенсивное приобщение ко всем формам песенного музицирования, к жанрам, связанным со словом. Не случайно детский фольклор данной возрастной группы, не отличаясь по стилю, отличается лишь простотой воспроизводимых форм от того репертуара, которым обычно располагают женщины.

Если в дальнейшем девочки продолжают развивать именно эту линию вокального, песенного фольклора, то при переходе в мужское сообщество, мальчики начинают приобщаться к инструментальной народной музыке. Как известно, инструментальная азербайджанская музыка так же, как и вокально-инструментальная, отличаются чисто профессиональной изысканностью и сложностью. Но и здесь можно отметить определённые вехи, помогающие усвоению этой музыкальной практики. Правда, разговор о традиционном воспитании музыкального восприятия следует вести с учётом тех же жанрово-стилевых особенностей музыки, характерной для различных регионов Азербайджана.

Приобщение к ашугской традиции начинается, во всей видимости, с тех длинных зимних вечеров, когда ашуг, собрав вокруг себя сельчан, в течение нескольких дней рассказывает дастан. Музыкальные вставки здесь имеют ярко выраженный программный характер. В стихах, которые звучат до песенно-

инструментальных отрывков раскрыты и настроение героев, и характер ситуации. Тем самым облегчается восприятие ашугской инструментальной и вокально-инструментальной музыки. Хочется отметить, что к такому же приёму постепенной подготовки, слушательского внимания пришла и современная методика преподавания музыки в общеобразовательной школе.

Таким образом, и здесь налицо постепенное включение слушателя в музыкальную структуру посредством зрелищного или пластического ряда, являющихся своего рода «проводниками» содержания фольклорного произведения.

Известно, что наиболее сложной структурой обладает мугам. К его восприятию традиционная культура готовит будущих членов общества очень долго и тщательно. Наиболее значимым элементом мугамной композиции является его специфическая ладовая драматургия. Элементарные ладовые отношения, специфику мугамно-распевного интонирования ребёнок усваивает ещё в детстве в тех же колыбельных песнях. Говоря о восприятии колыбельных песен, мы имеем в виду не только песни, адресованные самому ребёнку, но также и колыбельные, поющиеся для его младших сестёр и братьев.

В дореволюционное время дальнейшее освоение более сложных мугамных закономерностей происходило в обширной области культовой мусульманской музыки. Как показывает исследование С.Сеидовой, традиционные мусульманские жанры, начиная с мистерий «Шабах» и кончая более мелкими жанрами «марсия», «новхе», «гасида», близки по ладомелодическому строению мугамной ладоинтонационной среде. Исследователи свидетельствуют о привлечении детей к постановкам «Шабах». Дети пели хором специально отведённые им партии, то есть были не пассивными наблюдателями, а участниками представлений.

Краткий обзор бытования музыки в традиционной среде даёт представление о том, каким образом происходило приобщение азербайджанских детей к национальным музыкальным традициям.

Многое ушло из современного музыкального быта азербайджанцев. Хотя кое-какие музыкальные формы остались в сёлах и деревнях. Исследования показывают, что начиная с начала XX столетия в городах Азербайджана стали нарождаться новые, европейские формы бытования музыки. Наряду с традиционными детскими календарными и игровыми песнями появляется целый пласт современного детского фольклора.

Немалую роль в переориентировании музыкального воспитания азербайджанских детей сыграла деятельность просветителей XIX-XX веков.

Изменившиеся социально-экономические условия жизни общества в Азербайджане середины XIX – начала XX века дали толчок мощному

просветительскому движению и как результат этого, вызвали интенсивное развитие различных новых форм духовной жизни народа. Углубление отмеченной выше тенденции обусловило изменения в музыкальном воспитании азербайджанских детей. Появляются детские песни, сознательно созданные поэтами и просветителями. Создаётся ряд сборников детских песен (1906, 1914, 1917), куда входят стихи поэтов – просветителей, рекомендующих петь их на мотивы популярных песен, теснифов, ренгов.

Песни создаваемые М.А.Сабиром, Аббас Сиххатом, А.Шаиком, М.С.Ордубади, Уз.Гаджибековым, М.Магомаевым, А.Зейналлы соответствовали уровню детского восприятия.

Огромная потребность в таких песнях очень быстро привела к фольклоризации детских песен, созданных представителями старшего и среднего поколения азербайджанской композиторской школы (Г.Гусейнли, А.Рзаева, Ф.Амиров, С.Гаджибеков). Наиболее яркими образцами детского фольклора являются песни «Гушлар», «Чобан», «Бахар гелди» и др.

Характерным для современного детского фольклора является пристальное вслушивание и вглядывание в окружающий мир, отражение в песнях природы и современного ритма жизни. Безусловно прав один из первых исследователей азербайджанского детского музыкального фольклора Б.Х.Гусейнли, считающий, что «современные детские песни воспитывают художественно-образное мышление детей, наблюдательность, память» (4).

Всё сказанное заставляет взглянуть на проблему воспитания музыкального восприятия азербайджанских школьников несколько с иной стороны. Педагоги и исследователи должны чётко представлять с кем они работают, на кого направлена научно-практическая деятельность учёных-педагогов. Программы и рекомендации, предлагаемые научно-методтческими кабинетами, стоящие перед сельскими и городскими учителями музыки не одинаковы. Мы не вправе не учитывать реального бытования музыки в городах и деревнях нашей республики, того конкретного опыта восприятия музыки, которым располагает ребёнок пришедший в школу. Безусловно, задачи общеобразовательной школы в целом и предмета музыки, в частности, ориентированы на общие для нашего общества перспективы воспитания грамотного, культурного, гармонично развитого члена общества. Но дело воспитания детей – эта та область, которая больше всего страдает от формализма и начётничества. Вырабатывая свою преподавательскую и культурно-воспитательную стратегию, мы не можем закрывать глаза на те объективные условия, на тот исходный материал, с которым нам приходится работать. Исходя из этого, мы хотим уточнить, что наши наблюдения касаются прежде всего детей выросших в интегрированной городской среде. Эти дети, в отличие от сельских, изначально помещены в иные культурно-бытовые условия. Причём, если

«вынести из скобки» приблизительно одинаковое воздействие как сельских, так и городских детей средств массовой информации, то в целом, на селе дети растут в однородной музыкальной и языковой среде. Музыкальное восприятие этих детей формируется в одном русле, потому что здесь меньше сбоев и контрастных смен музыкальных впечатлений, с которыми на каждом шагу сталкиваются городские дети. Условиями постепенного и целенаправленного воспитания национального мышления являются и относительная устойчивость традиционного быта и характер современной культурно-массовой работы на селе. В последнее время усилившийся интерес к музыкальному фольклору, к национальным традициям стимулирует развитие вторичных форм фольклорного искусства, создание всевозможных фольклорно-этнографических коллективов, включая и детских.

## ЛИТЕРАТУРА


1. İsmayıl – zadə R.Y. – Azərbaycan xalq mahnıları./Azərbaycan xalq musiqisi. Oçerklər. – Bakı, 1981. 36 səh.
2. Nəbiyev A.M. – Xalq mahnıları. – Bakı, Azərnəşr, 1988. 43 səh.
3. Rzayeva F.İ. – Musiqi müəlliminin professional əhəmiyyətli və yaradıcı keyfiyyətlərinin inkişafı. – Pedaqoji Universitetin Xəbərləri №1, 2022, səh.121-125. Rus dilində.
4. Гусейнли Б.Х. – Классификация детского музыкального фольклора / Информационное письмо СК СССР. Комиссия музыки народов СССР /. – М., 1980, 38 с.
5. Керимова Т.М. – Азербайджанские колыбельные и детские песни: опыт этномузыковедческого анализа. Автореф. дис. …канд. искусств. – П., 1987, 23 с.
6. Крутецкий В.А. – Основы педагогической психологии. – М., Просвещение, 1972, 62 с.
7. Сеидова С.А. – Музыка в древних обрядах Азербайджана. Автореф. дисс. … канд. искусств. – Тбилиси, 1981, 21 с.
8. Эфендиев П.Ш. – История азербайджанской фольклористики. Автореф. дис. … д-ра филолог. наук. – Баку,1973, 118 с.


**Məqalənin redaksiyaya daxil olma tarixi: 01.05.2023**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 05.05.2023**
**Məqalənin çapa qəbul olunma tarixi: 01.06.2023**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru, dosent Nelli Abutidze**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №1, 2023, **s. 30-34**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №1, 2023, **с. 30-34**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №1, 2023, **pp. 30-34**

**UOT 37.01 (78)**

**Maralxanım Tofiq qızı Əliyeva,**
pedaqogika üzrə fəlsəfə doktoru, baş müəllim
Azərbaycan Dövlət Pedaqoji Universiteti,
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
*E-mail: m.aliyeva60@gmail.com*

# QƏRBDƏ VƏ AZƏRBAYCANDA MÜASİR MUSİQİ TƏHSİLİNİN MÜQAYİSƏLİ TƏHLİLİ

***Açar sözlər:*** *təhsil sistemi, qabaqcıl texnologiya, istedad, musiqi*

Məqalədə Qərb ölkələrində və Azərbaycnda müasir musiqi təhsilinin bəzi aspektləri, onun nəzəri və praktiki aspektlərini təkmilləşdirməklə təlim prosesini müasirləşdirməyə imkan verən yeni tendensiyalar və qabaqcıl musiqi-pedaqoji konsepsiyalardan bəhs edilir. Müasir təhsilin təkamülü onun qloballaşması və pedaqoji sistemlərin qlobal miqyasda inteqrasiyası ilə baş verir. Musiqi təhsilinin müasirləşdirilməsinin ən məhsuldar formalarını müəyyən etmək üçün (məhsul.-dar idarəetmə sxemləri, yeni pedaqoji metod və üsullar, təlim prosesinə innovativ texnologiyaların tətbiqi və s.) Qərb və Azərbaycanda musiqi təhsilinin təkmilləşdirilməsi üçün effektiv pedaqoji vasitələrin müəyyən etmək, yaxşı cəhətləri almaq, çatışmazlıqları aradan qaldırmaq vacibdir.

**М.Т.Алиева**

# СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ СОВРЕМЕННОГО МУЗЫКАЛЬНОГО ОБРАЗОВАНИЯ НА ЗАПАДЕ И В АЗЕРБАЙДЖАНЕ

***Ключевые слова:*** *система образования, передовые технологии, талант, музыка*

В статье рассматриваются некоторые аспекты современного музыкального образования в западных странах и в Азербайджане, новые тенденции и передовые музыкально-педагогические концепции, позволяющие модернизировать процесс обучения, усовершенствовав его теоретические и практические стороны. Эволюция современного образования происходит посредством его глобализации и интеграции педагогических систем в обще-мировом масштабе. Для определения наиболее продуктивных форм модернизации музыкального образования (продуктивных схем управления, новых педагогических методов и приемов, внедрения инновационных технологий в процесс обучения и т.д.) необходимо провести мониторинг передового опыта и недостатков существующих образовательных систем Запада

и нашей страны, выявить эффективный педагогический инструментарий, позволяющий усовершенствовать музыкальное образование в Азербайджане.

**M.T.Aliyeva**

## COMPARATIVE ANALYSIS OF MODERN MUSIC EDUCATION IN THE WEST AND IN AZERBAIJAN

***Keywords:*** *education system, advanced technology, talent, music*

The article discusses some aspects of modern music education in Western countries and Azerbaijan, new trends and advanced musical and pedagogical concepts that allow modernizing the learning process, improving its theoretical and practical aspects. The evolution of modern education occurs through its globalization and integration of pedagogical systems on a global scale. To determine the most productive forms of modernization of music education (productive management schemes, new pedagogical methods and techniques, the introduction of innovative technologies in the learning process, etc.), it is necessary to monitor the best practices and shortcomings of the existing educational systems of the West and our country to identify effective pedagogical tools, allowing to improve musical education in Azerbaijan.

Təhsil sahəsinin nəzərdən keçirilən problemləri şərti olaraq ümumi (təhsil məkanında şagirdin sərbəst fəaliyyəti, qabaqcıl texnologiyaların tətbiqi) və yüksək ixtisaslaşdırılmış (musiqi təhsilinin pilləliliyi və davamlılığı, hər bir təhsil səviyyəsi üçün nəzarət tələblərinin tənzimlənməsi və metodik işlənməsi, proqramların seçimində repertuar siyasəti) hissələr bölünə bilər.

Qərbdə dərsin keçirilməsi və şagirdlə müəllim arasında münasibətlərin qurulmasının üslubu tədris metodlarının demokratik və liberal dözümlülülüyü ilə xarakterizə olunur. Müəllim diktator deyil, tərbiyəçi və nəsihətçidir (mentor). Bu münasibət forması avtoritar iş rejimindən liberal-demokratik iş rejiminə gətirib çıxarır ki, şagirdin motivasiyası, onun marağı, eləcə də gənc ifaçının yaradıcı təfəkkürünün inkişafı, qeyri-adi həllər axtarmaq istəyi, musiqi materialına yaradıcı baxış və s. ilə bağlı məsələlərin həllində müəllim-mentorun qarşısına yeni vəzifələr qoyur. Bununla əlaqədar olaraq, Qərb pedaqogikasında pedaqoji tələblərin aşağı salınmasına meyl var ki, bunun nəticəsində musiqi təhsili yüksək peşəkarlıq səviyyəsindən aşağı salınaraq ümumi musiqi inkişafına çevrilir, yəni texniki, ifaçılıq səviyyəsi və musiqi dünyagörüşü səviyyəsi düşür.

Müəllimin tələbəyə qarşı məcburi loyallığı haqqında bir fikir var (Paperno, L.D.Dmitriyev). Bəzi tədqiqatçılar bu fenomeni xaricdə əsasən ödənişli təhsilin olması ilə əlaqələndirirlər ki, bu zaman müəllim tələbkarlıq hesabına tələbənin rəğbətini qazanmağa məcbur olur, bu isə peşəkar tələblərin səviyyəsinin aşağı düşməsinə səbəb olur. Məlumdur ki, Bolonya təhsil sisteminə keçiddən sonra Azərbaycanda da Qərbdə

olduğu kimi (Almaniya istisna olmaqla), təhsil əsasən ödənişlidir və tələbələrdən hər il ballar sistemi vasitəsilə müəllimə qarşı münasibət sorğusu aparılır və bu müəllimin reytinqinə təsir göstərir. Hər halda, Azərbaycan Dövlət Pedaqoji Unversitetində bu belədir. Bu hal ilə bağlı professor C.Uaytın gəldiyi nəticə belədir: "...Tələbələrin qiymətləndirilməsi aşağıdakıların səbəbidir: a) kursun məzmununun səthi olması, b) professorların tənbəl tələbəni razı salmaq istəyi, c) qiymət artımı. müəllimin şagirdə verdiyi təhsil qiyməti" (2, səh. 175).

İncəsənət sahəsində təhsil müəssisələrinə seçilmək üçün əsas meyar istedad, xüsusi qabiliyyətlərin olması, sənət vasitəsilə özünü ifadə etmək istəyidir. Lakin Qərbdə (və artıq bizdə də) mövcud olan ödənişli orta ixtisas və ali təhsil sistemində tələbələrin ödəmə qabiliyyəti əsas meyara çevrilir. İstedadlı gənclərin maliyyə dəstəyinə və tələbələrə məşğulluğu təhsillə birləşdirmək imkanına baxmayaraq, problem aktual olaraq qalır, çünki istedadlı gənclərin heç də hamısı tam təhsil kursunu başa vurub ali professional musiqi təhsili ala bilmir. Təhsilin olması isə, bildiyimiz kimi, təkcə insanın cəmiyyətdəki statusunu deyil, həm də gələcək maddi və peşə rifahını müəyyən edir. "Təhsilin sosial əhəmiyyəti onun funksiyalarından irəli gəlir: təhsil ixtisasları ilə qanuniləşdirilən sosial nüfuz iqtisadi üstünlüyə çevrilə bilər. Beləliklə, təhsil təbəqələşmənin təkcə sosial deyil, həm də iqtisadi ölçüsünü müəyyən edir" (5, səh. 41).

Qərbdə peşəkar musiqi təhsilinin ilkin mərhələsinin olmaması da özünün mənfi cəhətlərini göstərir. Uşağın erkən musiqi inkişafı məsələsində müəllimlərin, böyük musiqiçilərin və rəssamların (K.Orf, Z.Koday, E.Jak-Dalcroz, Ş.Suzuki və s.) həmrəyliyinə baxmayaraq, Qərb ölkələrində təhsilin davamlılığını qurmağa imkan verən peşəkar ibtidai musiqi təhsilinin ahəngdar və yaxşı fəaliyyət göstərən sistemi nadir hallarda mövcuddur. Musiqi dərsləri çox vaxt ümumi inkişaf xarakteri daşıyır. Bizin ölkədə, keçimiş SSRİ məkanının bütün respublikalrında olduğu kimi, bu hal daha yaxşıdır. Çünki şəhərlərdə və rayonlarda çox saylı musiqi məktəbləri fəaliyyət göstərir ki, burada kifayət qədər yüksək peşə bilik və bacarıqları əldə etmək mümkündir.

Qərbdə isə repetitorluq təcrübəsi daha geniş yayılmışdır, burada tələbə kifayət qədər dar peşə biliklər alır (çox vaxt bunlar tətbiqi xarakter daşıyır, yalnız musiqi alətində ifa etmək və ya oxumaq texnikası ilə bağlı). Nadir hallarda repetitorun şəxsi təşəbbüsü ilə nəzəri fənlər (solfecio, harmoniya, musiqi ədəbiyyatı, musiqi formaları və janrlarının təhlili və s.) dərs proqramına daxil edilir. Bununla bağlı bir şeyi qeyd etməyə dəyər: tələbənin əldə etdiyi biliyin keyfiyyəti və səviyyəsi tamamilə repetitorun peşəkar səriştəsindən və təhsilindən və tələbənin özünün təbiyətdən qələn qabiliyyətlərindən və məqsədyönlü fədakarlığının mövcudluğundan asılı olacaq.

"Məktəb və universitet təhsili arasında təhsilin məzmununun davamlılığı problemi son on ildə bir çox universitetlər və peşəkar təşkilatlar tərəfindən intensiv şəkildə müzakirə edilmiş və işlənmişdir" (2, səh. 87). Qərbdə musiqi təhsilində ilkin peşəkar səviyyəsinin olmaması və təhsil prosesinin fasiləsizliyi problemi həm orta, həm də ən yüksək səviyyədə peşəkar hazırlıq baxımından tələbələrin çoxşaxəli (yəni

müxtəlif peşə bacarıqlarına malik) kontingentinə gətirib çıxarır.

İndi də Qərb təhsil sisteminin üstün cəhətlərindən danışaq. Musiqinin tədrisi prosesini təkmilləşdirmək üçün innovativ vasitələrdən istifadə Qərb təhsil sisteminin müsbət cəhətlərindəndir. Xaricdə iş təcrübəsinin araşdırılması (internetdən ustad dərslərin izlənilməsi, dəyirmi masalarda və beynəlxalq konfranslarda iştirak, aparıcı musiqi xadimləri və müəllimlərlə söhbətlər və müsahibələr, məqalələr ilə tanışlıq) göstərir ki, Qərb musiqi pedaqogikasının güclü cəhətlərindən biri kimi tədris prosesinin texniki təchizatı xüsusi qeyd edilməlidir. Qərbdə uzun müddətdir ki, distant təhsil proqramları aktiv istifadəyə verilib, getdikcə daha çox müəllim İnternet vasitəsilə (tapşırıqlar göndərmək, kurs işləri və tezisləri yoxlamaq üçün internet poçtundan istifadə etməklə), onlayn təhsil sisteminə (açıq dərslərin və ya mühazirələrin canlı yayımı) – tələbələrə şəxsi cədvəlini sərbəst şəkildə tənzimləmək imkanı verir. Bizdə isə bunlar əsasən pandemiya dövründə işə salınmışdır. İndi isə əvvəlki dərs rejiminə qayıdış baş verib.

Bundan əlavə, İnternetə sərbəst çıxış, siniflərin multimedia, audio və videoyazı avadanlıqları ilə təchiz edilməsi, sonrakı dinləmə və ifanın tələbə ilə birgə təhlili ilə bir anlıq qeyd etməyə imkan verir, həmçinin müxtəlif ifaçıların təfsirli təfsirinin koqnitiv təhlilini aparmağa imkan verir. dərs zamanı öyrənilən işlərdən. Bu bizim ölkə təhsilinin ən ağrılı problemlərindəndir. Əgər Azərbaycan Dövlət Pedaqoji Universitetində ən azından hər fakültədə ağıllı lövhə, kompüter və internetə çıxış ilə təchis olunmuş heç olmazsa bir sinif varsa (sözsü ki, bu kifayət deyil), digər musiqi yönümlü ali məktəblərdə heç bu da yoxdur. Orta ixtisas kolleclərdən və müsiqi məkətəblətindən heç danışmağa dəyməz.

Öz təcrübəmizdən onu deyə bilərik ki, pandemiya dövründə qrup şəklində keçirilən nəzəri yönümlü fənlərin tədrisi zamanı Teams proqramında İnternet imkanlarından istifadə dərsi daha maraqlı və əyyani şəklə döndərirdi. Məsələn, "Xorşünaslıq" fənninin tədrisi zamanı bir sıra mövzuları ("Xorun tipləri və növləri" və ya "Xor musiqisi janrları") YouTube-dan nümunələri verməklə daha canlı şkildə açıqlamak mümkün olurdu, bundan əlavə müxtəlif ifaları və xor növlərinin müqayisəli təhlil etmək, müxtəlif xor musiqisi janrları ilə əyyani olaraq tanış olmaq imkanı yaranırdı. Sirr deyil ki, bizim tələbələrin əksəriyyəti kənd və rayonlardan gəlir, onların böyük simfonik, xor konsertlərini və ya opera tamaşalarını izləmək o qədər də imkanı yoxdur. Lakin dərsdə bunların izlənilməsi və izlədikcə müəllimin peşəkar qeydləri tələbələrin peşə biliklrini artırmaqla yanaşı, həm də onların musiqi dünyagörüşünü artırır.

Bu tip pedaqoji iş şagirdin obyektiv və adekvat özünüqiymətləndirmə qabiliyyətinin formalaşmasına kömək edir, yaradıcı təfəkkürünü inkişaf etdirir, gənc musiqiçidə ifaçılıq təşəbbüsünü dəstəkləyir. "Daha effektiv əqli təhsilə və müstəqil, cəmlənmiş fəaliyyət bacarıqlarının formalaşmasına ümidlər ən son texniki vasitələrlə bağlıdır. Yeni texnologiyalar təhsilin informasiya məzmununu, intensivliyini və effektivliyini artırmağı vəd edir. Onlar təhsilin şaxələndirilməsi, oyun və sürətli öyrənmə təhsil prosesinin təşkili üçün hələ kəşf edilməmiş ehtiyatların mənbəyidir."

(1, səh. 181). Qərbdə yüksək texnologiyaların sürətli inkişafı təhsil prosesinə düzəlişlər edir, onu innovativ vasitələrlə təchiz edir. Distant təhsil imkanlarının yaranması bir çox problemi həll edir, xüsusilə işləyən gənclər, qiyabi tələbələr, əlillər üçün vacibdir.

Lakin aktiv internet resursları ilə yanaşı, bir sıra çatışmazlıqlar da yaranır: tələbələrlə canlı müzakirənin olmaması. müəllim və tələbə yoldaşları, qondarma onlayn universitetlərin yaradılması və diplomların saxtalaşdırılması və s. ki, bu nöqsanlar bizim ölkədə hal hazırda mövcud deyil.

Müasir Qərb musiqi pedaqogikasının bir sıra nailiyyətləri var: nəzəri və praktiki inkişaflar, metodoloji və pedaqoji konsepsiyalar, beynəlxalq pedaqoji əməkdaşlıqda zəngin təcrübə və toplanmış təcrübə mübadiləsi. Eləcə də Universitetlərin muxtariyyətinin tətbiqi praktikasına (təhsil prosesinin təşkilindən tutmuş müəssisə daxilində maliyyə axınlarının bölüşdürülməsinə qədər bir çox məsələlərin həllində onların müstəqilliyi), ali təhsil müəssisəsinin tələbə və tələbə cəmiyyətinin rolunun artmasına da diqqət yetirməyə dəyər. Məsələn, öyrənilən fənlərin seçimi, fərdi təlim planlarının hazırlanması, tələbələrin akademik mobilliyi.

Beləliklə, təlimin əsas məqsədi təkcə müəyyən peşə bacarıqlarının, bilik və vərdişlərin aşılanması deyil, həm də özünə təhsil, özünü inkişaf etdirmək istəyinin formalaşdırılmasıdır ki, bununla da müasir təhsilin əsas şüarlardan biri “Ömür boyu təhsil” həyata keçmiş olur. Tədris prosesinin istiqamətinin dəyişməsi, yəni şagirdə diqqətin artması ilə əlaqədar olaraq – tədris metodları, tədris materialının nümayişi və məruzə edilməsi yolları, tələbələrlə müəllimlər arasında münasibətlərin forması (avtoritar munasibətdən liberal-demokratik münasibətlərə doğru və s.) da transformasiya uğrayır. Sürətlə inkişaf edən texnoloji tərəqqi və təhsil müəssisələrinin müasir avadanlıqla kifayət qədər təchiz olunması distant, interaktiv, onlayn tədris metodlarından istifadə etməklə, müasir texnologiyalardan və internet resurslarından istifadə etməklə tədrisin mühazirə sistemini dəyişdirməyə imkan verir.

## ƏDƏBİYYAT

1. Джуринский А.Н. Развитие образования в современном мире: ali məktəblət üçün dərs vəsaiti. Moskva: “ВЛАДОС”, 2003. 204 səh.
2. Дмитриев Г.Д. Анатомия американского университета. Moskva: “Школьные технологии”, 2010. 224 səh.
3. Докучаев И.И. Да – реформам, нет – унификации // “Аккредитация в образовании.” – 2012. – № 54. – С. 29–31.
4. Мотова Г.Н., Кузьминых Ж. О. Аршином общим не измерить // Аккредитация в образовании. – 2012. – № 54. – С. 7–12.
5. Русакова П.И. Система образования в китайском обществе. СПб.: Алетейя, 2010, 212 s.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 01.05.2023**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.05.2023**
**Məqalənin çapa qəbul olunma tarixi: 01.06.2023**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru Kəmalə İsmayılova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №1, 2023, **s. 35-38**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №1, 2023, **с. 35-38**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №1, 2023, **pp. 35-38**

**UOT 373.01:78**

**K.Q.İsmayılova**
pedaqogika üzrə fəlsəfə doktoru, baş müəllim,
Azərbaycan Dövlət Pedaqoji Universiteti,
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
*E-mail: kamalaismayilova@yandex.ru*

# "MUSİQİ" FƏNNİNİN TƏDRİSİNDƏ ŞAGİRDLƏRİN MUSİQİ MƏDƏNİYYƏTİNİN FORMALAŞDIRILMASI

***Açar sözlər:*** *musiqi, şagird, müəllim, bilik , mədəniyyət, musiqi tərbiyəsi*

Məqalədə musiqi müəlliminin ən başlıca vəzifəsi olan şagirdlərdə musiqi mədəniyyətini, musiqiyə maraqlarının oyandirilması, musiqi qavrama bacarığının təşkili yolu, musiqi barəsində biliklərin verilməsinin qısa təhlili aparılır.

**К.Г.Исмайлова**

## ФОРМИРОВАНИЕ МУЗЫКАЛЬНОЙ КУЛЬТУРЫ УЧАЩИХСЯ ПРИ ПРЕПОДАВАНИИ ПРЕДМЕТА «МУЗЫКА»

***Ключевые слова:*** *музыка, ученик, учитель, знания, культура, музыкальное образование*

В статье важнейшей задачей учителя музыки является способ пробудить у учащихся музыкальную культуру, интерес к музыке, организовать умение понимать музыку, дать знания о музыке.

**K.G.Ismayilova**

## FORMATION OF THE MUSICAL CULTURE OF STUDENTS IN TEACHING THE SUBJECT OF "MUSIC"

***Keywords***: *music, student, teacher, knowledge, culture, music education*

In the article, the most important task of the music teacher is the way of arousing the students' musical culture, interest in music, organizing the ability to understand music, and providing knowledge about music.

Təhsil sistemində aparılan islahatlar müasir dərsin məzmununun təkmilləşdirilməsi, yeni təlim texnologiyalarının tətbiqini tələb edir.

Müasir müəllim hər bir şagird və sagird kollektivi ilə ünsiyyət qurmaq, təlim fəaliyyətini istənilən situasiyada təşkil etmək, öz işini korrektə etmək və s. bu kimi bacarıqlara malik olmalıdır. Pedaqoji, psixoloji, mədəni və fənyönümlü bacarıqlar kimi qruplaşdırılan bu xüsusiyyətlər müəllimin peşəkarlıq səviyyəsinin düzgün qiymətləndirilməsi üçün meyar rolunu oynayır.

Ümumtəhsil məktəblərində tədris olunan "Musiqi" fənninin adı əslində onun məqsəd və məzmununu tam ifadə etmir. Çünki yeni musiqi kurikulumunun tələblərinə görə, burada məqsəd təkcə musiqi üzrə müəyyən bilik, bacarıq və vərdişlərdən getmir, həm də şagirdlərin musiqi mədəniyyətinin formalaşdırılmasından gedir. Məktəbdə tədris olunan digər fənlər kimi "Musiqi" fənni də təlim prosesində tərbiyəedici xüsusiyyətə malik olmalıdır. Dərs prosesində öyrədilən və dinlənilən mahnıları isə tərbiyə prosesində əvəz olunmazdır. Mahnı uşaqlara təsir göstərməklə yanaşı, həm də onlara özlərini dərk etmək, öz hisslərini duya bilməyə yardım göstərir. Musiqi dərslərində baş verən birgə ifa isə onlarda kollektivçilik və dostluq hisslərini oyadaraq inkişaf edir.

Mədəniyyət geniş anlayış olub, onun bir qolu da musiqi mədəniyyətidir. "Musiqi mədəniyyəti" anlayışını da öz növbəsində iki qola ayırmaq olar: 1) xalqın musiqi mədəniyyəti; 2) şəxsin musiqi mədəniyyəti.

Azərbaycan musiqi mədəniyyəti dedikdə, millətin bənzərsizliyini təyin edən incəsənət sahələrindən biri nəzərdə tutulur. Azərbaycan musiqi mədəniyyətinin nailiyyətləri özünəməxsus ənənələrinin çoxəsrlik tarixi formalaşma prosesinin və inkişafının nəticəsidir. Azərbaycan qədim və olduqca zəngin folklor ənənələri olan bir ölkədir. Müxtəlif alətlərin sədaları altında ifa olunan rəngarəng mahnı və rəqslərlə xalq öz bədii istedadını göstərir. Öz gözəlliyi və mükəmməlliyi ilə diqqəti cəlb edən xalq mahnı və rəqsləri şifahi olaraq nəsildən-nəslə, ağızdan-ağıza ötürülən naməlum müəlliflərin çoxəsrlik yaradıcılıqlarının məhsuludur.

Azərbaycan musiqi mədəniyyətinin şifahi ənənələri iki böyük qolda təmsil olunur: l) mahnı və rəqslərdən ibarət folklor və 2) peşəkar musiqi, buraya muğam sənəti və aşıq yaradıcılığı aiddir. Buraya bəstəkar yaradıcılığını və ifaçılıq sənətini də əlavə etsək, Azərbaycan musiqi mədəniyyətinin tam məzmunu alınacaqdır.

Yuxarıda qeyd edildi ki, xalqın musiqi mədəniyyətindən başqa, ayrı-ayrı fərdlərə aid "şəxsi musiqi mədəniyyəti" anlayışı da mövcuddur.

Bu anlayış şəxsin aşağıdakı keyfiyyətlərini özündə birləşdirir:

- müxtəlif musiqi janrları, üslubları və cərəyanları ayırd edə bilmək;
- nəzəri və estetik xarakterli bilgilərə malik olmaq;
- yüksək musiqi zövqünə malik olmaq;
- bu və ya digər musiqi əsərlərinin məzmununa həm emosional, həm də intellektual dəyərləndirə bilmək qabiliyyəti;

- ifaçılıq (vokal və ya alətdə) vərdişlərinə malik olmaq.

Bu keyfiyyətlərə əsaslanaraq, şagirdlərin musiqi mədəniyyətinin komponentlərini aşağıdakı şəkildə müəyyənləşdirmək olar:

1. Musiqiyə emosional münasibət (yəni musiqidən duyğulanmaq, ondan həzz almaq, musiqiyə tələbat).
2. Musiqiyə intellektual münasibət (yəni musiqi haqqında mülahizə yürütmək bacarığı).
3. Musiqi zövqü (yəni ciddi, yüksək bədii dəyəri olan musiqidən həzz almaq qabiliyyəti).
4. İfaçılıq.

Ümumtəhsil məktəblərindəki musiqi dərslərinin hər birinin öz konkret məqsədi vardır və bu məqsədlər “müəllimə kömək” vəsaitlərində göstərilmişdir. Lakin araşdırmalarımız göstərir ki, dərslərin məqsədləri dəyişsə də onların hamısı dəyişməz, vahid, üstün bir ideyaya xidmət edir. Bu əsas ideya məktəblərin musiqi mədəniyyətinin formalaşması ilə əlaqədardır.

Bu baxımdan müəllimlərə hər dərsdə bu problemlə əlaqədar olan həmin vəzifələri “üstün vəzifələr” adlandırmağı təklif edirik. Düşünürük ki, rus teatr nəzəriyyəsində işlənən “üstün vəzifə” termini bizim araşdırdığımız məsələnin mahiyyətini daha dəqiq ifadə etməyə imkan verir. Rus teatr məktəbinin böyük islahatçısı olan K.S.Stanislavskiyə görə, hər bir aktyor müəyyən rolu ifa edərkən bilməlidir ki, o, hansı əsas ideyaya, yəni “üstün vəzifə”yə xidmət edir. Beləliklə, müşahidə və araşdırmalar göstərir ki, dərsin konkret məqsədindən əlavə, müəllim hər dərsdə aşağıdakı “üstün vəzifə”ləri yerinə yetirilməlidir:

1. Şagirdlərdə musiqiyə emosional münasibətin formalaşdırılması;
2. Musiqiyə intellektual münasibətin formalaşdırılması;
3. Musiqi zövqünün formalaşdırılması;
4. İfaçılıq (vokal və ya alətdə) vərdişlərinin formalaşdırılması.

Bu vəzifələri yerinə yetirmək üçün müəllim amili ön plana keçir. Çünki müasir musiqi müəllimi bilməlidir ki, onun dərs planında göstərdiyi məqsəd taktiki xarakter daşıyır, dərsin strateji məqsədi isə “üstün vəzifə”lər kimi nəzərdə tutulur.

Digər çətinlik müəllim şəxsiyyəti ilə əlaqədardır. Əgər müəllimin özünün musiqi-estetik şüuru zəifdirsə, öyrətdiyi musiqidən duyğulanmaq, ona dərsdə emosional münasibətini nümayiş etdirmək, intellektual münasibətini şifahi esse formasında, maraqlı şəkildə şərh etmək, gördüyü işdən özünün həzz almaq qabiliyyəti yoxdursa, onun quru və cansız metodikasının faydalı əmsalı çox aşağı olacaq. Musiqi müəllimini digər fənn müəllimlərindən fərqləndirən əsas cəhət budur. Yüksək meyarla yanaşsaq, digər fərqli cəhət də ondan ibarətdir ki, musiqi müəllimi sinifdə bir növ aktyor kimi çıxış edir. O, səhnədədir. O, səhnə elementlərini elə icra etməlidir ki, ömür boyu uşaqların yaddaşında qala bilsin.

Musiqi dərsi – musiqi mədəniyyəti dərsidir. Çünki yeni musiqi kurikulumunun tələblərinə əsasən, bu fənn üzrə məktəblilərdə müəyyən bilik, bacarıq və vərdişlər yaratmaqla bərabər, onların ümumi mədəniyyətlərinin inkişafı da təmin olunmalıdır.

1. Musiqi mədəniyyətinə aşağıdakı komponentlər daxildir:
- musiqidən duyğulanmaq, ondan həzz almaq qabiliyyəti;
- musiqi haqqında mülahizə yürütmək bacarığı;
- ciddi yüksək bədii dəyəri olan musiqidən həzz almaq qabiliyyəti;
- ifaçılıq (vokal və ya alətdə) vərdişləri.

2. Musiqi mədəniyyətinin formalaşdırılması ilə əlaqədar müəllimin dərs prosesindəki vəzifələrini "üstün vəzifə" adlandıraq.

3. "Üstün vəzifə"nin aşağıdakı dörd istiqaməti vardır:
- musiqiyə emosional münasibətin formalaşdırılması;
- musiqiyə intellektual münasibətin formalaşdırılması;
- musiqi zövqünün formalaşdırılması;
- ifaçılıq vərdişlərinin formalaşdırılması.

4. Hər dərsin məqsədi müxtəlif olsa da, vəzifələri dəyişməz qalır.

Müasir təlim texnologiyalarının köməkliyi ilə təlimin həm təhsilləndirici, həm də tərbiyələndirici funksiyaları özünü daha qabarıq verir və təlimin keyfiyyətinin yüksəldilməsinə səbəb olur.

**Məqalənin elmi yeniliyi:** Musiqinin təsir vasitələri ilə məktəblilərin dünyagörüşlərinin, bədii zövqünün formalaşdırılması, gözəlliyi duyma bacarığının əldə olunması, onlarda insani – mənəvi keyfiyyətlərin tərbiyəsi işində mühüm əhəmiyyət kəsb edir.

## ƏDƏBİYYAT

1. Jalə Qədimova. Etnoşünaslıq "Elm və Təhsil Nəşri" 2009.
2. Jalə Qədimova. Musiqi tədrisi metodikası. Dərslik, Bakı. ADPU. 2007.
3. O.Rəcəbov. Musiqinin tədrisi metodikası. Bakı, 2005.
4. Ə.Məmmədov, S.Dadaşova, İ.Hüseynov. Tətbiqi kulturologiya. Dərslik. Bakı. "Marş Print". 2004.
5. Fuad Məmmədov. Kulturologiya effekti həyat və fəaliyyətə aparan yol kimi. "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiysı. Bakı, 2006

**Məqalənin redaksiyaya daxil olma tarixi: 01.05.2023**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.05.2023**
**Məqalənin çapa qəbul olunma tarixi: 01.06.2023**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru Firəngiz Rzayeva**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 37.013.43**

**Leyla Etibar qızı Qasımova,**
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti,
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
*E-mail: faxriya.alieva@mail.ru*

# MÜASİR MÜSİQİ DƏRSİ VƏ İNNOVATİV TEXNOLOGİYALAR

***Açar sözlər:*** *müasir musiqi dərsi, innovativ texnologiyalar, pedaqoji innovasiyalar, müasir metodlar, müasir dərsin məqsədi*

Müasir dövrdə hər bir sahədə olduğu kimi, təhsil sahəsindədə müəyyən dəyişikliklərə ehtiyac vardır. Səbəblərdən ən əsası isə dünyada baş verən qloballaşmadır. Bu gün ölkəmizin qarşısımda duran ən əsas vəzifələrdən biri də təhsilin keyfiyyətinin yüksəldilməsidir. Zaman sürətlə irəlilədiyir, informasiya və texnologiya inkişaf edir, Təlim prosesi ənənəvi formadan müasir,interaktiv təlimə keşid edir. Lakin qeyd etmək lazımdır ki,  dərs təlimin və tərbiyənin əsas təşkili forması olaraq qalır.

**Л.Э.Гасымова**

# СОВРЕМЕННЫЕ МУЗЫКАЛЬНЫЕ УРОКИ И ИННОВАЦИОННЫЕ ТЕХНОЛОГИИ

***Ключевые слова:*** *современный урок музыки, инновационная технология, педагогические инновации, современные методы, основа современного урока*

В современное время в сфере образования, как и в любой другой сфере, есть потребность в определенных изменениях. Важнейшей из причин является происходящая в мире глобализация. Одной из важнейших задач, стоящих сегодня перед нашей страной, является повышение качества образования. Время идет быстро, информационные технологии развиваются, происходит переход от традиционных форм обучения к современным, интерактивным. Однако следует отметить, что основной формой организации обучения и воспитания остается урок.

**L.E.Gasimova**

## MODERN MUSIC LESSONS AND INNOVATIVE TECHNOLOGIES

***Keywords:*** *modern music lessons, innovative technologies, pedagogical innovations, modern methods, the purpose of modern lessons*

In modern times, as in every field, there is a need for certain changes in education. The most important reason is the globalization happening in the world. One of the paramount tasks facing our country today is improving the quality of education. Time is moving fast, information and technology are developing, the training process is changing from a traditional form to a modern, interactive one. However, it should be noted that the lesson remains the main form of organization of training and education.

Müasir dövrdə məktəblərin həll etdiyi bir çox problemlər təhsilin məzmununun əhəmiyyətli dərəcədə yenilənməsi, ümumi təhsilin dövlət standartının keyfiyyətcə həyata keçirilməsi, şagird şəxsiyyətinin öz müqəddəratını təyin etməsi üçün şəraitin yaradılması ilə əlaqələndirilir. Pedaqoji elmdə gedən yenilik uşaqların musiqi təhsilinə də öz təsirini göstərmişdir. Məktəblərdə müasir musiqi dərsinin əsas məqsədi "musiqi mədəniyyətinin mənəvi mədəniyyətin tərkib hissəsi kimi formalaşması"dır.

Müasir musiqi dərsinin aktual problemləri bunlardır:

- inteqrasiya olunmuş yanaşmanın tətbiqi;
- yeni təlim texnologiyalarının tətbiqi;
- musiqi tərbiyəsində müasir metodlardan istifadə;
- bədii didaktikanın prinsiplərini;
- innovativ təlim metodlarından istifadə.

Musiqi dərslərində tədris prosesinin məzmunu müxtəlif sənət növlərinin əsərləri ilə yaranan bədii ünsiyyətin formalaşmasına yönəldilmişdir. Buraya musiqi, ədəbiyyat, təsviri sənət, xoreoqrafiya, ekran sənəti, hiss və intellektə əsaslanan emosional və obrazlı təfəkkürün inkişaf etdirilməsi, mənəvi-əxlaqi və estetik ideallar kontekstində bədii zövqün və qiymətləndirmə meyarlarının formalaşdırılması aiddir.

İnnovativ təlim metodlarının və yeni təlim texnologiyalarının tətbiqi tədris prosesinin təkmilləşdirilməsinə, şagirdin bədii və praktiki səriştəsinin formalaşmasına yönəlib. İnnovasiya bir pedaqoji fəaliyyət olaraq təhsilə yenilik gətirir, təhsil prosesinin təkmilləşdirilməsinə xidmət edir.

İnnovasiya sözü ingiliscə, "innovation" sözündən götürülmüşdür. Mənası "yenilik" deməkdir. Pedaqoji innovasiya dedikdə, təlim, tərbiyə, təhsil prosesinin gedişini və nəticələrini yaxşılaşdırmaq məqsədilə pedaqoji sistemdə həyata keçirilən yenilik başa düşülür. Pedaqogikada İnnovasiya iki yanaşmadan ibarət olub, qabaqcıl pedaqoji təcrübənin nəticəsi kimi, pedaqoji ustalıq və şəxsi yenilik kimi araşdırılır: birincisi, adətən innovasiya, yenilik dövründən sonra uzun mubarizələrin nəticəsi kimi cəmiyyət tərəfindən tətbiq edilməsi üçün bir model olaraq qəbul olunur (bunun əsasında sonralar yeni pedaqoji texnologiyalar yarana bilər). Ikinci yanaşmada isə innovasiya yenilik kimi qəbul olunmayaraq birinciyə arxalanır.

Pedaqoji sistemin yeniləşməsi çox vacib və aktual ideyadır. Çünki təhsil cəmiyyətin simasıdır. Cəmiyyətin inkişafı təhsildə də öz əksini tapmışdır. Ölkədə siyasi sistemin dəyişməsindən sonra cəmiyyətdə olduğu kimi təhsildə də yeniliklər baş vermişdir.

Azərbaycanda kecirilən təhsil islahatları - məktəb Kurikulumunun tətbiqi fəal təlim üsüli ilə həyata kecirilir – bunlar şagird fəaliyyətlərinin cütlükdə, qruplarda qurulan işləridir. Bu işlər müzakirə, beyin həmləsi, Ven diaqramı, ziq-zaq və s. formalarda olur. Bu fəaliyyət zamanı şagirdlər bilik axtarışında olaraq daha cox məlumat toplaya bilib, onu tədris prosesində tətbiq edirlər. Bü da ənənəvi sovet pedaqoqikasının bilik, bacarıq və vərdişin yaradılması prinsipinə uyğun gəlir. Fərq ancaq ondadır ki, əvvələr müəlllim ən səmərəli metodlardan istifadə edərək bilikləri şagirdlərə ötürürdüsə,indi o, şagird fəaliyyətini quraraq onlara bu fəaliyyətdə bilik toplamaq üçün şərait yaradır. Bu təlimlə fəaliyyətdə olan şagird fəal olur, verilmiş istiqamətlər üzrə hərəkət etmək bacarığına yiyələnmiş olur.

Müasir zamanda elmin, texnologiyaların inkişafı çox surətlə gedir. Cəmiyyət bu inkişafla balans yarada bilmədiyi üçün, məktəb qarşısında yeni tələb və məqsədlər qoyur. Ona görə də bugünkü sürətli inkişafla ayaqlaşmalı olan gənc nəsil geniş çeşidli bilik daşıyıcısı yox, biliklərini yeniləşdirib yeni keyfiyyətə qaldırmağı bacaran yaradıcı təfəkkürlu bir şəxsiyyət olmalıdır. Bu o deməkdir ki, məktəb qarşısında qoyulan məqsədə catmaq üçün, garşıya çıxan məsələləri həll etmək üçün yeni texnologiya, yeni yanaşma, yəni innovasiya seçib təlimdə tətbiq edilməlidir. Bu innovasiyaları təlimə gətirib tədbiq etmək isə müəllimlərin qarşısında duran əsas vəzifələrdən biridir.

## ƏDƏBİYYAT

1. Mehrabov A.O. Pedaqoji prosesin optimallaşdırılmasının psixo-pedaqoji məsələləri. 2011.

2. Qədimova J.H. Musiqinin tədrisi metodikası. Bakı, 2007
3. Qədimova J.H. Musiqi pedaqogikası tarixilik və müasirlik. 2012
4. Paşayev Ə., Rüstəmov F. Pedaqogika. 2003
5. Заболоцкая И.В. Новые информационные технологии в музыкальном образовании: дис. ... канд. пед. наук. – СПб.: 2000.
6. Асафьев Б.В. Избранные статьи о музыкальном просвещении и образовании. Музыка. 1973. – 452 с.



**Məqalənin redaksiyaya daxil olma tarixi: 01.05.2023**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.05.2023**
**Məqalənin çapa qəbul olunma tarixi: 01.06.2023**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru Kəmalə İsmayılova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 37.01**

**Çinarə Rafiq qızı Quliyeva,**
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti,
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68

# MUSİQİ MÜƏLİMİNİN PEŞƏ SƏRİŞTƏSİ STRUKTURUNDA YARADICILIQ KOMPONENTİ

***Açar sözlər:*** *musiqi müəllimi, peşə səriştəsi, yaradıcılıq, şəxsiyyət, fərdi düşüncə, yaradıcı müstəqillik*

Pedaqoq-musiqiçi peşəsinin xüsusiyyəti, ilk növbədə, yaradıcılıq fəaliyyəti ilə bağlıdır.

Bu peşənin spesifikliyi musiqi müəlliminin, ümumtəhsil məktəbinin fəaliyyətinin mürəkkəb çoxşaxəli quruluşu ilə əlaqədardır ki, bu da gələcək nəslin mənəvi dünyasını zənginləşdirir, onda mühüm əxlaqi-estetik baxışları inkişaf etdirir və formalaşdırır, milli və dünya mədəniyyətinin və incəsənətinin nailiyyətlərini bilməyə ehtiyac və maraq qazandırır. Buna görə də musiqi müəllimi yalnız savadlı, təhsilli mütəxəssis deyil, ilk növbədə yaradıcı şəxsiyyət olmalıdır.

**Ч.Р.Гулиева**

# ТВОРЧЕСКИЙ КОМПОНЕНТ В СТРУКТУРЕ ПРОФЕССИОНАЛЬНОЙ КОМПЕТЕНЦИИ УЧИТЕЛЯ МУЗЫКИ

***Ключевые слова:*** *учитель музыки, креативность, профессиональная компетенция, индивидуальность, индивидуальное мышление, творческая самостоятельность*

Профессия учителя музыки в первую очередь связана с творческой деятельностью. Специфика этой профессии обусловлена сложной многогранной структурой деятельности учителя музыки, которая обогащает духовный мир подрастающего поколения, развивает и формирует в нем важные нравственно-эстетические взгляды, формирует потребность и интерес к познанию достижений отечественной и мировой культуры и искусства. Поэтому учитель музыки должен быть не только образованным специалистом, но и творческой личностью.

**Ch.R.Quliyeva**

## THE CREATIVE COMPONENT IN THE STRUCTURE OF THE PROFESSIONAL COMPETENCE OF A MUSIC TEACHER

***Keywords:*** *music teacher, creativity, professional competence, individuality, individual thinking, creative independence*

The properties of a music teacher is primarily related to creative activity. The specificity of this profession is due to the complex multifaceted structure of a music teacher's activity, which enriches the spiritual world of the younger generation, develops and forms important moral and aesthetic views in it, forms the need and interest in learning the achievements of domestic and world culture and art. Therefore, a music teacher should be not only an educated specialist, but also a creative person.

Musiqi müəllimin peşəkarlıq səviyyəsini təmin edən onun musiqi-yaradıcılıq bacarığıdır. Müəllimin yaradıcı səriştəsini müəllimin mövcud pedaqoji vəziyətindən asılı olaraq qeyri-standart metod və üsullardan istifadə edərək adi və qeyri-adi pedaqoji vəzifələri həll etməyə hazırlığı və bacarığı kimi müəyyən edilir.

Əsas yaradıcı səriştəsinin göstəriciləri bunlardır: tədqiqatçılıq, yenilikçilik və yaradıcılıq bacarığı, çünki müəllimin axtarış fəaliyyəti, zehnin maraq dairəsi yaradıcı insanı səciyyələndirir, yeni və effektiv həllin axtarışı və tapılması isə zəruri potensiala, yəni yaradıcılığa malik olan müəlimin innovativ yönümlü olmasıdır.

Yaradıcılığın təəcüblənmə və tanıma qabiliyyəti kimi başa düşülməsinə, qeyri-standart hallarda həllini tapma qabiliyyətinə əsaslanaraq, öz təcrübəsini dərindən dərk etmək bacarığı kimi, M.M.Kaşapov yaradıcı fəaliyyət mexanizmlərinin aşağıdakı əsas qruplarını müəyyən edir:

1. Yaradıcı fəallıq, fantaziya.
2. Şəxsiyyətin “ideal Mən” yüksəlməsi yolu ilə özünü aşkara çıxarmaq, öz təcrübəsinin müsbət yenidən qurulması: intuisiyadan verbalizə yolu ilə formalaşma.
3. Sintez yolu ilə analiz mexanizimdən istifadə edərək naməlumun axtarışı.
4. İntuitiv və məntiqi prinsiplərin qarşılıqlı təsiri əsasında naməlumun axtarışı.
5. Assosiativ mexanizmdən istifadə edərək naməlumun axtarışı.
6. Evristik üsullardan istifadə edərək naməlumun axtarışı.
7. Yaradıcı refleksiya mexanizmi.

İnsan yaradıcılıq fəliyyətinin bu mexanizminin əsasını xarici (subyektiv) və daxili (model) fəaliyyət planları arasındakı əlaqə təşkil edir. M.M.Kaşapovaya görə yaradıcılığın inkişafı proqramına bir sıra bloklar daxildir:

- Fərdin yaradıcı yükümlü olması (problemlərə və problemli vəziyyətlərə yaradıcı həssaslığın artması);
- yaradıcı təfəkkür intelektin mülkiyyəti kimi (yaradıcı təşəbbüs, yaradıcı müstəqillik, evristik, çeviklik və s.);
- bir proses kimi yaradıcı təfəkkür (indikativ, icraedici, nəzarət və qiymətləndirmə);
- yaradıcı təfəkkür fəaliyyət kimi, bunun nəticəsində yeni və orijinal məhsul yaradılır.

Effektiv elmi, pedaqoji və tədqiqat fəaliyyətini təmin etmək üçün müəllim yaradıcı səriştəyə malik olmalıdır. "Kreativlik" anlayışı yaradıcılıq istedadının səviyyəsini, yaradıcılıq qabilliyytini, insanın nisbətən sabit xüsusiyyətini ifadə edir. Bu anlayışı "yaradıcılıq" terminindən ayırmaq üçün iki xüsusiyyətdən istifadə etmək məqsədə uyğundur:

1) Yaradıcılığı təyin etmək üçün subyektiv şərtləndirmə;
2) Nəticəli prosedur.

Başqa sözlərlə, kreativlik insanın keyfiyətinə, yaradıcılıq isə kreativliyin təzahür etdiyi prosesə aiddir. Müəllmin yaradıcı səriştəsi ona yaradıcılıq üçün lazım olan bilik, bacarıq və şəxsi keyfiyyətlər sistemini əhatə edir.

Yaradıcı komponent müəllimin istənilən fəaliyyət növündə (pedaqoji, kommunikativ, təşkilati) mövcud ola bilər. Bu konteksdə onun peşəkar fəaliyyətinin tədqiqat komponentinə diqqət yetirilir.

İnsanın (o cümlədən müəllimin) yaradıcılıq səriştəsinin strukturunda aşağıdakı keyfiyyətlər fərqləndirilir:

- yaradıcı olmaq;
- problemləri həll etmə bacarığı;
- ixtiraçılıq, çeviklik və zehnin tənqidiliyi, intuisiya, orijinallıq və özünə inam;
- qeyri-standart tapşırıqlar qoymaq və həll etmək bacarığı;
- təhlil etmək, sintez etmək və birləşdirmək bacarığı;
- təcrübə ötürmə qabiliyyəti;
- uzaqgörənlik və s.;
- emosional-məcazi keyfiyyətlər; mənəviyyat, yaradıcı vəziyyətlərdə emosional yüksəliş;
- assosiativlik, təxəyyül, yenilik hissi, ziddiyyətlər, həssaslıq, empatiya qabiliyəti;
- stereotipərin aradan qaldırmaq;
- riskə meyl;

- azadlıq istəyi.

Kreativlik qabilliyyətlərini təhlil edən alimlər, çoxlu zehni işin nəticəsi kimi başa düşülən elmi yaradıcılıqda intuisiyanın yüksək rolunu qeyd edirlər ki, bu da vəziyyəti tez məntiqi şüursuz dərk etməyə əsaslanan bilik yolunu qısaltmağa imkan verir. Elmi yaradıcılıqda intuisiya fərziyyələrin yaranmasına, problemi, onun mahiyyətini görmə qabiliyyətinə, digər problemlərlə əlaqə qurmağa, fərziyyələr irəli sürməyə, tədqiq olunan hadisələri dəyişdirmək üçün meyarlar tapmağa, elmi faktları təsvir etməyə və sintez etməyə kömək edir.

Bundan əlavə ali təhsilin vəzifələri ilə bağlı yaradıcılıq qabilliyyətləri problemi öyrənilərkən yaradıcı insana xas olan aşağıdakı xüsusiyyətlər fərqləndirilir:

- mürəkkəb və qaranlıq olana maraq;
- sual vermək meyli;
- elmin inkişafı üçün məsuliyyət hissi;
- spantan maraq;
- eyni problemlə uzun müddət məşğul olmaq bacarığı;
- yüksək elmi istedad.

O, həmçinin aşağıdakı qabilliyyətlərin inkişafını nəzərdə tutur:

- uzun müddət ərzində böyük həcmdə məlumatı yadda saxlamaq və çoxaltmaq bacarığı (yaxşı yaddaş);
- yaradıcı düşüncə.

İnsanın yaradıcı təfəkkür qabilliyətini qiymətləndirmək üçün iki meyardan istifadə etmək olar:

1) onun problemləri həll etmə surəti və həll edə bildiyi zehni tapşırığın çətinlik dərəcəsi;
2) fantaziyalar – təcrübədə əvvəl rast gəlinməyən yeni bir anlayışı vizual olaraq təsəvvür etmək bacarığı.

Tədqiqat işinin düşüncə təcrübəsi, fərziyyənin qurulması və sınaqdan keçirilməsi kimi mərhələlərində fantaziya xüsusilə mühüm rol oynayır;

- müşahidə qabilliyəti;
- fərdi hadisələri öyrənərkən lazım olan və ya faydalı ola biləcək hər şeyi tez və asanlıqla fərq etmək bacarığı.

Tədqiqat işinin uğur qazanması üçün müəllim elmi istedadla yanaşı, həm də aşagıdaki şəxsiyyət xüsusiyyətlərinə malik olmalıdır. Bunlara daxildir:

1) öz işinə və onun tapşırıqlarına həvəs;
2) çalışqanlıq – uzun və səylə işləmək bacarığı;
3) nizam-intizam; tənqid və özünü tənqid etmə bacarığı;
4) insanlarla barışma bacarığı.

Bu xüsusiyyətlər pedaqoji fəaliyyətinin uğurunun mühüm ilkin şərtlərindən biridir. Müəllimin yaradıcı səriştəsi elmi-tədqiqat işinin səmərəli aparılması, tədrisin məzmununun və metodlarının sistemli şəkildə təkmilləşdirilməsini,

səmərəli elmi və tədris məlumatlarının toplanmasını, tədris-idrak fəaliyyətinin və şagirdlərin davranışının sistemli şəkildə öyrənilməsini, təhlili və qiymətləndirilməsini təmin edir.

Pedaqoq-musiqiçi peşəsinin xüsusiyyəti, ilk növbədə, yaradıcılıq fəaliyyəti ilə bağlıdır.

Pedaqoq-musiqiçi peşəsi pedaqoji, tərbiyə, təşkilatçılıq, maarifçilik, metodiki, ifaçılıq bacarıqlarını əhatə edən müxtəlif fəaliyyətləri birləşdirir. Musiqi müəlliminin fəaliyyətində bu istiqamətlər təkcə təhsil alanların musiqi mədəniyyətinin formalaşmasına deyil, həm də müəllimin özünün daim şəxsiyyətinin təkmilləşdirilməsinə yönəlmiş spesifik vəzifələrin həllində mühüm rol oynayır.

Bu peşənin spesifikliyi musiqi müəlliminin, ümumtəhsil məktəbinin fəaliyyətinin mürəkkəb çoxşaxəli quruluşu ilə əlaqədardır ki, bu da gələcək nəslin mənəvi dünyasını zənginləşdirir, onda mühüm əxlaqi-estetik baxışları inkişaf etdirir və formalaşdırır, milli və dünya mədəniyyətinin və incəsənətinin nailiyyətlərini bilməyə ehtiyac və maraq qazandırır. Buna görə də musiqi müəllimi yalnız savadlı, təhsilli mütəxəssis deyil, ilk növbədə yaradıcı şəxsiyyət olmalıdır. Musiqi müəllimi hər pyesə, mahnıya yaradıcılıq münasibəti saxlayaraq özünü naməlum musiqinin ilkin kəşfiyyatçısı kimi hiss etməlidir.

Gələcək müəllimlərin yaradıcılıq fəaliyyətinə hazırlığı Y.K.Babanski, V.V.Kraevski, V.Q.Maksimov, V.A.Slastenin, V.I.Zaqvinski tərəfindən araşdırılmışdır. Yaradıcılıq nəzəriyyəsinin işlənməsinə məşhur alimlər L.S.Viqotski, S.L.Rubinşteyn, A.N.Leontyev və s. böyük alimlərindən töhfələr vermişdir. Azərbaycanda musiqi müəllimlərin yaradıcılıq fəaliyyətin formalaşması ilə baglı M.R.Dadaşova tərəfindən tədqiqatları xüsusilə qeyd etmək olar.

Müəllimin yaradıcılıq fəaliyyətini şərtləndirən keyfiyyətlər, şəxsiyyət xüsusiyyətləri, pedaqoji bacarıqlar müəllim-musiqiçinin yaradıcılıq fəaliyyətinin xüsusiyyətlərinə aiddir. Musiqi-pedaqoji fəaliyyət pedaqogika ilə musiqi sənətinin qırılmaz vəhdəti, ümumi pedaqoji və xüsusi musiqi qabiliyyətləri, müəllim-musiqiçi şəxsiyyətinin peşə-pedaqoji yönümünü müəyyən edən məqsədəuyğun asılılıq ilə xarakterizə olunur.

Peşə hazırlığının formalaşması prosesi birbaşa fərdin yaradıcı keyfiyyətlərinin inkişafından, peşə hazırlığı prosesində fərdin yaradıcı təzahürlərinin həyata keçirilməsindən asılıdır, bunun vasitəsilə gələcək yaradıcılıq fəaliyyətinin formalaşması və inkişafı prosesi baş verir. Tədris prosesinin peşəkar və pedaqoji yönümlü olması gələcək peşənin xüsusiyyətlərini nəzərə almalı və yüksək ixtisaslı musiqi müəllimləri, başqa sözlə, geniş peşəkar pedaqoji və musiqi biliyi və maraqları olan bir mütəxəssis üçün musiqi hazırlığının ümumi vəzifələrini həll etməlidir. Universitetdə tələbələrin peşə və

praktiki hazırlığında əsas vəzifə yaradıcı müstəqilliyin formalaşdırılmasıdır, uğuru yalnız peşəkar hazırlığın vahid birliyi şəraitində mümkündür: təhsil metodları, peşəkar və bilik sistemləri, müstəqil mənimsəmə qabiliyyəti, nailiyyətlərin qiymətləndirilməsi.

Musiqi mədəniyyətinin mənimsənilməsi musiqi müəlliminin fəaliyyətinin peşəkar istiqamətini artırır. Müasir müəllim əvvəlki nəsillərin təcrübəsini yeni nəsillərə çatdırmaqla yanaşı, şagirdlərini biliklərlə təchiz silahlandırmaqla yanaşı, daimi yeniləməyə ehtiyac yaratmalı, özünətəhsil bacarıqlarını aşılamalıdır. Möhkəm peşəkar bazaya malik olan müasir musiqi müəllimi öz əməyinin yaradıcılıq xarakteri haqqında təsəvvürə malik olmalıdır, yaradıcılıq prosesi kimi pedaqoji fəaliyyətə hazırlaşmalıdır, əhəmiyyətli şəxsiyyət, peşəkar və yaradıcılıq potensialına malik olmalıdır, pedaqoji problemlərin həllinə qeyri-standart yanaşmadan istifadə etməlidir. Tərbiyə və təlim nəzəriyyəsinin və təcrübəsinin zənginləşdirilməsi pedaqoji yaradıcılıqdır. Hər müəllimin özünəməxsus peşəkar fəaliyyət tərzi, tədqiqatçı müəllimin isə öz xüsusi laboratoriyası var. Müasir musiqi müəlliminin yaradılması üçün yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək və təkmilləşdirmək zəruridir.

Musiqi-ifaçılıq fəaliyyəti yaradıcılıq fəaliyyətinin müəyyən bir növü olaraq iki formada həyata keçirilir: mənəvi-praktiki - bədii konsepsiyanın planın formalaşması və fəaliyyət-praktiki - bu ideyanın səslərdə, onun işlənməsində və musiqinin ifasında təcəssümü. Musiqi-ifaçılıq fəaliyyəti musiqi əsərlərinin interpritasiyasına əsaslanır. Ali məktəbdə musiqinin fərdi tədrisi sistemi (əsas musiqi alətə, əlavə musiqi alətə, konsertmeyster sinfi, dirijorluq, vokal) ifaçılıq fəaliyyəti üçün əlverişli müxtəlif imkanları əhatə edir. İfaçılıqda gələcək musiqi müəllimin şəxsiyyətinin yaradıcı yönümlü olması xüsusilə aydın şəkildə ifadə olunur, çünki bu fəaliyyət növü onun fərdiliyini daha dolğun üzə çıxarmağa imkan verir, yaradıcı müstəqilliyini inkişaf etdirir, keçmiş estetik təcrübəsini aktivləşdirir, lazımi assosiativ əlaqələri cəlb edir.

Müəllimin musiqi və yaradıcı səriştələrinin müəyyən edilmiş əsas aspektlərindən fərdi və yaradıcı komponent kimi tanınmalıdır. Həqiqətən də, musiqi səriştəsinin, fikrimizcə, pedaqoji bacarıq ilə heç bir əlaqəsi yoxdur. Və yalnız yaradıcılıq səriştəsi vasitəsilə onlar üzvi birliyin xüsusiyyətlərini əldə edirlər .

Musiqi və yaradıcılıq səriştələrinin şəxsi və yaradıcı komponenti peşəkar özünüdərk, özünü tanımış və özünü qiymətləndirmə, musiqi və yaradıcı təfəkkür, özünü tənzimləmə, özünü əks etdirmə, özünü həyata keçirmə və özünü təsdiq etmədən ibarətdir.

Bu gün tədrisin həqiqətən yüksək, yaradıcılıq səviyyəsinə yalnız kifayət qədər inkişaf etmiş dialektik düşüncə üslubuna malik, pedaqoji fəaliyyətin obyektiv və hərtərəfli dərk etməyə, onu müstəqil tənqidi qiymətləndirməyə və yaradıcı transformasiya etməyə qadir olan müəllim-musiqiçi nail ola bilər.

## ƏDƏBİYYAT

1. Dadaşova M.R. Musiqi müəlliminin hazırlığının metodikası. Bakı, 2010.

2. Dadaşova M.R. Yaradıcı prosesdə bilik, bacarıq və vərdişlər. Bakı, 2016.

3. Дадашева М.Р. Вопросы творческой фантазии в психологии, педагогике и музыке. Баку, 1995, с. 63

4. Креативность как ключевая компетентность педагога. Монография / Под ред. проф. М.М.Кашапова, доц. Т.Г.Киселевой, доц. Т.В.Огородовой. Ярославль: ИПК «Индиго», 2013. – 392 с.

5. Muradzadə V. Bədii təməyyüllü Ali məktəb tələbələrində yaradıcı təxəyyülün fəallaşdırılması yolları./ http://www.musigi-dunya.az/new/read_magazine.asp?id=309

6. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı, 1998, səh. 93

**Məqalənin redaksiyaya daxil olma tarixi: 01.05.2023**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.05.2023**
**Məqalənin çapa qəbul olunma tarixi: 01.06.2023**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru Məlahət Məmmədova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 37.01**

**Leyla Şahin qızı Abdullayeva,**
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti,
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
*E-mail: leyla2001.la@gmail.com*

# MÜƏLLİMİN HUMANİST KEYFİYYƏTLƏRİ

***Açar sözlər:*** *humanistlik, sosial, vətənpərvərlik, avtoritar üslub, novator, təlim-tərbiyə*

Humanizm prinsipi müəllimlik peşəsinin ayrılmaz tərkib hissəsidir. Müəllim insanları, o cümlədən öz yetişdirmələrini dərin məhəbbətlə sevib hörmət etməlidir. Yalnız sevgi ilə ən çətin, ən acı şeylər uşaqlara öyrədilə və çatdırıla bilər. Humanizm müəllimin uşaqlara hədsiz diqqət və qayğısı, həssaslığıdır. Humanizm prinsipi tələb edir ki, müəllimlər məktəbdə uşaqların rahatlığının qayğısına qalsın, onları döymədən, söymədən, təhqir etmədən təlim və tərbiyə etsinlər.

Müəllimin humanizmi onun rəftarında, davranışında, söhbətində, uşaqlara münasibətində özünü göstərməli və o hər zaman mehriban, səmimi olmalı, uşaqların səviyyəsinə enməyi bacarmalıdır. Uşağın ləyaqətinə hörmət etmək müəllimin öz ləyaqətini qat-qat yüksəldir.

**Л.Ш.Абдуллаева**

## ГУМАНИСТИЧЕСКИЕ КАЧЕСТВА УЧИТЕЛЯ

***Ключевые слова:*** *гуманизм, социальный, патриотизм, авторитарный стиль, новатор, воспитание*

Принцип гуманизма является неотъемлемой частью педагогической профессии. Учитель должен глубоко любить и уважать людей, в том числе своих воспитанников. Любовь к своим ученикам является важнейшим ресурсом в благополучном обучении и воспитании учащихся. Гуманизм – это чрезвычайная чуткость, внимание и забота педагога о детях. Принцип гуманизма требует, чтобы учителя заботились о комфорте детей в школе, обучали и воспитывали их без оскорбления, ругательств и применения физической силы.

Гуманизм учителя должен проявляться в его обращении, поведении, разговоре, отношении к детям, учитель должен быть доброжелательным и искренним по отношению к детям, он должен уметь спускаться до их детского уровня. Уважение достоинства ребенка значительно развивает чувство собственного достоинства учителя.

**L.S.Abdullayeva**

## HUMANISTIC QUALITIES OF A TEACHER

***Keywords:*** *humanism, social, patriotism, authoritarian style, innovator, education*

The principle of humanism is an integral part of the teaching profession. A teacher should love and respect people, including his own students, with deep love. Only with love, the most difficult and bitter things can be taught and passed on to children. Humanism is the teacher's extreme attention, sensitivity, and concern for children. The principle of humanism requires that teachers take care of children's comfort at school, train and educate them without beating, cursing, or insulting them.

The teacher's humanism should show itself in his every attitude, behavior, conversation, and he should always be kind, sincere, and be able to come down to the level of children. Respecting the child's dignity greatly increases the teacher's own dignity.

Müəllim əməyi özü humanist bir missiyanın həyata keçirilməsi ilə bağlıdır. Müəllim elə bir fəaliyyətlə məşğuldur ki, bu fəaliyyət bilavasitə tərbiyə olunan şəxsiyyətin və bunun nəticəsi kimi cəmiyyətin gələcəyi ilə bağlıdır. Bu isə ümumbəşəri humanist məqsəddir.

Müəllim bu gün yaşayır, bu gün çalışır. Lakin onun gördüyü işlər gələcəyə yönələn işlərdir. O, bu gün apardığı təlim-tərbiyə işləri ilə öz xalqının milli-mənəvi sərvətlərinin, eləcə də ümumbəşəri dəyərlərin qoruyucusu kimi çıxış etməklə yanaşı, həm də gələcək cəmiyyətin əsasını qoyur (1,42).

Humanizm, ilk növbədə, bu məqsədin, bu missiyanin özünün daxilində və müəllim ifadəsinin özündə mövcuddur. Müəllim o zaman əsl müəllim kimi uşaqların qəlbinə yol tapır ki, məhz bu keyfiyyət onun biliyi, elmi, öyrətmək həvəsi ilə birləşərək bir vəhdət təşkil etsin. Görkəmli rus yazıçısı və pedaqoqu L.N.Tolstoy bu münasibətlə yazırdı: "Əgər müəllim yalnız işi sevirsə, o yaxşı müəllim olacaqdır. Əgər müəllim şagirdi yalnız bir ata və bir ana kimi sevirsə, o bütün kitabları oxuyan, lakin nə işə, nə də şagirdlərə məhəbbəti olmayan

müəllimdən daha yaxşı müəllim olacaqdır. Əgər müəllim sənətinə və şagirdlərə olan məhəbbətini özündə birləşdirirsə, o kamil müəllimdir".

XX əsrin sonlarından pedaqogikada humanist meyllərin güclənməsi, insan amilinin önə çəkilməsi, şəxsiyyətyönümlü təhsil məsələsinə böyük diqqət verilməsi müəllim peşəsinin humanist istiqamətinə daha ciddi yanaşmalara səbəb olmuşdur. Müəllimin (avtoritar üslubunun əksinə olaraq) sinifdə şagirdləri fəal əməkdaşlığa cəlb edə bilməsi, şagirdi obyekt səviyyəsindən çıxararaq özünə tərəf – müqabil etməsi, fəaliyyətini "subyekt-subyekt" əsasında təşkil etməsi, təlim- tərbiyə işlərində şagird şəsiyyətinə hörmətlə yanaşması kimi məsələlər müəllim fəaliyyətinin humanist istiqamətinə yeni çalarların daxil olması zəruriyyətini daha da artırmışdır. Əbdül və Hikmət Əlizadələr yazırlar: "Məktəbin humanistləşdirilməsi təlim prosesində yeni tipli müəllim – şagird münasibətlərinin bərqərar olmasını nəzərdə tutur. Şagirdin insan ləyaqətinə hörmət etmək, ona etibar və inamla yanaşmaq, bir şəxsiyyət kimi onun, tələbatları və mənafeyi ilə hesablaşmaq – məhz bu keyfiyyətlər müəllimlərin şagirdlərlə münasibətlərinə nurlu insani çalarlar bəxş edir".

Şagirdlərdə inam və cəsarət formalaşdırmaq lazımdır. Müəllim şagirdlərə inandığını, onları sevdiyini, hər bir şagirdə güvəndiyini özünün sözü, hərəkət və davranışı ilə hiss etdirməli, bildirməlidir. Şagirdlərə elə münasibət göstərilməlidir ki, onlar, sadəcə, uşaq və şagird deyil, cəmiyyətin fəal və gərəkli bir üzvü olduqlarına inansınlar.

V.A.Suxomlinski yazırdı: "Tərbiyəçinin ən qiymətli keyfiyyətlərindən biri insanlıqdır, uşaqlara dərin məhəbbətdir, atanın, ananın səmimi nəvazişi ilə müdrik ciddiliyini və tələbkarlığını özündə birləşdirən məhəbbətdir".

"Yaxşı müəllim nə deməkdir" sualına V.A.Suxomlinski belə cavab verirdi: "O, ilk növbədə, uşaqları sevən insandır, onlarla ünsiyyətdən sevinc tapır, inanır ki, hər bir uşaq yaxşı insan ola bilər, uşaqlarla dostluq etməyi bacarır, uşaqların sevincini və kədərini ürəyinə sala bilir, uşağın qəlbini oxuyur və heç vaxt unutmur ki, özü də vaxtilə uşaq olub".

"Təhsil Haqqında" qanunda təsbit olunduğu kimi, "müəllimin vəzifəsi Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqın milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirməkdir" (3).

Humanizm pedaqoji peşənin təkcə xüsusiyyəti deyil, eyni zamanda onun atributlarından biridir. Süni, avtoritar yolla qazanılan nüfuzdan fərqli olaraq, öz yetirmələrinə hörmətlə, qayğı ilə yanaşan, onu şəxsiyyət kimi qəbul edən, onları sevən müəllimlərin şagirdlərə məhəbbəti həmişə dərin, şagirdlərin isə onlara inamı möhkəm olur. O müəllim özünü xoşbəxt hesab edə bilər ki, uşaqlar onun dərslərinə həvəslə gəlirlər, ayrıldıqda isə onunla yenidən görüşmək arzusu ilə sabahı gözləyirlər.

Pedaqoji peşədə humanizm heç də müəllim tələbkarlığını inkar etmir və hamıya, hər şeyə güzəşt edilməsi demək deyildir. Əksinə, burada hörmət və tələbkarlığın elə bir sintezi reallaşır ki, şagird şəxsiyyətinin inkişafı üçün real imkanlar yaranır. Belə şəraitdə şagird öyrənməyə, daha çox bilməyə həvəsli və maraqlı olur. Yaradılmış şərait, qarşılıqlı münasibət şagirdlərin gələcək inkişafına yeni-yeni impulslar verir, onlarda stimullar yaradır. Buna görə də "Müəllim – şagird münasibətlərinin humanistləşdirilməsi böyük bir anlama – şagirdin bir şəxsiyyət kimi formalaşmasına, inkişaf etməsinə, özünü aktuallaşdırması üçün şəraitin yaradılmasına xidmət etməlidir".

Şagird şəxsiyyətinə humanist yanaşma mövqeyi həmçinin, pedaqoji ustalığa gedən ən mühüm yollardan biri, bəlkə də, birincisidir. Qabaqcıl və novator müəllimlərin təcrübəsi göstərir ki, pedaqoji prosesin əsasında bu varsa pedaqoji ustalığın digər yollarını tapmaq, onun incə çalarlarını öyrənmək, tətbiq etmək bir o qədər çətin olmur. Əgər bu yoxdursa, hətta ən kəsərli metodların, yolların tətbiqi belə faydasız olacaqdır. Ən qabaqcıl texnologiyaların tətbiqi də, müəllimin öz üzərində daimi işləməsi də, özünü təkmilləşdirmə marağı da məhz, ilk növbədə, humanizmdən, öz peşəsini və uşaqları sevməsindən irəli gəlir (2,145).

## ƏDƏBİYYAT


1. İlyasov M.İ. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. Elm və təhsil, Bakı-2018
2. İlyasov M.İ. Müəllimin pedaqoji ustalığı. Elm və təhsil, Bakı-2013.
3. https://muallim.edu.az



**Məqalənin redaksiyaya daxil olma tarixi: 01.05.2023**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.05.2023**
**Məqalənin çapa qəbul olunma tarixi: 01.06.2023**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru, dosent Nelli Abutidze**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 37.01 (78)**

**Nərgiz Fərhad qızı Şakirli,**
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti,
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
*E-mail: shakirlnrgiz@gmail.com*

# MUSİQİ TƏRBİYƏSİNDƏ YARADICI PROSES TƏLƏBƏ VƏ ŞAGİRDİN ŞƏXSİ KEYFİYYƏTİ KİMİ

***Açar sözlər:*** *musiqi, ideya, tərbiyə, musiqi təhsili, vərdiş, peşəkar musiqi, mədəniyyət, obyekt*

Yaradıcı təxəyyül cəmiyyət həyatında çoxcəhətli rol oynayır. Yaradıcılıq fasiləsiz prosesdir. Bu prosesdə yüksəlişlər, tənəzzüllər də özünü göstərə bilər. Yaradıcılığı, demək olar ki, ən yüksək nöqtəsi ilhamdır. İlham özünə məxsus emosional yüksəlişə, fikirlərin tamlığı və aydınlığı ilə fərqlənir. Yaradıcılığın ilkin təzahürünə hər insanda rast gəlmək olar. Onu aşkar edib inkişaf etdirmək lazımdır. Yaradıcı bacarıqlar çoxda güclü olmayan və az nəzərə çarpan istedad arasında yerləşir. Lakin yaradıcı prosesin məzmunu və strukturu demək olarki hamı üçün eynidir. Fərq yalnız yaradıcılığın materiallarında, nailiyyətlərin miqyasındadır. Hər bir şəxsiyyət təkrar olunmaz xüsusiyyətlərə malik olması heç kimdə şübhə doğurmur. Bir çox adamlar öz unikal xüsusiyyətlərini büruzə verməkdə çətinlik çəkirlər. Elə buna görə də müasir cəmiyyətdə erkən yaşda uşaqların təfəkkürü, yaradıcılıq potensialının inkişaf etdirilməsi xüsusi aktuallıq kəsb edir.

**Н.Ф.Шакирли**

# ТВОРЧЕСКИЙ ПРОЦЕСС В МУЗЫКАЛЬНОМ ОБРАЗОВАНИИ КАК ЛИЧНОСТНОЕ КАЧЕСТВО СТУДЕНТА И УЧЕНИКА

***Ключевые слова:*** *музыка, идея, воспитание, музыкальное образование, привычка, профессиональная музыка, культура, объект*

Творческое воображение играет многогранную роль в общественной жизни. Творчество – это непрерывный процесс. В этом процессе также могут быть взлеты и падения. Вдохновение – чуть ли не высшая точка творчества. Вдохновение отличается собственной эмоциональной возвышенностью, полнотой и ясностью идей. Начальное проявление

творчества моно найти в каждом человеке. Его нужно открыть и развить. Творческие способности часто лежат между самым слабым и наименее заметным талантом. Но содержание и структура творческого процесса почти у всех одинаковы. Разница лишь в материалах творчества и шкале достижений. Несомненно, каждая личность обладает уникальными характеристиками. Многим людям трудно выразить свои уникальные характеристики. Именно поэтому развитие детского мышления и творческого потенциала в раннем возрасте в современном обществе особенно актуально.

**N.F.Shakirli**

## CREATIVE PROCESS IN MUSIC EDUCATION AS A PERSONAL QUALITY OF THE STUDENT AND PUPIL

***Keywords:*** *music, idea, education, music education, habit, professional music, culture, object*

Creative thinking plays a versatile role in social life. Creativity is a continuous process which has its own ups and downs. Inspiration is almost the highest point of creativity. It is distinguished by its own emotional elevation, completeness and clarity of ideas. The initial manifestation of creativity can be found in every person. It should be discovered and developed. Creative skills often lie between the weakest and the least noticeable talent. But the content and structure of the creative process is the same for almost everyone. The difference is only in the materials of creativity and the scale of achievements. There is no doubt that each personality has unique characteristics. Many people find it difficult to express their unique characteristics. That is why the development of children's thinking and creative potential at an early age in modern society is particularly relevant.

**Məqalənin aktuallığı.** Müasir cəmiyyətin inkişafı hər şeydən öncə yaradıcı şəxsiyyətlərin nailiyyətləri sayəsində mümkün olur, lakin yaradıcı şəxsiyyətlərin təşəkkülü erkən yaş dövrünə təsadüf etsə də, təəssüflər olsun ki, bunun üçün münbit sərait olmur.

Bu sahədə araşdırmalar onu göstərir ki, uşaqlarda yaradıcı fəaliyyət hələ məktəbəqədər təhsil müəssisələri tərəfindən hələ erkən yaşlarda sıxışdırılır. Bundan sonrakı inkişafında mühüm rol oynayan təşəbbüskarlıq hissləri, müstəqillik cəhdləri, kreativ davranış və onun təzahür xüsüsiyyətləri nəzərə alınmır. Sonrakı inkişafında bu təlim fəaliyyətinin səmərəliliyinə təsir ötüşmüşdür və sosial münasibətlərdə probemlər yaradır, şagirdlərin

özünəməxsus potensial imkanlarını adekvat gerçəlləşdirmələrinə imkan vermir. Bu baxımdan təhsildə islahatlar aparıldığı şəraitdə məktəbəqədər yaş dövründə uşaqların yaradıcılıq potensialı inkişaf etdirilməsinə zərirət yaranır .

Ümumi pedaqogikanın tərkin hissəsi olan musiqi tərbiyəsi tələbə və şagirdin yaradıcı keyfiyyətlərini aktivləşdirir. Eyni zamanda onun daxilində olan vacib məsələləri ön plana çəkir.

Uşaqların musiqi yaradıcı qabiliyyətlərinin formalaşdırılması üçün B.L.Yavorskinin B.V.Asafyevin K.Orfun tədqiqat işləri nəzəri və praktik baxımdan qiymətlidir.

B.L.Yavorski musiqiçi – pedaqoqların arasında ilk dəfə uşaqların yaradıcı musiqi tərbiyəsindən danışarkən belə bir fikir söyləmişdir. “Bütün kursların proqramına yaradıcı element daxil olmalıdır, hər yerdə nəinki yazılanı oxumağı öyrətməlidi, eyni zamanda öz sözünü deyə bilməlidi ”

B.L.Yavorski fərqli assosiasiyalardan istifadə edərək yaradıcı keyfiyyəti formalaşdırırdı: nitq, görmə və.s., hansı ki, yaradıcı təxəyyülü aktivləşməsində mühüm rol oynayir. Bunların həyata keçirilməsi üçün müxtılif növ bədii fəaliyyətlər həyata keçirlirdi. O belə hesab edirdi, dünyada baş verən ictimai hadisələr, təbiət səsləri yaradıcılığı oyada bilər. Yavorski ilə yanaşi eyni zamanda B.Asafyevdə uşaq musiqi yaradıcılığına cox böyük əhəmiyyət verirdi. B.Asafyev improvizasiyadan istifade edərək musiqi təfəkkürünü və təxəyyülünü inkişaf elətdirirdi. “Uşaqlarda musiqi – yaradıcı vərdişləri haqqında ” əsərində qeyd edirdi ki, yaradıcılıq təkcə seçilmiş insanların qisməti deyil. O xalqın improvizə ənənələrindən yetişir. Musiqi bəstələmə uşaqların yaradıcı aktivliyini stimullaşdırır, eyni zamanda dərslərə marağ yaradır.

Bəstələmə metodundan istifadə edərək B.Asafyev uşaqların yaradıcı fəaliyyətlərini aktivləşdirməyə cəhd edir.

L.A.Barenboym yaradıcı təxəyyül haqqında danışarkən qeyd edirdi: “Şagirdin yaradıcı təxəyyülü inkişaf olunmayanda, o, müəllif yazısını öz tərəfindən xəyal edə bilməz, “sətir altı” oxuya bilməz, musiqi nitqinin məzmununu və ifadəliyini eşidə bilməz” (2 ;90)

Barenboym qeyd edir ki, şagird hər hansı bir sahədə olan yaradıcı qabiliyyəti mütləq başqa bir sahədə də özünü göstərəcək . Yaradıcı təxəyyülün məhsuldarlığından danışanda L.A.Barenboym onu mədəniyyətdən asılı olmasını təyin edir. “Gündəlik həyat təxəyyül üçün hazir musiqi materialı vermir. O , daima xüsusi musiqi təcrübəsinin əldə olunmasına ehtiyac duyur: O, eşitməlidir, eşidib seçiç etməyi bacarmalıdır. Musiqiçinin yaradıcı təxəyyülünun inkişafı yüksək musiqi eşitmə mədəniyyətinin tərbiyəsi üçün şərait tələb edir” (3;38).

Birdən-birə fəal yaradıcı təxəyyül yaranmır. Onda obrazlar mərhələlər üzrə yarana bilir. Öz xarakterik xüsusiyyətinə uyğun olaraq hazırlıq, təkmilləşmə, aydınlatma və yoxlama adlandırılan mərhələllərlə aşağıdakı

ardıcıllıqla həyata keçirilir:

1. Hazırlıq mərhələsi – ideya üçün materialların yığılması;

2. Təkmilləşmə mərhələsi ideyaya yaxınlaşma, çatışmayan məlumatların əlavə edilməsi;

3. Aydınlatma mərhələsi – ideyanın intuitiv dərk olunması;

4. Yoxlama mərhələsi – son nəticənin dəqiqləşməsi

Q.S.Altşuller yaradıcı təxəyyülü beş mərhələyə ayırır:

1. Birinci mərhələdə qarşıya qoyulan məqsəddən asılı olaraq obyekt tamamilə dəyişdirilə bilər. Obyekt dəyişdirilərsə əvvəlki elmi məlumatlardan istifadə etmək və lazım gələrsə yeni elmi nəzəriyyələr yaratmaq mümkün ola bilər . Bu mərhələdə təxəyyülün rolu minimumdur, reproduktiv xarakterə malik olan isə yaradıcılıqdır;

2. İkinci mərhələdə isə obyekt tamamilə dəyişdirilir və məsələnin həlli az təsadüf edilən hadisə və eyni zamanda effektlərin elmi əsasda araşdırılmasına istinadən tapılır;

3. Üçüncü mərhələ isə təkmilləşdirilən obyektin ciddi dəyişdirilməsi ilə xarakterizə olunur.

Burada işin yerinə yetirilməsi üçün yeni ideya, biliklər axtarmaq lazım gəlir. Təxəyyülün rolu bu mərhələdə daha böyükdür.

4. Dördüncü mərhələdə obyektin video dəyişiklikləri müşahidə olunur. Bilik və vasitələrin bir istiqamətindən istifadə olunur.

5. Beşinci mərhələ də isə xarakterizə olunan obyektin dəyişməməsidir. Bu zaman tətbiq etmə vasitəsi artıq həmin obyektə yönələ bilir .

Təxəyyülün rolu bu mərhələdə maksimumdur. Təxəyyül surətlərini təhlil edərkən biz şəxsiyyət amilini nəzərə almalıyıq. Şəxsiyyət keçmişin şüursuz meyillərinin və indiki zamanda gələcəyə şüurlu canatmaların ifadə vasitəsidir. Yaradıcılıq prosesində şəxsiyyətin özünü aktuallaşdırması, şəxsiyyətin yaradıcılıq meyillərini həyata keçirə bilməsi xüsusilə diqqət mərkəzində saxlanılmalıdır.

Son yarım əsrdə, demək olar ki, yaradıcılıq psixologiyasına maraq xeyli artmış, bunu ardınca bu sahədə maraqlı tədqiqatlar aparılmışdır. L.S.Vogostskinin , Ə.Ə.Əlizadənin, A.Y.Dudetskinin və başqalarının apardığı tədqiqatlar yaradıcılığın psixoloji təbiətini başa düşülməsinə, yaradıcı təxəyyülə aid külli miqdarda material verilmişdir.

Tanınmış psixoloqlardan V.Şişkov, İ.M.Rozet, A.İ.Eminov və başqaları fantaziyaya aid araşdırmalar aparmış, E.P.Levina, D.D.Blaqoy, İ.V.Straxov, Mixail Arnaudov, T.Y.Dadaşova və digərləri ədəbi bədii yaradıcılıqda təxəyyülün geniş imkanlarından əhatəli bəhs etmiş, L.M.Sixmatov, Q.V.Kristi, İ.E.Kox və başqaları isə səhnə psixologiyasını işıqlandırmış, aktyor və rejissor yaradıcılığında təxəyyülün imkanlarını tədqiq etmişlər.

Təxəyyül ətraf dünyaya yaradıcı münasibət bəsləyən bir formadır.

İncəsənətdə ətraf aləminə əks olunması sənətkarın yaradıcılığında yeni əsərlərin - heykəltaraşlıq, rəsm, musiqinin yaranmasının varlığına çevrilir.

Psixoloji ədəbiyyata nəzər salsaq görərik təxəyyül ayrı-ayrı təəssüratları eyni ilə təkrar etmir, yığılmış təəssüratlardan yeni bir şey quraşdırır .

E.İ.İqnaytev qeyd edir: "Təxəyyül prossesinin əsas xüsusiyyəti ondadır ki, keçmiş təcrübə materialının və qavramaların işlənilməsində və dəyişdirilməsində iştirak edir, nəticədə yeni təsəvvürlər alınır" (10; 167).

S.L.Rubinşteyn yazır ki: "Təxəyyül bizim nə isə yeni bir şey yaratmaq ehtiyacımızla və qabiliyyətimizlə bağlıdır. Təxəyyül – keçmiş təcrübədən uzaqlaşaraq, onu dəyişdirmək deməkdir. Təxəyyül müəyyən, bəlli olan nəisə obrazlı formada dəyişdirmək deməkdir" (9;11).

Göstərdiyimiz bütün bu təriflər bu mövzuda tədqiqat aparan bir çox müəlliflərin fikridir.

B.M.Teplov yaradıcılıqla təxəyyülün bir biri ilə əlaqəsini qeyd edir. "Təxəyyül - keçmişdə qavranılmış materialların əsasında yeni obrazların yaranması deməkdir". Və sonra: "Təxəyyül, bədii yaradıcılıq prossesində, incəsənətdə, son dərəcə mühüm əhəmiyyət kəsb edir (8;1).

Deyilənlərə əsasən, belə nəticəyə gəlmək olar ki, təxəyyül mürəkkəb psixi proses olub, əldə olunan təcrübə əsasında təsəvvürlərin yaranması mümkün olur . Başqa psixi proseslər kimi, təxəyyül reallığı əks etdirir, fikrin mövcud varlığınıdan uzaqlaşmasını əks etdirir .

Təxəyyül fəaliyyəti aktiv və rasional dərk etmə formaları vardır .

"Əgər təfəkkürü təxəyyüldən məhrum etsək, o yaradıcı sonsuzluğa çevrilir və yeni konstruksiyalara qarşı aciz qalır. Əgər təxəyyülü təfəkkürdən təcrid etsək, yəni lazımı biliklərin sistemləşdirilmiş proseslərindən və təxəyyül məhsularının təngidi proseslərindən ayırsaq, onda təxəyyülün özü gücsüz və məqsədsiz olacaq" (7; 38).

Təxəyyül təfəkkürün aparıcı rolu vasitəsilə qavranılmamış hadisələrin subyektin qabiliyyəti ilə əyani obrazların (qismən yaxud bütünlüklə) yaradılması deməkdir" (4; 76).

Musiqinin qavranılması prosesində ən əhəmiyyətli musiqi əsərinin lad mənsubluğunun təyin olmasıdır .

Bəstəkar O.Rəcəbov Azərbaycanda məktəblərində apardığı təcrübələr göstərir ki, mahnını öyrəndikdən sonra onu ladla müqayisə etsək, uşaqların təxəyyülü inkişaf edir. Laçın əsasında dayanan səs özündə musiqi fikrinin açılmasına əsasdır.

İnkişaf etmiş lad hissiyatı musiqinin qavranılmasında böyük əhəmiyyətə malikdir.

Təxəyyül vasitəsilə musiqi mədəni təcrübəsini, mənimsəyərək inkişaf edir, özünün yaradıcı inkişafında yeni mərhələyə qalxır. Şagird dinləyir, oxuyur, təhlil edir – bu halların baş verməsində təxəyyülün təcrübəsinə qulluq edir. Ali məktəblərdə təhsil alan tələbələrin yaradıcılıq inkişafı, cari prosesləri dərk etmə

səyləri, yiyələndikləri ixtisaslarda yeni üsullar axtarmaqi və istedadlarını lazımi səmtə yönəltməlidirlər. Bu işdə tələbələrə ixtisas müəllimləri kömək etməli, ixtisasın incəliklərinin qavranılmasında bilik və bacarıqlarını əsirgəməməlidirlər.

İnsanın fəaliyyətinin bütün sahələrində demək olar ki, yaradıcı təxəyyül böyük rol oynayır. Tələbələrdə idrak proseslərinin inkişafı, təfəkkür və hisslərin qarşılıqlı əlaqəsi təxəyyülun inkişaf səviyyəsində asılıdır. Yaradıcılığın imkanları genişdir bu, imkanlardan lazımınca, səmərəli istifadə etmək, mədəniyyətimizin, incəsənətimizin gələcəyi üçün bugün yaradıcı potensialımızı işə salmalıyıq. Hər bir sənət müəllimi hazırladığı dərsə yaradıcı yanaşmalıdır, tələbə və şagirdlərin yaradıcı təxəyyül imkanlarını nəzərə almalıdır. Müəllimlərin yaradıcı, pedaqoji imkanları müxtəlifdir eyni ilə tələbələrdə də bu özünü göstərir.

Sənət müəllimləri böyük təxəyyül imkanlarına malikdirlər. Orta məktəblərdən fərqli olaraq ali məktəblərdə tələbələrin təliminin mürəkkəb olması onun yaradıcı təxəyyülünün inkişafına mühüm təsir göstərir. Fərdi dərs zamanı müəllim tələbəyə sadə tapşırıqlarla bərabər çətin fərdi yaradıcılıq tələb edən tapşırıqlar vermelidir. Təlim prosesində tələbəyə nə qədər çox sərbəstlik verilərsə bir o qədər onun yaradıcı təxəyyülü inkişaf etmiş olar .

Yaradıcı fəaliyyət zamanı inamın böyük rol oynadığını müəllim tələbəyə praktik sürətdə asilamalidir. Tələbənin yaradıcı fəaliyyətinin uğurlu olması məhz onun yaradıcı təxəyyülünə inam hissidir. Özünə inamı olmayan tələbə yaradıcılığın heç bir növündə müvəffəqiyyət qazana bilməz.

Yaradıcılıqda müvəffəqiyyətin sirri öz gücünə inam, əldə etdikləri bilik və zengin təxəyyülə malik olmasıdır. Öz fəaliyyətinin nəticəsini əvvəlcədən təxəyyülündə canlandırmaq da yaradıcılıqda inamın formalaşmasını sürətləndirir. İdrak proseslərin o cümlədən təxəyyülün inkişafı onların təlim müvəffəqiyyətində ciddi rol oynayır. İnsan həyatında təxəyyül surətlərinin əhəmiyyəti onun keyfiyyəti ilə, təcrübəsinin zənginliyi ilə əlaqədardır. Gündəlik həyatlarında hər bir şəxs, öz arzularına uyğun rəngarəng təxəyyül sürətləri yarada bilər. Tələbələrin ixtisasa yiyələnmələrində yaradıcı təxəyyül mühüm rol oynayır.

Ə.Ə.Əlizadə «Müasir Azərbaycan məktəbinin psixoloji problemləri» əsərində qeyd edir ki, “Tələbələrin təhsil illərində qazandıqları bilik və təcrübə yaradıcı təxəyyülə yeni fəaliyyət məhsulu verir. Qazanılmış bilik, bacarıq və vərdişlər təxəyyülün inkişafı, zənginliyi üçün zəmin yaradır. Fəaliyyət prosesində tələbələrin təxəyyülünü aktivləşdirmək, yaradıcılıq səylərinə istiqamət vermək lazımdır. Hər bir tələbənin yeni surətlər yaratmaq imkanı onun idrak proseslərinin inkişafı və fəallaşdırılması ilə əlaqədardır. Ona görə də tələbələri yaradıcı fəaliyyətə sövq etmək, onların təxəyyülünü inkişaf etdirmək, fəallaşdırmaq müəllimlərin ən önəmli vəzifələrindən biri olmalıdır. Psixoloqlar və pedaqoqlar həmişə insanlarda dünyaya yaradıcı münasibətin formalaşdırılmasına, onun yaradıcılıq irkanlarının üzə çıxarılmasına böyük əhəmiyyət vermişlər. Bədii təmayüllü ali məktəblərdə yaradıcılıq qabiliyyətlərinin inkişafı şəxsiyyətin ən

dəyərli məziyyəti kimi qiymətləndirilməli, bu baxımdan tələbələrdə, məhz təxəyyülün formalaşdırıl masının və inkişafının zəruriliyi hər vaxt diqqət mərkəzində saxlanılmalıdır".

## ƏDƏBİYYAT


1. Ağayev R.Ə. Əlizadə A.İ. Bədii xalq yaradıcılığında tarixilik va varislik. Bakı Mars-Print, 2003, 148 s
2. Əli Polad. Üç min ilin hikməti. Bakı: Yurd, 2004, 720 s. 18.
3. Əlizadə Ə.Ə. Yeni pedaqoji təfəkkür. Bakı: Adiloğlu, 2001, 162 s.
4. Eminov A.İ. Şagirdlərdə yaradıcı fantaziya tərbiyəsi. Bakı: Maarif, 1980, 88 s.
5. Dadaşov T.Y. Bədii ədəbiyyat və şəxsiyyətin psixoloji xüsusiyyətlərinin təşəkkülü/ Tələbələrin idrak fəaliyyəti və şəxsiyyətin təşəkkülü. Bakı: ADU, 1981, s.141-147
6. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı: Çinar-Çap, 2002, 620 s.
7. Əfəndiyev T.İ. Azərbaycan dramaturgiyasında metodlar. Bakı: Elm, 2002, 512 s.
8. Самарин Ю.А. Воспитание воображения школьника. J., 1947.
9. Теплов Б.М. Психологические вопросы художественного воспитания. Известия Ак. Пед. наук РСФСР Вып. 1. 1947
10. Рубинштейн С.Л. Воображение. Основы общей психологии. М., 1940.
11. Игнатьев Е.И. 0 некоторых особенностях изучения представлений и воображения. Вып. 76, М, 1956.
12. Коршунова Л.С. Воображение и познание. Изд. Моск. Ун-та, 1979..
13. http://www.musigi-dunya.az/new/read_magazine.asp?id=309&page=1
14. https://thestrip.ru/az/kinds-of-makeup/formirovanie-i-razvitie-obraznogo-muzykalnogo-myshleniya/
15. https://www.arti.edu.az/nodupload/editor/files/15_%20Musiqi-kurikulum.pdf


**Məqalənin redaksiyaya daxil olma tarixi: 01.05.2023**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.05.2023**
**Məqalənin çapa qəbul olunma tarixi: 01.06.2023**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru Firəngiz Rzayeva**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

# TƏLİM VƏ TƏRBİYƏNİN NƏZƏRİYYƏSİ VƏ METODİKASI (MUSİQİNİN TƏDRİSİ METODİKASI)

**UOT 374**

**Gülarəxanım Əhməd qızı Axundova,**
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universiteti,
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
*E-mail: axundova1949@mail.ru*

## MUSİQİ MÜƏLLİMLƏRİNİN DİRİJORLUQ HAZIRLIĞI

***Açar sözlər:*** *musiqi müəllimi, dirijorluq hazırlığı, fənn məzmunu*

Məqalədə musiqi müəllimlərinin dirijorluq hazırlığının əhəmiyyəti və dirijorluq fənninin məzmununun elementləri araşdırılır. Qeyd olunur ki, dirijorluğun tədrisində üçüncü oriyentasiya tipinə əsaslanaraq, fənnin məzmunu üç elementdən ibarət olmalıdır: birinici – öyrənilən fənn haqqında və hərəkətlərin qurulması barədə mənimsənilməli biliklər, ikinci – bacarıq və vərdişlər, üçüncü – yaradıcı fəaliyyəti təcrübəsi.

**Г.А.Ахундова**

## ДИРИЖЁРСКАЯ ПОДГОТОВКА УЧИТЕЛЕЙ МУЗЫКИ

***Ключевые слова:*** *учитель музыки, дирижёрская подготовка, содержание предмета*

В статье рассматривается значение дирижерской подготовки учителей музыки и элементы содержания предмета дирижирования. Отмечается, что, исходя из третьего типа ориентации в обучении дирижированию, содержание предмета должно состоять из трех элементов: первый – усвояемые знания об изучаемом предмете и построении действий, второй – умения и навыки, и третий – опыт творческой деятельности.

**G.A.Akhundova**

## CONDUCTOR'S TRAINING FOR MUSIC TEACHERS

***Keywords:*** *music teacher, conductor training, subject content*

The article discusses the importance of conducting training for music teachers and the content elements of the subject of conducting. It is noted that, based on the third type of orientation in teaching conducting, the content of the subject should consist of three elements: the first is acquired knowledge about the subject being studied and the construction of actions, the second is skills and abilities, and the third is the experience of creative activity.

Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanununda elmi-texniki və sosial-iqtisadi inkişaf tempinin sürətləndirilməsinə uzunmüddətli təsir göstərən ən mühüm amil kimi qəbul edilən ali təhsil də daxil olmaqla, təhsilin bütün pillələrinin təkmilləşdirilməsi vəzifələri aydın şəkildə müəyyən edilmişdir. Bu baxımdan ölkə universitetləri təhsilin keyfiyyəti problemini həll etməlidirlər. Bütün sahələr üzrə mütəxəssislərin, o cümlədən müxtəlif fənlər üzrə müəllimlərin (eləcə də musiqi müəllimlərinin) hazırlanmasına böyük diqqət yetirilir. Musiqi müəllimlərinin hazırlığı bir çox xüsusi ixtisas fənlər blokunu özündə ehtiva edir və onların arasında dirijorluq fənni mühüm yer tutur.

Bu gün hökumətimiz müəllimlərin, o cümlədən musiqi müəllimlərinin, hazırlanmasının gücləndirilməsi və təkmilləşdirilməsi siyasətini aparır. Bu, bilavasitə orta məktəblər üçün dirijorların, musiqi müəllimlərinin hazırlanması ilə bağlıdır.

Dirijor peşəsi mürəkkəb, çətin və incə peşələrdən biridir. Hər hansı müəllim bu və ya digər sualı söz vasitəsilə şagirdlərə çatdırırsa, dirijor onu jest, mimika və s. ilə idarə etdiyi kollektivə çatdırır. Bu, dirijordan böyük məharət tələb edir. Əl hərəkətində və ya üz ifadələrindəki kiçik bir səhv xorla işi korlaya bilər.

Kütlələrə musiqini sevdirmək, onların mənəvi ehtiyacına çevirmək dirijordan asılıdır. Hər kəs bilir ki, müxtəlif dirijorların ifa etdiyi eyni musiqi dinləyiciyə müxtəlif təsir göstərir. Musiqini dinləyicinin ruhunun dərinliklərinə çatdırmaq dirijordan məhsuldar əmək tələb edir. Bu o deməkdir ki, dirijorun işində nizam-intizam və məlumatlılıq birinci yerdədir.

Musiqi müəllimi hazırlığının aparılması prosesində tələbələrin müstəqilliyinin formalaşdırılmasının səmərəli yol və vasitələrinin tapılması son dərəcə vacibdir. Pedaqoji universitetlərin musiqiçi-tələbələrin əsas kontingentini orta ümumtəhsil məktəblərinin 5-7-illik musiqi təhsili olan

məzunları təşkil etdiyi üçün (və ya orta ixtisas musiqi təhsili olsa belə, çox vaxt başqa ifaçılıq ixtisaslarında olur) təbii ki, onların dirijor hazırlığı yoxdur. Odur ki, onlar musiqi müəllimi və sinifdənkənar xor işinin rəhbəri kimi çıxış etdikləri ümumtəhsil məktəbində pedaqoji təcrübə (IV kursda) keçməzdən əvvəl xor əsərlərini şərh etməkdə və müəllifin niyyətini dirijor jestləri vasitəsilə çatdırmaqda artıq müstəqillik nümayiş etdirməyi bacarmalıdırlar, eləcə də məşq üsullarına yiyələnmiş olmalıdırlar. Bu məqam tələbələrin dirijor hazırlığının bütün elementlərinin yüksək səmərəliliyini tələb edir.

Müəllif niyyətini təcəssüm etdirən dirijorluq jestlərinin seçilməsi ilə bağlı hərəkətlər üç tipli oriyentasiya əsasına söykənir. Birinci tip, oriyentasiyanın natamam əsası ilə xarakterizə olunur ki, burada hərəkətlər yalnız müəllimin modelinə (nümunəsinə) uyğun olaraq həyata keçirilir. Dirijorluq təcəssümü nümunəsini aldıqdan sonra tələbələr sınaqlar və səhvlər yolu ilə hərəkət edərək, nümunəni daha dəqiq şəkildə kopiyalamağa, təqlid etməyə çalışırlar.

İkinci tip oriyentasiyada tələbələr nümunədən başqa, müəyyən bir əsərdə jestlərlə nəyin çatdırılmalı olduğu və necə (müəyyən olmayan hallarda) biliklər alırlar. Bununla da hazır halda oriyentir əsasını əldə edərək, tələbələr müəyyən bir musiqi obrazının ifadəli açıqlanmasına daha tez nail olurlar, lakin yeni əsərlər üzərində işləyərkən müstəqil düşünməyi və hərəkət etməyi öyrənmirlər.

Tələbələrin əsərin ideyasını həyata keçirməsi üçün dirijorluq jestlər sistemini müstəqil seçməyi öyrəndikləri üçüncü oriyentasiya tipi, aşağıdakı biliklərə yiyələnmək şərtilə mümkündür:

a) dirijorluq jestlərinin informativ imkanları haqqında biliklər: metrin, səsaparıcılığının xarakterinin, tempin, dinamikanın, ritmin, ifanın başlaması və kəsilməsinin ötürülməsi;

b) dirijorluq priyomlarının qurulması prinsipləri və üsulları (metrin, ritmin və s. ötürülməsi priyomları) haqqında biliklər. Birincilər (prinsiplər) – tələbələrin diqqətini jestlərlə nəyin təcəssüm etdirməli olduğuna və konkret bir əsərdə musiqi səslənməsinin elementlərini nəyin xarakterizə etdiyinə yönəldir. Sonuncu (üsullar) – tələbə tərəfindən müəllifin və öz niyyətlərini daha ifadəli şəkildə necə çatdıracağına qərar verərkən, zəngin dirijorluq palitrasından şüurlu şəkildə istifadə etməyə imkan verir. Bütün bunlar tələbələrə yeni əsərlər üzərində işdə müstəqil fəaliyyət göstərməyə kömək edir.

Üçüncü tipli oriyentasiya daha çox tələbələrin müstəqil fəaliyyətini aktivləşdirir, lakin fənnin məzmununun müəyyən qədər yenidən qurulmasını tələb edir. Dirijorluq texnikasının tədrisində üçüncü tipli oriyentasiyadan istifadə etmək üçün bilikləri fənnin məzmununa daxil etmək lazımdır ki, bunların əsasında tələbələr dirijorluq priyomlarını təhlil edə və müstəqil və ya müəllimin azacıq köməyi ilə dirijorluq priyomların icra üsullarının necə qurulacağını, həmçinin həyata keçirmək üçün jestlərin seçimini öyrənə bilələrlər.

Fənnin məzmununun buna əsasən qurulması tələbələrə böyük həcmdə dirijorluq priyomlarını mənimsəməyə imkan verir ki, bu da onlara növbəti semestrlərdə ənənəvi tədris metodologiyasında öyrənilən bir sıra texnikaları təlimin birinci semestrində işə daxil etməyə imkan verir. Görkəmli rus alimi İ.Lernerin təsnifatının əsaslanaraq, dirijorluq fənninin məzmununu dirijorluq texnikasına yiyələnmək baxımından aşağıdakı kimi sistemləşdirmək olar:

Fənnin məzmununun birinci elementi – mənimsənilməli biliklər. Burada birinci növ bilikləri (öyrənilən fənn haqqında) və ikinci növ bilikləri (hərəkətlərin üsulları haqqında) ayırd etmək olar.

Birinci növ biliklərə aşağıdakılar daxildir:

1. Dirijorluq texnikası və onun funksiyaları.

2. Dirijorluq aparatının komponentləri və onlara qarşı tələblər.

3. Dirijorluq qulaylanma jestinin xüsusiyyətləri (sürəti, amplitudası, uzunluğu, qüvvəsi, çəkisi, istiqaməti, forması).

4. Dirijorluq qulaylanma jestinin elementləri (qulaylanma; yönəlmə, nöqtə və əkstəsir, yəni geri çəkilmə və ya qayıdış).

5. Dirijorluq jestlərinin informasiya imkanları (səsaparıcılığının xarakteri, metr, temp, ritm, dinamika, səslənmənin başlanması və bitməsi).

İkinci növ biliklərə aşağıdakılar daxildir:

1) metrik sxemlər (üçvəznli, dördvəzinli, ikivəzinli və s.);

2) ştrixlər (*non legato, legato, staccato* və s.)

3) ifaya girişlər (başlanğıc, xanədaxili, xanənin tam və tam olmayan vəzninə);

4) ifanın kəsilməsi (sonluq, xanədaxili, vəznin birinci və ikinci hissəsinə, “kombinələşdirilmiş kəsmələr”);

5) ritmik şəkillər (uzun səslər, punktir ritm, sinkopalar, fermatalar və s.);

6) dinamika (daimi, qisamüddətli);

7) templər (daimi, dəyişkən).

Dirijorluq texnikasının öyrədilməsində biliklər özü-özlüyündə məqsəd deyil. Onlar dirijorluq hərəkətlərinə yiyələnmə üçün zəruridir və buna görə də bacarıq və vərdişlərin formalaşdırılmasının və yeni əsərlər üzərindəmüstəqil işin vacib şərtidir.

Fənnin məzmununun ikinci elementi – bacarıq və vərdişlərdir. Bunlara aşağıdakılar daxildir:

1) metrin göstərilməsi (üçvəznli, dördvəzinli, ikivəzinli və s.);

2) səsaparıcılığının göstərilməsi (*non legato, legato, staccato* və s.);

3) girişlərin göstərilməsi (xanənin müxtəlif vəznlərinə);

4) səslənmənin kəsməsinin göstərilməsi (xanənin müxtəlif vəznlərində);

5) ritmin göstərilməsi (çərək və yarım notların növbələnməsi, punktir ritm, sinkopa, fermata və s.);

6) dinamikanın göstərilməsi (f, ff, mf və s., səslənmənin tədricən artması

və azalması);

7) tempin göstərilməsi (daimi – mülayim, ağır, cəld və dəyişkən – tədricən sürətlənmə və ya ağırlaşma).

Bu sadaladığımız bilik və bacarıqlar əsasında tələbələrdə əsərin bədii obrazından irəli gələn ifaçılıq məsələlərini müəyyənləşdirmək (nəyi təcəssüm etmək) və lazımi jestləri seçib-tapmaq (necə etmək) bacarığı formalaşır. Fənnin məzmununun bu elementlərinin mənimsənilməsi dirijorluğun tədrisinin birinci mərhələsində daha vacibdir, çünki əsas bacarıq və vərdişlər olmadan müstəqil yaradıcı fəaliyyət mümkün deyildir.

Fənnin məzmununun üçüncü elementi – yaradıcı fəaliyyət təcrübəsi. Ona konkret xor əsərləri üzərində dirijorluq priyomlarının prinsip və üsullarının, eləcə də müstəqil olaraq jesrlər sisteminin axtarışı prosesində nail olunur.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Təhsil haqqında qanunu. Bakı, 2006
2. Ахундова Г.А. Развитие дирижёрских способностей студентов. Баку, АГПУ, 2021
3. Dadaşova E., Əliyeva M. Dirijorluq və onun tədrisi metodikası. B., ADPU, 2013
4. Лернер И.Я. Проблема методов обучения и пути её исследования. М., 1975



**Məqalənin redaksiyaya daxil olma tarixi: 01.05.2023**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.05.2023**
**Məqalənin çapa qəbul olunma tarixi: 01.06.2023**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru, dosent Firəngiz Hidayətova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 372.878**

**Firəngiz Şahmurad qızı Hidayətova,**
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universiteti,
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
*E-mail: firangizhidayatova@gmail.com*

# MUSİQİ TƏHSİLİNİN MƏKTƏBLİLƏRİN BƏDİİ TƏRBİYƏSİ MƏQSƏDLƏRİNƏ YÖNƏLDİLMƏSİ

***Açar sözlər:*** *musiqi təhsili, tədris metodu, tədris prosesi*

Bu gün musiqidə tədris metodu anlayışının tərifinə iki əsas yanaşma mövcuddur. Onlar bir-biri ilə metodun empirik və nəzəri konsepsiyası kimi korrelyasiya olunur, burada müxtəlif dərəcədə ümumilik dərəcəsi ilə təlimin həyata keçirilmə yolları və onun təşkili üçün normaları təyin edən metodoloji konsepsiya təsvir olunur. Birinci yanaşma metodun qarşıya qoyulmuş təlim məqsədlərinə çatmağa yönəlmiş müəllim və tələbələrin birgə fəaliyyətinin metodlarının məcmusu kimi başa düşülməsinə əsaslanır. İkinci yanaşma tədris metodunu normativ bilik sahəsinə aid edir, "tərbiyə işinin konkret formalarında həyata keçirmək üçün nəzərdə tutulmuş, normativ planda təqdim olunan və tədris prosesinin həyata keçirilməsinə yönəldilmiş vahid tədris və təlim fəaliyyətinin modelidir. tələbələr və onlar tərəfindən təhsilin məzmununun müəyyən hissəsinin mənimsənilməsi"

**Ф.Ш.Гидаятова**

# НАПРАВЛЕНИЕ МУЗЫКАЛЬНОГО ОБРАЗОВАНИЯ НА ЦЕЛИ ХУДОЖЕСТВЕННОГО ВОСПИТАНИЯ ШКОЛЬНИКОВ

***Ключевые слова:*** *музыкальное образование, метод обучения, учебный процесс*

Сегодня в музыке существуют два основных подхода к определению понятия метода обучения. Они соотносятся между собой как эмпирическое и теоретическое представление о методе, описывающее с различной степенью общности способы осуществления обучения, и методологическое представление, предписывающее нормы его организации. Первый подход опирается на понимание метода как совокупности способов совместной деятельности учителя и учащихся, направленных на достижение поставленных целей обучения. Второй подход относит метод обучения к

нормативной области знаний, как "конструируемая с целью реализации в конкретных формах учебной работы модель единой деятельности преподавания и учения, представленной в нормативном плане и направленной на передачу обучающимся, и усвоение ими определённой части содержания образования".

**F.Sh.Hidayatova**

## DIRECTING MUSIC EDUCATION TO THE GOALS OF ARTISTIC EDUCATION OF SCHOOLCHILDREN

***Keywords:*** *music education, teaching method, educational process*

Today, music has two basic approaches to defining the concept of learning method. These relate to an empirical and theoretical view of the method, describing with varying degrees of commonality the ways in which the training is delivered, and a methodological view prescribing the rules of its organization. The first approach is based on the understanding of the method as a set of ways in which teachers and students work together to achieve their learning goals. The second approach attributes the learning method to the normative field of knowledge, as "a model, designed for the purpose of implementing in specific forms of educational work, of the unified activity of teaching and learning, presented in the normative plan and aimed at transferring to students, and their assimilation of a certain part of the content of education"

Bütün dövrlərdə musiqi güclü psixoloji qüvvə kimi insanların hiss və iradəsinə təsir etmək üçün istifadə olunub. Musiqinin bu enerji potensialından müasir şou-biznes də uğurla istifadə edir. Bu da tez-tez əhəmiyyətsiz və məzmunsuz musiqi məhsullarının köməyi ilə təkcə "zövqləri" deyil, həm də gənclərin yüksək sərvətin ən böyük sərvətini görmək istəməməsini formalaşdırır. Belə olan halda orta məktəbdə musiqi təhsili və tərbiyəsinin təşkili problemi xüsusi aktuallıq kəsb edir ki, bu da alt mədəniyyətin kütləvi genişlənməsinə alternativ ola bilər.

Müvafiq olaraq, musiqi təhsilinin hərtərəfli və dərin elmi-metodiki əsaslarının işlənib hazırlanması problemi yaranır. Tarixə nəzər salsaq ümumi pedaqoji təlim metodları çox vaxt mexaniki olaraq məktəbdə musiqinin tədrisinə keçirilir. Pedaqoji ictimaiyyət tərəfindən ümumiyyətlə qəbul edilir ki, musiqi insana emosional təsir göstərməklə bağlı böyük tərbiyə potensialına malikdir. Bununla belə, məktəbdə incəsənətin tədrisi metodu problemi pedaqoji biliklərin ən az inkişaf etmiş sahəsidir.

**Mövzunun aktuallığı.** Bütün sosial funksiyaları aparıcı kommunikativ

funksiya ilə üzvi şəkildə birləşdirən musiqinin əsas məqsədi uşaqların bədii ünsiyyətini təşkil etməkdir. O, məktəblilərin musiqi yaradıcılıq fəaliyyətində birləşdirilməsi yolu ilə həyata keçirilir ki, bu fəaliyyət həqiqətən də hamı üçün maraqlı və dəyərlidirsə, mövcud ümumi bədii məqsəd hər kəs üçün əhəmiyyətlidirsə, səmərəli tərbiyəvi nəticələr verir.

Bədii təhsilin məqsədləri həm sənətə olan ehtiyacın, həm də onun vasitəsi ilə başqa insanlarla ünsiyyət ehtiyacının formalaşmasını nəzərdə tutduğundan, musiqi öyrətmək üçün üsulların əldə edilməsinin spesifikliyi sənətin təbiətinə əsaslanır, o, dəyişdirmək qabiliyyətinə malikdir. sənət əsərinin bir şəxs tərəfindən qavranılmasından (təcrübənin) bir çox insanın bu əsəri ilə kollektiv ünsiyyətinə (birgə təcrübə).

Qeyd olunan aspektlər "Musiqi təhsilinin məktəblilərin bədii tərbiyəsi məqsədlərinə yönəldilməsi" mövzusunun seçimi və tətbiq metodikası musiqi və bədii yaradıcılığın elm və təhsildə tətbiq olunması daha effektiv nəticələr əldə etmək üçün mövzunun aktuallığını bir daha təsdiq edir.

Məktəbli odur ki, hazırda dünyanın estetik tədqiqi ilə bağlı bilik növlərini tam əhatə etməyən ümumi didaktika prinsiplərinə əsaslanaraq, musiqinin tədrisi konsepsiyasını hazırda qurmaq mümkün deyil. Bu mövqeyi nəzəri cəhətdən əsaslandırmaq üçün ümumtəhsil məktəblərində şagirdlərə musiqi fənlərinin tədrisində ümumi didaktik metodlardan istifadənin xüsusiyyətlərini nəzərdən keçirməyə, uşaqların tərbiyəsində yalnız musiqi fənlərinə xas olan xüsusi metod və metodların müəyyənləşdirilməsinə xüsusi diqətlə yanaşmaq lazımdır.

Elmi-pedaqoji ədəbiyyatda tədris metodu anlayışının tərifinə iki əsas yanaşma mövcuddur. Onlar bir-biri ilə metodun empirik və nəzəri konsepsiyası kimi korrelyasiya olunur, burada müxtəlif dərəcədə ümumilik dərəcəsi ilə təlimin həyata keçirilmə yolları və onun təşkili üçün normaları təyin edən metodoloji konsepsiya təsvir olunur (1).

Birinci yanaşma metodun qarşıya qoyulmuş təlim məqsədlərinə çatmağa yönəlmiş müəllim və tələbələrin birgə fəaliyyətinin metodlarının məcmusu kimi başa düşülməsinə əsaslanır.

İkinci yanaşma tədris metodunu biliklərin normativ sahəsinə aid edir, burada V.V.Kraevski tərəfindən "təhsil işinin konkret formalarında həyata keçirmək üçün nəzərdə tutulmuş, normativ sənəddə təqdim olunan tədris və təlimin vahid fəaliyyətinin modeli kimi təqdim olunur. plan və təhsilin məzmununun müəyyən hissələrinin şagirdlərə ötürülməsinə və onlar tərəfindən mənimsənilməsinə yönəlmişdir".

Musiqi təhsili pedaqogikasında tədris metodu geniş mənada musiqi təhsilinin məzmununu mənimsəməyə və problemlərin həllinə yönəlmiş pedaqoji metodların məcmusu kimi başa düşülür. Dar mənada, metod musiqi bilikləri, bacarıqları əldə etmək, yaddaş, təfəkkür, təxəyyül inkişaf etdirmək, habelə musiqiyə emosional və dəyərli münasibət, bədii zövq, maraq yaratmaq

üçün nəzərdə tutulmuş müəyyən vasitələr, üsullar hesab olunur. sənət və onunla ünsiyyət ehtiyacları.

Konsepsiya olaraq çoxölçülü və çoxölçülü tədris metodu bir çox təsnifata malikdir: bilik mənbələrinə görə (praktiki, əyani, şifahi və s.), şagirdin müxtəlif şəxsi strukturlarının (şüur, davranış, hisslər və s.) formalaşmasına görə. .), idrak fəaliyyətinin təbiətinə görə (izahlı və illüstrativ, reproduktiv, problemli və s.).

Demək olar ki, məktəblilərin musiqi təhsili praktikasında geniş istifadə olunan ümumi didaktik metodların üç qrupunu fərqləndirməklə ümumi pedaqoji təlim metodlarının musiqi fənlərinin tədrisində özünəməxsus refraksiyaları var (2).

Məsələn, aşağıdakı kimi təqdim olunan müqayisə üsulu:

1) musiqi materialındakı oxşarlıqları və fərqləri müəyyən etmək;

2) musiqi materialının konkret həyat hadisələri və prosesləri ilə eyniləşdirilməsi;

3) musiqinin məzmununun başqa bir sənət növünə (rəsm, heykəltəraşlıq, ədəbiyyat və s.) çevrilməsi.

Bunu həm də vizual-eşitmə nümayişi üsullarını (musiqi əsərlərinin nümayişi) və şifahi üsulları (musiqilərin bədii və obrazlı məzmununun şifahi formaya tərcüməsi) fərqləndirmək mümükündür. Musiqi təhsilinin pedaqogikasında ümumi pedaqoji metodlarla yanaşı, xüsusi təlim metodları da mövcuddur. Onların spesifikliyini nə müəyyənləşdirir sualı qanunidir? Hər şeydən əvvəl, musiqinin tədrisi metodlarını musiqi sənətinin özü müəyyən edir ki, bu da "bütün məktəb fənlərindən başqa bir yaradıcılıq aktı" tələb edir.

Musiqinin bir sənət növü kimi mahiyyəti məsələsi çox genişdir və elmi məqalənin sıxılmış çərçivəsində əhatə oluna bilməz. Musiqinin bədii məzmunu əsərlə bilavasitə təmasda, səslənmə intonasiyasının xüsusi musiqi fəaliyyəti - “intonasiya” vasitəsilə mənimsənilməsi prosesində üzə çıxır.

İnsan təfəkkürünün spesifik bir növü kimi çıxış edən musiqi əsas funksiyaya - insan ünsiyyəti funksiyasına malikdir, onun xüsusiyyəti "ixtiyari çoxlu insanların parlaq müsbət ideal ətrafında birləşməsi". Bu nöqteyi-nəzərdən musiqinin əsl rolu və məqsədi L.S.Vıqotskinin yazdığı kimi, “bədəni ətraf mühitlə tarazlaşdırmaqda”dır. Belə bir “tarazlaşdırmanın” baş verdiyi müvafiq şəraitin təşkili xüsusi üsullar tələb edir.

Onların köməyi ilə incəsənətin tədrisinin əsas ideal məqsədi həyata keçirilməlidir ki, bu da şəxsiyyətin bədii tərbiyəsinin ümumi məqsədinə uyğun gələn sənət əsərlərini qavramaq və onun vasitələri ilə başqa insanlarla ünsiyyət qurmaqdır. Bu müddəalar musiqi sənətinin tədrisi prosesinin bir növ keçid kimi başa düşülməsi, bir şəxs tərəfindən başa düşülən və qəbul edilən bədii dəyər və mənaların dialoq vasitəsilə digər insanların dəyər və mənaları sferasına çevrilməsi üçün əsas olur. Bu mülahizələr belə qənaətə gəlməyə əsas verir ki, ümumi pedaqogikada ənənəvi olaraq musiqinin tədrisində təlim metodlarına və

tərbiyə metodlarına bölmək məqsədəuyğun görünmür, çünki fənnin xüsusiyyətlərini həm öyrədən, həm də tərbiyə edən musiqi sənəti, tanışlıq müəyyən edir.

Beləliklə, musiqi təhsilinin pedaqogikasında tədris metodları eyni vaxtda tədris və tərbiyə funksiyalarını yerinə yetirir.

Bu kontekstdə müasir dövrdə musiqi təhsili pedaqogikasının əsas tezisi özünü doğrultmuş görünür: "Musiqi dərsi incəsənət dərsidir". Bu, belə dərslərdə insanın dünyaya mənəvi-praktik, yaradıcı, fərdi münasibətinin üstünlük təşkil etməsini nəzərdə tutur ki, bu da avtoritar yanaşmanı və ona uyğun gələn tədris metodlarını qəbuledilməz edir. Dünyaya belə münasibətin formalaşması yaradıcılıq yolu ilə təhsil şəraitində, yəni şagirdin bədii fəaliyyətinin musiqi dinləmək, onu ifa etmək və yaratmaq üçlüyü kimi təşkili şəraitində mümkündür. Uşaqların öz yaradıcılıq təcrübəsinin təşkili, tanınmış müəllimlərin fikrincə, onun vasitəsi ilə şagirdlərin sənət qavrayışını və ünsiyyətini inkişaf etdirmək üçün etibarlı bir yoldur.

Erkən yaşlarda çoxlu sayda uşaqlarda nəzərə çarpan musiqi və yaradıcılıq fəaliyyətinə cəlbedicilik sinif və sinifdənkənar musiqi dərsləri çərçivəsində inkişaf etdirilməlidir. Lakin tələbələrin bu fəaliyyətinin təşkili metodu bu günə qədər kifayət qədər işlənib hazırlanmamışdır. Uşaqların musiqi yaradıcılığı ümumtəhsil məktəblərində sistemli dərslərdən daha çox eksperiment kimi həyata keçirilir. Bütün bunlar öyrənilməni, ümumiləşdirməyi, elmi əsaslandırmanı, həmçinin fundamental metodoloji bazanın işlənib hazırlanmasını tələb edir. Məktəblilərlə işin bu növünün spesifikliyi ətraflı öyrənilmişdir. Burada əsas ideya ümumtəhsil məktəblərində bir növ musiqi laboratoriyalarının təşkilindən ibarətdir ki, onun da əsasını şagirdlərin xor, vokal və instrumental ansambllara cəlb edilməsi təşkil edir. Bu qruplarda çalışan məktəblilər müxtəlif siniflərdən ola bilər, çünki burada yaş yox, ilk növbədə musiqi qabiliyyətinin dərəcəsi, marağı, həvəsi və yaradıcılıq istəyi önəmlidir.

Bununla belə, müasir orta məktəb şəraitində belə qrupların təşkili çox vaxt məktəb təhsilini övladlarının gələcək taleyi üçün faydalı hesab edən şagirdlərin valideynlərinin mövqeyi ilə, habelə ümumi təhsil səviyyəsinin aşağı olması ilə əlaqədar əhəmiyyətli çətinliklər yaradır. tələbələrin mədəniyyəti və musiqi zövqləri. Bütün bunlar müəllim-musiqiçini orta məktəbdə məktəblilərin musiqi yaradıcılığının təşkili üzrə iş üsullarının seçilməsinə istiqamətləndirir.

Məktəblilərə musiqinin öyrədilməsinin sadalanan üsulları ümumi bir xüsusiyyətə malikdir - onların hamısı müəllim tərəfindən yaradılmış müvafiq pedaqoji şəraitdə musiqi fəaliyyətinin müxtəlif növlərini əhatə etmək üçün nəzərdə tutulmuşdur, uşaqları yaradıcılıq prosesinə cəlb etmək üçün ən effektivdir. Eyni zamanda, bu üsullardan həm müəllim və şagirdlərin bir növ "bədii əsəri" kimi çıxış edən dərsin təşkilində, həm də sinifdənkənar məşğələlərdə kollektiv yaradıcılıq işində istifadə oluna bilər.

Beləliklə, emosional dramaturgiya metodu pedaqoji reallığın konkret fraqmentinin yaradılmasında müəyyən dramatik həllin olmasını nəzərdə tutur. Bu metodun mahiyyəti ondan ibarətdir ki, müəllim qarşıdan gələn fəaliyyətin bədii əsərə bənzər modelini qurur, burada məzmun müəyyən formada cəmlənir, kulminasiya nöqtələri və onların yaradılması yolları göstərilir. Bəstələrin yaradılması üsulu əsərinin müxtəlif üsullarla ifası vasitəsilə öyrənilməsini nəzərdə tutur: xor və solo oxumaq, elementar musiqi alətlərində ifa etmək, bu əsərin musiqisinə keçid. Baxılan üsul müxtəlif səviyyəli musiqi qabiliyyəti olan məktəbliləri yaradıcılıq prosesinə cəlb etməyə, hər bir şagird üçün onun meyl və maraqlarına uyğun fəaliyyət növünü tapmağa imkan verir.

Bununla belə, kompozisiyaların yaradılması metodu müəllimdən xor və ya instrumental uşaq qrupu üçün musiqi əsərinin aranjimanı, aranjimanı ilə bağlı xüsusi bacarıqlara malik olmasını tələb edir. Bədii kontekst yaratmaq metodu orta məktəbdə şagirdlərin musiqi yaradıcılıq fəaliyyətinin təşkili üzrə nəzərdən keçirilən iş üsullarını üzvi şəkildə tamamlayır. Bu üsul musiqidən kənarda incəsənətin, ədəbiyyatın, tarixin digər formalarına bir növ "çıxış"ı, həmçinin konkret həyat vəziyyətlərinə müraciət etməyi nəzərdə tutur.

Alim və müəllimlərin bu bilik sahəsindəki fəaliyyəti zamanı formalaşmış ümumtəhsil məktəblərində musiqinin tədrisinin digər üsullarına gəlincə, bu cür metodların praktikada tətbiqi, fikrimizcə, daha çox əldə edilən pedaqoji nəticələrə əsaslanır. yuxarıda müzakirə olunan üsullarla. Sonunculara əlavə olaraq, musiqi öyrətməyin aşağıdakı üsulları da fərqlənirdi: "qabaqda qaçmaq" və artıq keçilmiş materiala "qayıtmaq" üsulu, əks etdirmə üsulu, musiqi haqqında mülahizə musiqi ümumiləşdirməsi .

Musiqi fəaliyyətinin müxtəlif növləri ilə bağlı xüsusi üsulları da göstərmək lazımdır. Bunlar, ilk növbədə, məktəblilərə müxtəlif bacarıqların inkişafına yönəlmiş təlim üsullarıdır: uzun müddət musiqi dinləmək, musiqi parçasını təhlil etmək, bədii məzmunu haqqında şifahi hekayə yaratmaq.

Orta məktəbdə musiqi təhsilinin aparılması üsullarının spesifikliyi şagirdlərin öz musiqi yaradıcılıq təcrübəsini təşkil etmək zərurətindən irəli gəlir. Böyüyən insanı tərbiyə etmək vasitəsi kimi musiqiyə müraciət etmək "intonik məna sənəti" adlandırılan bu sənət növünün mahiyyətinin dərk edilməsinə əsaslanır.

Bütün sosial funksiyaları aparıcı kommunikativ funksiya ilə üzvi şəkildə birləşdirən musiqinin əsas məqsədi uşaqların bədii ünsiyyətini təşkil etməkdir. O, məktəblilərin musiqi yaradıcılıq fəaliyyətində birləşdirilməsi yolu ilə həyata keçirilir ki, bu fəaliyyət həqiqətən də hamı üçün maraqlı və dəyərlidirsə, mövcud ümumi bədii məqsəd hər kəs üçün əhəmiyyətlidirsə, səmərəli tərbiyəvi nəticələr verir. Başqa sözlə, musiqi yaradıcılığı, əslində, sevincli, həyəcanlı fəaliyyət olmalı, uşaqların musiqi vasitəsilə ünsiyyət qurma imkanlarını açmalıdır.

Yuxarıda göstərilənlərin hamısı musiqi təhsilinin məktəblilərin bədii tərbiyəsinin məqsədlərinə yönəldilməsinin ümumi istiqamətinin başa düşülməsinə gətirib çıxarır ki, bu da musiqi sənətinin tədrisi üsullarının seçilməsi birbaşa asılıdır. Bədii təhsilin məqsədləri həm sənətə olan ehtiyacın, həm də onun vasitəsi ilə başqa insanlarla ünsiyyət ehtiyacının formalaşmasını nəzərdə tutduğundan, musiqi öyrətmək üçün üsulların əldə edilməsinin spesifikliyi sənətin təbiətinə əsaslanır, o, dəyişdirmək qabiliyyətinə malikdir. sənət əsərinin bir şəxs tərəfindən qavranılmasından (təcrübənin) bir çox insanın bu əsəri ilə kollektiv ünsiyyətinə (birgə təcrübə).

Bu müddəalar məktəbdə musiqinin tədrisində tədris və tərbiyə metodlarının bir-birindən ayrılmasının məqsədəuyğun olmadığını başa düşməyə gətirib çıxarır və onların xüsusi daxili əlaqəsini, qarşılıqlı asılılığını və qarşılıqlı asılılığını müəyyən edir.

Bundan əlavə, musiqi təhsili pedaqogikasının inkişafının müxtəlif mərhələlərində aktual olan fundamental məsələ - məktəbliləri musiqi ilə necə maraqlandırmaq və ovsunlamaq, şagirdlərə musiqinin musiqinin bir insan olduğunu başa düşməyə və hiss etməyə imkan verən həmin tədris metodlarının ön plana çıxarılmasını tələb edir. onların həyatının ayrılmaz hissəsi. Bu insanın yaratdığı dünya hadisəsi.

Beləliklə, ümumi pedaqoji və musiqi təhsili və tərbiyəsinin xüsusi metodlarının spesifik birləşməsindən ibarət olan inteqrativ təlim metodlarının üstünlük təşkil etdiyini əsaslandırır. Onların spesifikliyi insanpərvər bir insana təcili həyati ehtiyac, yaradıcılıq və ünsiyyət üçün təbii insan ehtiyacı, ideoloji, mənəvi, əxlaqi, emosional təsir göstərən bu ehtiyacı ödəmək üçün sənətin məqsədi ilə müəyyən edilir.

## ƏDƏBİYYAT


1. Кольман В.Ф. Значение дополнительного музыкального образования в формировании личности человека / В.Ф. Кольман // Жур. «Методология и история психологии». - Санкт-Петербург, 2010.
2. Посталюк, Н.Ю. Творческий стиль деятельности: педагогический аспект / Н.Ю.Посталюк. – Казань : Изд-во Казан. ун-та, 1989. – 204 с.


**Məqalənin redaksiyaya daxil olma tarixi: 01.05.2023**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.05.2023**
**Məqalənin çapa qəbul olunma tarixi: 01.06.2023**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Afət Həsənova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 786**

**Gülarə Çinqiz qızı Aslanova,**
baş müəllim
Azərbaycan Dövlət Pedaqoji Universiteti,
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
*E-mail: aslanovagulara@mail.ru*

# AZƏRBAYCAN BƏSTƏKARLARININ FORTEPİANO ÜÇÜN YAZILMIŞ ƏSƏRLƏRİNDƏ XALQ MUSİQİSİNDƏN İSTİFADƏ

***Açar sözlər:*** *xalq, mahnı, fortepiano, işləmə, folklor, toplu, forma*

Məqalədə Azərbaycan bəstəkarlarının Azərbaycan xalq melodiyalarindan fortepiano üçün mühtəlif klassik üslubda yazılmış əsərlərində: pyes, kiçik fortepiano miniatürləri, prelüdlər və başqalarında istifadədən bəhs olunur. Xalq musiqisinə has olan xüsusiyyətləri – bunlardan 6/8 ölçüsü, zərb alətlərinə bənzər müşaiyət, variasion forma və s.gorumaqla yanaşı, bəstəkarlarımızın geniş yaradıcı effektlərdəndə istifadəsi – melodiyanın polifonik üsullarla işləməsi, neoklassisizm, impressionizm cərəyanlara meillilik və s. məqalədə öz təzahürünü tapıb.

**Г.Ч.Асланова**

## ИСПОЛЬЗОВАНИЕ НАРОДНОЙ МУЗЫКИ В ФОРТЕПИАННЫХ ПРОИЗВЕДЕНИЯХ АЗЕРБАЙДЖАНСКИХ КОМПОЗИТОРОВ

***Ключевые слова:*** *народ, песня, фортепиано, обработка, фольклор, сборник, форма*

В статье говорится об использовании азербайджанскими композиторами азербайджанских народных мелодий в своих различных ,написанных в классическом стиле произведениях: пьесах, фортепианных миниатюрах, прелюдиях и других. Наряду с сохранением черт, присущих народной музыке, как – счет 6/8, сопровождение, подобное звучанию ударных инструментов, вариационная форма и т.д., широкое использование нашими композиторами творческих эффектов – полифонические способы развития мелодии, склонность к неоклассицизму, импрессионизму и др. также нашли свое отражение в статье.

**G.Ch.Aslanova**

## THE USE OF FOLK MUSIC IN THE PIANO WORKS OF AZERBAIJANI COMPOSERS

***Keywords:*** *people, song, piano, processing, folklore, collection, form*

The article talks about the use of Azerbaijani folk melodies by Azerbaijani composers in their various works written in the classical style: plays, piano miniatures, preludes and others. Along with the preservation of the features inherent in folk music, such as the 6/8 score, accompaniment similar to the sound of percussion instruments, variation form, etc., the widespread use of creative effects by our composers – polyphonic ways of developing a melody, a penchant for neoclassicism, impressionism and others are also reflected in the article.

Azərbaycan xalq mahnılarının toplanmasında, sistemə salınması işinin özülünü qoymaqda, milli folklorşünaslığın inkişafında böyük rolu var. Əsas məqsəd kimi həm xalq – mahnı repertuarının kütləvi yayılması, geniş auditoriyanın, dinləyicinin musiqi incəsənətinə yiyələnməsi, həm də xalqın musiqi sərvətinin gələcək nəsillərə çatdırmaq olub.

1927-ci ildə Üz.Hacıbəyov və M.Maqomayevin "Azərbaycan türk el nəğmələri" toplusu xalq mahılarının toplanmasına və nota salınmasına güclü təkan verildi.

Azərbaycan klassik musigisinin banisi Üz.Hacıbəyovun bəstəkar M.Maqomayevlə birgə müəllifliyi olan və 1927-ci ildə çapdan çıxan "Azərbaycan türk el nəğmələri" məcmuəsi xalq mahnılarının birinci yazılı nümunəsi sayılır. Toplu otuz üç mahnıdan ibarətdir, onlardan iyirmi ikisi fortepiano müşayəti ilə, işləmə formasında, on birinin isə təkcə melodiyası verilib. Üz.Hacıbəyov və M.Maqomayev öhdələrinə götürən işin mühümlüyünü dərk edərək, ən yaxşı ənənələrə istinad olaraq, yüksək estetik kriteriyaları məqsəd qoymuşlar.

Topluya tapılan mahnılardan, yalnız ən yaxşıları daxil edildi. Əsas musiqi və mətn mənbəsinə yanaşmada çox böyük ehtiyyat və hörmət görürük, onlar maksimal lakonik üslubda yazılıb, hətta Azərbaycan musiqisinin əsas xüsusiyyətləri olan melizmlardan da çox az istifadə olunub. Bununla, onlar improvizəni arxa plana çəkib, mahnıları bir növ əsasını, özəyini geniş kütlələrə çatdırmağı məqsədi güdürdü.

Məcmuənin üç mahnısı: "Bir quş düşdü havadan" (№11), "Yetim quzu" (№12) və "Çıxdı günəş" (№13) Üz.Hacıbəyovun bəstəsidir.

Toplu milli folkloristikamızda mühüm mərhələ sayıla bilər. Bu toplu bütün sonrakı bu sahədə olan işin təməlin qoymuş və ondan sonra aparılan

araşdırmaların, folklor toplanmasının, onun nota köçürülməsinin və işləməsi istiqamətdə bir növ örnək oldu. Burada Üz.Hacıbəyov özünün xalq yaradıcılığına, musiqili-poetik irsimizə olan hörmət və sevgisini melodiya və müşaətin çox böyük ehtiyyatla, onu dəyişmədən, çox lakonik üslubda nota köçürüb və harmonizə etməsi buna sübutdur. Mahnıların əksəriyyətinin fortepiano müşayiətilə yazılması, həvəskar dinləyiciləri bu alətə alışdırmağı da nəzərdə tuturdu.

Mahnıların əksəriyyəti üç saylı ölçüdə (3/4; 6/8) yazılıb. Bu da Azərbaycan musiqisinə ən çox məxsus olan ölçüdü. Bu əsasən şerlərin vəzni ilə bağlıdır və onlara uyğunlanıb. Onu da deməliyik ki, daha mürəkkəb 6/8 ölçüsü burada üstünlük təşkil edir.

Bu topluda ilk dəfə Azərbaycan mahnılarının stilistik xüsusiyyətlərində Azərbaycan muğamlarının rolu ortaya gətirilmişdir. Segah (mahnıların əksəriyyəti), Şüştər (13 mahnı), Bayatı-Şiraz (1 mahnı) – məhz bunların üzərində qurulan mahnılar əsasən ağır, orta və mülayim tempdə və təkcə 5 mahnı tez və 5 nisbətən tez tempdə ifa olunur. Mahnıların kütləvi dinləyicilərə yönəlməsi onların rahat tonallıqlarda yazılışı, müşayiətin və melodiyanın minimalist, lakonik üslubda yazılması, geniş auditoriyanın bu məcmuəyə diqqətini çəkmək məqsədilə edilib. Məcmuədəki folklor nümunələri ilk dəfə dünyada tanınan və qəbul edilən temperasiyada yazılmışdı və Azərbaycan folklorunun ilk fortepiano müşayiəti (harmonizə) edilən təcrübə sayıla bilər.

Böyük bəstəkarımız Üz.Hacıbəyov yazır: “El mahnılarımız bizim musiqi sərvətimiz və musiqi mənbəyimizdir. Fəqət biz hələ bu sərvət və mənbədən istifadə edə bilməmişik”. Öz publisist əsərlərində, məqalələrində Üz.Hacıbəyov el nəğmələrinə, el mahnılarına böyük yer verir, onların qorunub saxlanmasında nota alınmalarını, gələcək nəsillərə ötürməklə musiqi mədəniyyətimizin inkişafında böyük rolunu vurğulayırdı.

Üz. Hacıbəyov öz “El musiqisi haqqında” məqaləsində yazırdı: “El musiqi əsərlərinin təltif olunmasında, özgələr tərəfindən mənimsənilməsində həpsinin səbəbi el nəğmələrinin toplanması, notaya salınması və nəğmə şəklində həmişəlik saxlanmamasıdır. Əgər el nəğmələri notaya salınaraq toplansa və saxlansa, əlbəttə, heç kəs onu özünə çıxa bilməz. Və eyni zamanda o nəğmələr itib batmaz, tez unudulub məhv olmaz” (Üz.Hacıbəyov seçilmiş əsərləri, Bakı, “Yazıçı”, 1985. s.184)

1932-ci ildə xalq artisti Bülbülün rəhbərliyi altında açılan elmi-tədqiqat kabinetinin üzvləri respublika rayonlarınada Azərbaycan xalq musiqisi nümunələrinin yazısı məqsədi ilə bir sıra ekspedisiya aparmışlar. 1945-ci ildən estafet Azərbaycan Respublikasının Elmlər Akademiyasının nəzdindəki yaranan Memarlıq və İncəsənət İnstitutu təşkil olandan sonra, oradakı folkloristika şöbəsinə ötürülüb. Milli dinləyicinin dünya musiqi mədəniyyətinə

aktiv cəlb etməsində Avropa və rus məişətində ən çox yayılmasına görə fortepianodan geniş istifadə olunub

Avropa miqyasında XIX əsrin axırı XX əsrin əvvəlində üç böyük bəstəkar: Debüssi, Bartok və Stravinskinin fortepiano yaradıcılığının təsiri altında fortepiano alətinə yanaşmada yeni avropa stilindən fərqli tembr səslənməsi əldə edilmişdi. Fortpeiano işləmələrində Avropa və milli musiqi mədəniyyətinin sintezinin tapılması yollarının, bununda əsas faktoru olan harmoniya oldu, milliliyi itirmədən, ümumi, qeyrimilliliynən birləşərək, yeni milli fortepiano stilinin yaranmasına gətirib. Fortepiano pyesi janrı, mahnı materialına əsasılnaraq yeni mahnı-romans və ya romans-mahnı ("nəğməli romans") kimi janr yaranır. Bəstəkarlar əsər və işləmələrində milliliyindən avropa stilinə harmoniya vasitəsilə yaxınlaşmasına və uyğunlaşmasına aparan yolu öz seçimi etdilər. Avropa bəstəkarlarının təsiri altında Azərbaycan bəstəkarları milli musiqi folklorunun (mahnıların) fortepianonun klassik səslənməsindən yeni xalq-instrumental tembr modelinə üz tutdular. burada biz hətda fortepianonu xalq çalğı alətləri orkestrinə salmaq kimi spesifik, bir növ inqilabi qərarları görürük.

1927-ci ildə çap olunmuş "Azərbaycan Türk el nəğmələri" toplusu yeni milli fortepiano "folklor simasının" yaranmasında Ü.Hacıbəyov və M.Maqomayev düzgün istiqamət verdilər.

Mahnıların işlənmələri vasitəsilə müəlliflər iki məqsəd güdürdü:

Birinci – geniş musiqi sevənlər auditoriyası və professional sənətkarların pianizmə cəlb etməsi.

İkinci – musiqisinin xarakterini tam qoruyaraq və sözlərlə ehtiyatla davranaraq, bununla belə mahnının obrazının milli spesifikasını (səs idealı) vurğulamaq. Bu məqsədlə müəlliflər ilk olaraq xalq çalğı alətlərinin (saz, tütək, dəf, nağara və s.) səslənməsinə yaxın tembr analogiyalara əl atırlar. Folklorda olan spesifik harmoniya, melodik, ritmik xüsusiyyətləri mənbə tutaraq, onlar fortepiano fakturasının və harmonik yazısının yeniləşməsinin, milli "fortepiano obrazının" yaranmasının yolunu göstərmiş oldular. [4,s.36].

Azərbaycan xalq mahnısı əsasən birsəsli olduğundan burada müxtəlif melodik və ritmik xüsusiyyətlər böyük rol oynayır. Bədii ifadənin zənginliyi məhz melodiyada cəmləşib, xalq musiqisinin spesifik cəhətləri müxtəlif tərəflərdən özünü biruzə verir: melodik-intonasiya quruluşdarda, yazıldığı məqam quruluşunda (lad), metro-ritmik xüsusiyyətlərində, ifa tərzində. Azərbaycan xalq musiqisinin xarakterini (xasiyyətini) ən çox üzə çıxaran güclü cəhət şərq melodikasının təbiətindən gələn və ifaçının fantaziyasına geniş imkanlar yaradan improvisasionluqdur. Hər mahnıda "fortepiano obrazı" yaradılması özünəməxsus üsullarla realizə olunur. Mahnının xasiyyətindən asılı olaraq giriş lirik, oynaq, marş xarakterli, rəqsə bənzər ola bilir. Buna nail olmaq üçün müxtəlif üsullardan istifadə olunur: müşayətdə aşıq sənətinə yaxın milli

instrumentalizm, sazın tembrini yamsılayan paralel kvartalar ,milli nəfəs aləti tütəyin tembrinə bənzəmə və onunla birlikdə mahnıya girişdə orkestr koloriti yaradan tremolo. Və ya yenədə aşıq sənətinə yaxın oktavalar və xarakterik metroritmik formulu (6/8) və onun ritmik quruluşu "Səhər-səhər yaz çağı" hərəkətli halay mahnısında və s.

Fortepiano işləmələrində demək olar ki, əksər mahnılar homofon formada təqdim olunur,vokal partiyanı təkrarlayan melodiya və akkompanimenti. İstisna kimi mahnıdakı melodiyanın aşağı registrda təkrarlandığını misal gətirə bilərik. Mahnılarda həm də imitasion polifoniyanın elementlərindən də istifadə olunur. İmtasion polfoniya "duet" üslubu ilə yəni ki, səslərin təkrarlanması ilə zənginlənərək ikisəsli fakturanı 3 səsə qədər genişləndirməsi xallarına da rast gəlmək olur. Fakturanın zənginləşdirilməsində məhz bu üslub (ilkin olaraq Qlinka və b. geniş işlənilmiş), sonrakı müəlliflər üçün işləmələrin spesifik xüsusiyyətlərindən olacaq. [5, s.42].

Ostinat bas, instrumental (rəqs) folkloruna xas olan ostinat ritmik formulalardan mahnıların fakturasında istifadə olunur. İşləmələrin lad harmoniyası klassik sistema uyğunlaşdırılıb.

1927-ci ilin "Azərbaycan türk el nəğmələri" toplusu xalq musiqisinin toplanması, nota salınması və işləmə sahəsində birinci olaraq, bu işin təməlini qoymuş və sonrakı müəlliflərə bir növ örnək olaraq, yol göstəricisi funksiyasını daşıyır.

Fortepiano işləmələri janrı geniş kütlə üçün A.Zeynallının adı ilə bağlıdır. Onun "Uşaq suitası"ndan olan iki fortepiano miniatürü- "Uşaq və buz" və "Qoyunlar" təlim-pedaqoji xarakter daşıyır. Belə, "Uşaq və buz" miniatürində xalq mahnısını rəqs musiqisinə xas olan 6/8 ölçüsündə olan akkompanement müşayiət edir. Burada aksentlər vasitəsilə zərb aləti (nağara) və ya əl çalmağa bənzədilib. "Qoyunlar" mahnısında faktura melodiya və akkompanement olan başqa üstəlik daimə saxlanılan basların hesabına (balabanın funksiyasını görərək), bir növ üçsəslilik yaradır. fortepiano obrazının" yaranmasının yolunu göstərmiş oldular. [4,s.36].

Fortepiano üçün 1944-ci ildə H.Nemətov tərəfindən "Gül açdı" Azərbaycan xalq mahnısı əsasında yazılan kiçik (1səh.) pyesi bu qəbildən olan əsərlərin erkənlərindəndir. Pyes des-moll,3/4sayında,Allegretto tempində bəstələnib. Müşayiəti bir o gədər maraqlı olmayan əsər sadəcə bir təcrübə kimi dəyərləndirilə bilər.

1961-cı ildə M.Əhmədovun bəstələdiyi "İkisəsli polifonik pyesləri" (Azərbaycan xalq mahnıları əsasında) toplusu polifonik əsərlərdən ibarətdir. Bu pyeslərdə bəstəkar səsaltı, sərbəst imitasiya üsullarından istifadə edir.

F.Əmirovun "Sona xanım" mahnısının "Lirik mahnı" adı ilə edilən transkripsiyası gənc pianoçuların repertuarında yer alır. Bu pyesdə müəllif milli

musiqimizə xas olan variasion forma quruluşuna müraciət edir: mövzu-birinci bənd, variasiya –ikinci [3].

T.Quliyevin “İki prelüd”ündə ikinci prelüdun forması belədir: mövzu-birinci, variasiya –ikinci və üçüncü.

Bəstəkarlar E.Nəzirova, Ə.Abbasov, F.Quliyevanın və b. folklor üzərində işləmələri iki istiqamətdə inkişafın təzahürünü açıq – aydın nümayiş edir. Bir tərəfdən romantik (pedal) səsaparma (legato və s.) üslubu, o biri tərəfdən zərb-pedalsız üslub. Pianoçu və bəstəkar E.Nəzirovananın Azərbaycan xalq melodiyalarının fortepiano üçün iki dəftər işləmələri (1962-1963) məcmuəsi iki dəftərdə, 8 pyesdən dördü-romantik (pedal) və dördü-zərbi-pedalsızdır.

Bəstəkar S.İbrahimovanın “Azərbaycan xalq mahnı və təsnifləri mövzularında fortepiano üçün 15 pyes” məcmuəsini fortepiano pyesi janrında bəstələnən əsərlər arasında misal gətirə bilərik. İşləmə üçün seçilmiş bütün mahnılar mülayim və canlı tembrdə olduğundan, bəzi hallarda önə onların oynaq xarakteri çıxır. Mahnıların hamısı zərbi-rəngarəng fortepiano üslub formasında yazılıb.

Bu qəbildən olan əsərlərdən “Foretpiano üçün polifonik dəftər” F.Quliyevanın pyes toplusunu göstərə bilərik. Toplu yeddi qədim rəqsdən ibarət və barokko stilində (neoklassisizm) yazılıb. Burada sırf xalq mahnısı təkcə birinci pyesdə (“Preludiya”) olan və S.Rüstəmovun toplusundan əldə edilən “Bağçadan gələn səs”dir.  Pyesdə neoklassisizmin əsas əlamətləri milli xalq-professional düşüncə ilə sintezin müəllifin nailiyyətləri hesab oluna bilər.

Bəsətkar Z.Bağırovun ən son əsərlərindən olan və 1984-cü ildə yazılan “Fortepiano miniatürlər toplusu” dur. Toplu müxtəlif janrlarda yazılan 18 pyesdən ibarətdir, onlardan biri (13) “Qubanın ağ alması” xalq mahnısının işləməsidir. Xalq ənənəsinə uyğun olaraq, bəstəkar melodiyanı variasiya üslubunda işləyib. Mahnı 3 hissəli formada yazılıb və dörd müxtəlif həcmli və musiqi materialına müəllif tərəfindən sərbəst  yanaşması ilə seçilir.

Q.Qarayevin 1-ci dəftərdən olan 5 nömrəli prelüdiyanın melodik əsasını Ü.Hacıbəyov və M.Maqomayev toplusundan “Ninni (N1)” xalq mahnısı təşkil edib. Müəllif təkcə melodiyanı saxlayaraq, mahnını bir növ orijinal variantın sərbəst variasiyası kimi işləyib. Prelüd bir hissəli formaya malikdir və xalq melodiyasının strukturunun elementləri sərbəst yerdəyişməyə məruz qalır. Prelüdda fortepiano impressionizmin (Debussi) təsiri hiss olunur.

Məqalənin elmi yeniliyi və dəyəri Azərbaycan bəstəkarlarının özlərinin klassik formada yazılan əsərlərində, bunların arasında pyes,prelüdiya,fortepiano miniatürləri və s. mühtəlif janr və üslublardan istifadə edərək,klassik forma və janrların milli musiqi ilə bir növ sintez yaranıb. Məqalədə Azərbaycan xalq mahnilarının işləmələrindən nümunələr getirilib  və onların əsas xüsusiyyətləri təyin edilib, göstərilmişdir.

## ƏDƏBİYYAT


1. Hacıbəyov Ü. Azərbaycanda musiqi tərəqqisi.//"Maarif və mədəniyyət", 1926, №8, s.9
2. M.S.İsmayılov. Azərbaycan xalq musiqisinin janrları 100 s., İşıq., Bakı – 1984
3. Азербайджанские народные лирические песни (сост. Д.Мамедбеков) Изд.-во Музыка, Москва, 1965. 128 с. (124с.)
4. К.Касимов. «О первых записях азербайджанских народных песен» «ДАН» Азербайджанской ССР №10, 1939.
5. Həsənova A. Azərbaycan xalq məişət mahnılarına bir nəzər // Musiqi dünyası – 2007 - №3 – 4/33 səh.133-134.
6. Azərbaycan xalq musiqisi. Oçerklər. B., Elm, 1981, 198 s.
7. R.İsmayılzadə, Azərbaycan xalq mahnıları. 52 – 85 s.
8. Касимова С. «История азербайджанской музыки». Баку, Маариф, 1992, 335 с.
9. Hacıbəyov Ü. Azərbaycanda musiqi tərəqqisi // "Maarif və mədəniyyət", 1926, №8, s. 9


**Məqalənin redaksiyaya daxil olma tarixi: 01.05.2023**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.05.2023**
**Məqalənin çapa qəbul olunma tarixi: 01.06.2023**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru, dosent Nelli Abutidze**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №1, 2023, **s. 80-85**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №1, 2023, **с. 80-85**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №1, 2023, **pp. 80-85**

# MUSİQİ SƏNƏTİ

**UOT 7; 03: 78.07**

**Cəfərova Cəmilə Fuad qızı,**
konsertmeyster
Azərbaycan Dövlət Pedaqoji Universiteti,
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
*E-mail: t.jafarov134@mail.com*

## DÜNYA TƏCRÜBƏSİNDƏ VƏ AZƏRBAYCANDA KONSERTMEYSTERLİK SƏNƏTİNİN YARANMASI VƏ İNKİŞAFI

***Açar sözlər:*** *konsertmeyster sənəti, müşayiət texnikası, improvizasiya, pianoçu*

Məqalədə Avropada və Azərbaycanda konsertmeyster sənətinin yaranması və inkişafı yolları, həmçinin konsertmeysterlərin peşəkar hazırlığı məsələləri araşdırılır. Burada qeyd olunur ki, konseetmeyster sənəti ən primitiv unison özünə müşayiət formalarından yüksək peşəkar sənətə qədər uzun inkişaf yolu keçmişdir.

**Дж.Ф.Джафарова**

## ВОЗНИКНОВЕНИЕ И РАЗВИТИЕ КОНЦЕРМЕЙСТЕРСКОГО ИСКУССТВА В МИРОВОЙ ПРАКТИКЕ И АЗЕРБАЙДЖАНЕ

***Ключевые слова:*** *концертмейстер, техника аккомпанемента, импровизация, пианист*

В статье рассматриваются вопросы возникновения концертмейстерского искусства и профессиональной подготовки концертмейстеров в Европе и Азербайджане. Здесь отмечается, что концертмейстерское искусство прошло большой путь развития от примитивных форм унисонного аккомпанирования самому себе до высокого профессионального искусства.

**J.F.Jafarova**

## THE ORIGIN AND DEVELOPMENT OF CONCERNMEISTER ART IN WORLD PRACTICE AND AZERBAIJAN

***Keywords**: concertmaster, accompaniment technique, improvisation, pianist*

The article deals with the issues of the emergence of accompanist art and professional training of accompanists in Europe and Azerbaijan. It is noted here that the art of accompanist has come a long way from primitive forms of unison accompaniment to oneself to high professional art.

Konsertmeyster peşəsi çox uzun müddət ərzində formalaşıb. Qədim dövrlərdən bəri insanlar müxtəlif musiqi alətlərində (nəfəsli və zərb alətlərində) özlərini müşayiət edirdilər. Bunlar melodiyanı müşayiət etmək üçün istifadə edilən ən sadə müşayiətlər idi. Onlar melodiyanın bir oktava aşağı və ya yuxarı təkrarı idi. Qədim yunanlar müşayiət sənətinin daha yüksək səviyyəsinə nail olmuşlar. Musiqi sənətinin ən mühüm hissəsi vokal musiqisi idi ki, burada melodiya misranın poetik metrinə uyğun tərtib edilirdi. Qədim Yunanıstanı haqlı olaraq müasir xor və rəqs müşayiətinin anası adlandırmaq olar.

İnkişafın növbəti mərhələsi improvizasiya şəklində müşayiət olmuşdur. Y.B.Əkbəri "Müşayiət sənətinin tarixinə dair" dərs vəsaitində yazır: "Dəyişikliklər XIV əsrdə Fransadan gəldi. O dövrün dünyəvi musiqisində melodiya orta səslə (yaxud bir neçə səslə) müşayiət olunurdu və bir qayda olaraq hansısa musiqi alətində improvizasiya üsulu ilə ifa olunurdu. Bu müşayiətçi səs aparıcı səsi batırmamaq üçün melodiyadan fərqli istiqamətə getməli idi". (1, 19) Əvvəlcə improvizasiya elementlərindən xalq musiqiçiləri istifadə etmiş, onlar musiqi təfəkkürünün xalq mühitində qəbul edilmiş formalarına (intonasiya, ritmlərə) istinad etmiş, bununla da musiqini zənginləşdirir, yeniləşdirirdilər. Onların əsərləri şəhər musiqi mədəniyyətinə nüfuz etdi və artıq orta əsrlərdə improvizasiya Avropanın peşəkar musiqisində öz yerini tapdı.

Barokko dövründə müxtəlif növ klavişli (dilli) alətləri – virginal, harpsixord, klavesin meydana çıxmağa başladı. O dövrdə ifaçının əsas vəzifəsi müşayiət idi, lakin o, hələ ayrıca fəaliyyət növü deyil, klaviristin bacarıqlarının zəruri komponenti idi. İfaçılıq sənətinin əsasını improvizasiya təşkil etməyə başladı. Verilmiş mövzuya improvizasiya etməyi hər bir ifaçı bacarmalı idi. Əvvəlcədən düşünülmüş olmayan əsl improvizasiya ən çox dəyərləndirilirdi. Müşaiyət improvizasiyanın məcburi, mütləq növlərindən biri idi. Qeyd edək ki, ifaçının statusu bəstəkar statusundan qat-qat yüksək olub. Bəstəkarlar yalnız melodiya və bas partiyasını yazırdılar və daha konkret müəllif fikri üçün basın altından rəqəmləri göstərirdilər (hansı akkordlar və ya intervallar

götürülməlidir). Beləliklə musiqi materialının təqdimatının (yazılışının) qamofon-harmonik üslubu yaradıldı – melodiya aparıcı yer tutdu, bas isə musiqinin əsas bünövrəsinə çevrildi.

XVII-XVIII əsrlərdə improvizasiyanın virtuoz texnikası intensiv şəkildə inkişaf edirdi. Müşaiyət həm də improvizasiyanın özünəməxsus forması hesab olunurdu. Harpsixordda və ya klavesində ifa edən musiqiçi müəyyən qaydalara əməl etməli, mükəmməl səviyyədə kontrpunktu bilməli, həmçinin ansamblda musiqiçilərin ifasına dəstək olmalı idi. Belə bir musiqiçi "Maestro çembalo" adlanırdı. Məhz o, uzun müddət orkestrdə aparıcı mövqe tutmağa başlayır.

1600-cü ildə müxtəlif sənət növlərini özündə cəmləşdirən opera yarandı ki, burada rəhbər funksiyası musiqinin bütün məsələlərində (xor, orkestr, rəqs, aktyorluq) ekspert olan "Maestro cembalo"nun üzərinə düşür. Bu andan artıq müşayiətçi peşəsindən danışmaq olar. Opera sənəti ilə yanaşı, instrumental musiqi də inkişaf edir, əsasən skripka musiqisi. Korelli, Keraçini, Lokatelli klavesin müşayiəti ilə skripka üçün konsertlər və sonatalar yazırdılar. Dünya musiqi sənətinin inkişafına böyük töhfələr verən bəstəkarlardan biri də Jan Filip Ramo idi. Onun özü də virtuoz klavesin ifaçısı idi və müşayiət texnikasına xüsusi diqqət yetirirdi. O, bir neçə əsərini rəqəmləşdirilmiş basın açıqlanması texnikasına həsr etmişdir.

Musiqiçilər də ansambl ifaçılığına maraq göstərirdilər. Birinci tələb kimi ansamblda bir neçə aləti müşayiət etmək bacarığı çıxış edirdi. Xüsusilə ansambl ifasında genera-basda ifa təcrübəsi geniş vüsət almışdır. Rəqəmli və rəqəmsiz basın harmonizasiya sənətini öyrənmək musiqiçinin tərbiyəsinin ayrılmaz hissəsinə çevrilmişdir. 1717-ci ildə fransız bəstəkarı Fransua Kuperen "Klavsin çalma sənəti" əsərini yazdı. Bu işində o, mükəmməl ifaçılığa nail olmaq üçün bəzi tövsiyələr verir, həmçinin müşayiət sənəti barədə də danışır: "İnsan üçün yaxşı müşayiətçi olmaq bacarığından daha cəlbedici və bizi başqaları ilə yaxınlaşdıran başqa heç nə yoxdur".

Hər bir alətin özünəməxsusluğu konsertmeyster obrazına öz izlərini qoyur. Xor və solistin müşayiəti, teatr və kamera musiqisində iş – bütün bu yaradıcılıq sahələri müşayiətçinin bacarıq və imkanları ilə bağlı spesifik xüsusiyyətlərə malik idi. Polifoniya və hamofon-harmonik üslub, ariya və reçitativ, vokalçıya və ya alətlər ansamblına müşayiət müxtəlif "çaları" və bacarıqları tələb edirdi. Musiqiçi ifaçılıq və bəstəkarlıq sənətini öyrənmək üçün əsaslı və ciddi məktəb keçməli idi.

Konsertmeyster sənətinin inkişafının növbəti mərhələsini piano alətinin yaranmasını hesab etmək olar. Bir çox musiqiçilər pianonu ən yaxşı müşayiət aləti hesab edirdilər. Müşayiətli klavir əsərləri (sonatalar, divertisementlər, duetlər, triolar və s.) müəyyən bir dövrdə Avropada kamera musiqisinin dəbli çeşidinə çevrildi. İndi klavirist-konsertmeysterdən "yad" kimi qəbul ediləni "özünkü" kimi hiss etmək tələb olunur. Bəstəkarlar özləri əsərlərində müşayiəti

yazmağa başlayırlar.

XVIII əsrin sonu XIX-cu əsrin əvvəllərində romans sənəti inkişaf etməyə başlayır. F.Şubertin yaradıcılığı yeni yüksək pianoçuluq standartlarını müəyyən edir. O, fortepiano müşayiətçisini ikinci dərəcəli ifaşıdan tam bərabər partnyor səviyyəsinə yüksəldmiş və inkişaf etdirmişdir. Belə müşayiətçi qəhrəmanların psixoloji obrazlarının açılmasında artıq aparıcı rol oynayıb. (1; 61). Piano partiyası bədii obrazın bir hissəsinə çevrilir. Bu zaman pullu konsertlər populyarlaşır ki, bunlar konsertmeystersiz həyata keçirilə bilməzdi.

XIX-XX əsrlərin kəsişməsində konsertmeyster peşəsi ayrıca bir peşəyə çevrilir, görkəmli musiqiçilər həm solo ifa təcrübəsini, həm də konsertmeysterliyi birləşdirdilər. Bu sahədə metodiki ədəbiyyat meydana çıxır: V.Hikkinin "Forte-piano müşayiəti" (1925, London), R.Hartmanın "Konsertmeyster işi" (1934, Berlin), C.Murun "Müğənni və müşayiətçi" (1953, London).

Rusiyada da müşayiət sənətinin formalaşması bir neçə mərhələdə baş verib. Birinci mərhələ vokal musiqisinin inkişafı ilə bağlıdır. Bu dövrdə (XVII-XVIII əsrlər) çox sayda musiqisevərlər və peşəkar bəstəkarlar, çoxlu peşəkar və həvəskar teatrlar meydana çıxır. Rus müşayiəti sənətinin möhkəm əsasını F.Araya, S.Deqtyaröv, V.Paşkeviç, D.Bortnyanski, E.Fomin, F.Saroti, K.Kavos qoymuşlar. Eyni zamanda, həvəskarların təşkil etdiyi ev musiqi məşğuliyyəti də inkişaf edirdi. Duetlər, ansambllar yaranırdı ki, hər istəyən onlarda müşayiətçi ola bilərdi. (1; 91). Əvvəlcə konsertmeysterlər əcnəbilər və ya musiqi hazırlığı yüksək səviyyədə olan rus həvəskarları idi. Bir çox rus bəstəkarları əla konsertmeysterlər idi və opera teatrında müğənnilərlə işləyirdilər.

XIX əsrin ortalarından XX əsrin əvvəllərinə qədər müşayiətin rolu ansamblın bərabər hüquqlu tərəfdaşı səviyyəsinə yüksəldi. Bu dövrü "rus romansı əsri" adlandırmaq olar. Romanslarda fortepiano partiyası daha da mürəkkəbləşir və fon səslənmə çərçivəsindən kənara çıxır. Burada biz M.Qlinkanın fəaliyyətini qeyd etməliyik. M.İ.Qlinka həyatının əhəmiyyətli hissəsini salonlarda keçirirdi, burada onun müşayiətçi bacarıqları da təkmilləşirdi. Konsertmeyster kimi o, özü partiyaları gələcək ifaçıları ilə hazırlayır, təkcə musiqi mətninə deyil, həm də səsin quruluşuna, frazirovkasına (ifadəsinə) fikir verirdi. (2, 11-13)

Konsertmeysterlik sənətinin inkişafda mühüm mərhələ M.Mussorgskinin yaradıcılığı olmuşdur. Onun əsərlərindəki fortepiano partiyası ikinci obrazlı plan yaradır, səs partiyasında yaradılan obrazı dərinləşdirir və zənginləşdirir. Qeyd edək ki, M.Musorqskinin özü əla müşayiətçi olub, onun müğənni D.Leonova ilə yaradıcılıq birliyi uzun müddət davam etmişdir.

1867-ci ildə A.Rubinşteyn Sankt-Peterburq Konservatoriyasında birgə ifaçılıq vərdişlərini təkmilləşdirmək üçün xüsusi siniflər açmağı təklif etdi (indiki dövrdə vəzifələrinə görə yaxın olan "kamera ansamblı" fənni). Bütün

bu müddət ərzində müşayiətçilər müstəqil şəkildə müşayiət sənətinə yiyələnməyin yollarını axtarırdılar. Bu işdə pianoçu-bəstəkarlar mühüm rol oynamışlar. Misal kimi S.Raxmaninov və F.Şalyapin, N.Metner və K.Şvarzkopf arasında əməkdaşlığın parlaq nümunələrini göstərmək olar.

XX əsrin birinci yarısında musiqi texnikumlarının və konservatoriyaların fortepiano fakültələrinin proqramına xüsusi müşayiət kursları (fakultativ) daxil edilmişdir. Lakin çox vaxt ən təcrübəli və populyar peşəkar müşayiətçilər bir növ köməkçilərini (assistentləri) işə cəlb edir, onlara məsləhətləri ilə kömək edib daha az məsuliyyətli çıxışlar verirdilər. Əsasən, yeni başlayanların təcrübəsi empirik şəkildə əldə olunurdu ki, lazımi konsertçeyster bacarıqları inkişaf etsin. Buna görə təhsil ocaqlarını bitirənlərin içindən çox vaxt peşəkar müşayiətçilər çıxımırdı.

XX əsrin 30-cu illərində “konsertmeyster sinfi” məcburi bir fənn oldu. Demək olar ki, bu dövrdən başlayaraq pianoçunun peşəkar fəaliyyəti iki sahəyə bölünür: fortepiano və konsertmeysterlik.

Azərbaycanda konsertmeysterlik ustalığı kafedrsının yaranması tarixi Azərbaycan Dövlət konservatoriyasında (indiki Bakı Musiqi Akademiyası) Qeorgi Şaroyevin rəhbərliyi ilə 1937-ci ildə “müşayiət sinfi” fənninin yaradılmasından başlayır. G.G.Şaroyev ADK-da 27-ci ildən başlayaraq 25 il kafedra müdiri kimi çalışıb. Bu illərdə fortepiano kafedrasında istedadlı müəllimlər pedaqoji fəaliyyət aparırdı, onlar həmçinin konsertmeyster fəaliyyətini də həyata keçiriblər. Onların sırasında T.Sedankina və L.Umanskaya kimi istedadlı pianoçular müxtəlif ansambllarda və solo ifaçılar ilə müşayiətçi qismində iştirak ediblər. G.Şaroyevin özü təhsilini əvvəl Moskvada (V.İ.Safononvun sinfində), sonra isə Peterburq konservatoriyasında (A.N.Yesipovaın sinfində) almışdı. Burada o, opera teatrının solisti İoakim Tartakovla tanış olur və A.Rubinşteynin “Demon” operasından Demonun partiyası üzərində bu müğənni ilə işləmişdi. “Şaroyevin xatirələrinə görə o, muşayiətci qismində Tartakovla dəfələrlə birgə konsertlərdə cıxış etmişdir” (4, 57.). Ümumiyyətlə, o, hesab edirdi ki, istənilən solist-pianoçunun ustalığının formalaşması baxımdan konsertmeysterlik fəaliyyəti çox faydalıdır.

XX əsrin 30-60-cı illərdə konsertmeyster sinfinin inkişafında olduqca byük ixtisaslaşmış müəllimlərin sayı sürətlə artmağa başlayır. Bu dövrdə tanınmış Azərbaycan konsertmeysterlərindən biri Vladimir Kozlov, Azərbaycan Respublikasının xalq artisitləri M.Brener, R.Atakişiyev, A.Zülfüqarova, C.Muradova, E.Safarova və b. pedaqoji fəaliyyətə başlayır və bununla yanaşı müxtəlif ansambllarda müşayiətçi kimi də çıxış edirlər.

Nəhayət, 1971-ci ildə E.Əsgərovanın rəhbərliyi ilə “konsertmeysterlik ustalığı” kafedrası yaranır. Bununla əlaqədar gələcək praktiki fəaliyyətində daha yüksək peşəkarlıq səviyyəsində tələbələrin hazırlanması üçün imkan verən konsertmeysterliyin tədrisinə dair yeni proqramlar təstiq olunur.

1996-cı ildən başlayaraq "konsertmeysterli ustalığı" kafedrasına Azərbaycan Respublikası Əməkdar incəsənət xadimi, professor N.İbrahimova rəhbərlik etməyə başlayır. Bu illərdə kafedrada çoxlu sayda yeniliklər həyata keçirilmişdir. Konsertmeyster sənətinin Azərbaycanda inkişafı sahəsində N.İbrahimovanın "Tələbələr arasında ən yaxşı konsertmeyster" adlı I Respublika müsabiqəsinin təklifi, təşkili və keçirilməsində çox böyük rolu olmuşdur.

2010-cu ildən "konsertmeysterli ustalığı" kafedrasına Azərbaycan Respublikası Əməkdar müəllimi, professor L.Abasquliyeva rəhbərlik edir. O, kafedranın ənənələrini davam etdirərək, konsertmeyster ifaçılığı sahəsində tələbələrlə böyük iş aparır, xüsusilə transpozisiya və notu üzdən oxuma bacarıq və vərdişlərinin inkişafına əhəmiyyətli yer verir.

2020-ci ildən kafedraya professor G.Acalova rəhbərlik edir. Hal hazırda "konsertmeysterli ustalığı" kafedrasında yüksək peşəkarlığı ilə seçilən kollektiv çalışır. Bunların arasında T.Bədirxanov, Q.Məmmədyarova, K.Sadırxanova və başqalarının adlarını çəkmək olar.

Müasir dövrdə Azərbaycanın peşəkar konsertmeysterləri bu sahə ilə bağlı ən yaxşı ənənələri inkişaf etdirərək bu sənəti nəinki vətənində, eləcə də onun hüdudlarından kənarda nümayiş etdirərək, gələcək nəslin konsertmeyster-pianoçuları qarşısında təbliğ edirlər.

## ƏDƏBİYYAT


1. Акбари Ю.Б. К истории искусства аккомпанемента: учеб.пособие. – 2-е изд. / Владимир: Изд-во ВлГУ, 2012, 116 s
2. Алексеев А.Д. Из истории фортепианной педагогики: хрестоматия / Киев: Издательство «МузичнаУкраїна», 1974
3. M.Dadaşova. Musiqi müəlliminin hazırlığının metodikası. Bakı, 2010
4. T. Seyidov. XX əsrin Azərbaycan fortepiano mədəniyyəti. Bakı: Təhsil, 2016, 336 s.
5. Куперен Ф. Искусство игры на клавесине // пер. с фр. О.В. Михнюк. Москва: Планета музыки, 2021



**Məqalənin redaksiyaya daxil olma tarixi: 01.05.2023**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.05.2023**
**Məqalənin çapa qəbul olunma tarixi: 01.06.2023**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**sənətşünaslıq doktoru, professor Ülkər Əliyeva**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 78**

**Rüfət Ramazanov**
aparıcı elmi işçi, bəstəkar,
Azərbaycan Bəstəkarlar və
Kinematoqrafçılar İttifaqının üzvü,
Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası,
AZ 1014, Bakı ş., Ş.Bədəlbəyli küçəsi, 98
*E-mail: rufatcomposer25@gmail.com*

# MÜASİR MUSİQİNİN TƏHLİLİNƏ DAİR ELMİ-NƏZƏRİ MÜLAHİZƏLƏR

***Açar sözlər:*** *musiqi, təhlil, bəstəkar, nəzəriyyə, əsər*

Məqalə Azərbaycan bəstəkarlarının yaradıcılığında qələmə alınmış müasir musiqinin təhlilində özünü göstərən bəzi elmi-nəzəri xüsusiyyətlərə həsr olunmuşdur. Burada müasir musiqinin quruluşunda bəlli olan bəzi xarakterik cəhətlər, eyni zamanda, bəstəkarlıq texnikasının istifadəsinə əsaslanan əsərlərin düzgün təhlili və araşdırılması başlıca tədqiqat obyektidir. Müasir musiqinin təhlili, eyni zamanda, bir neçə elm sahəsinin müdaxiləsi ilə araşdırılması sübuta yetirilmişdir. Burada, ilk növbədə fəlsəfənin də rolu əvəzolunmazdır. Araşdırılma prosesində Azərbaycan bəstəkarlarının bəzi əsərlərindən sitatlarlar verilmiş və üzərində təhlilin düzgün aparılması, nümunə kimi göstərilmişdir.

**Elmi yeniliyi:** Məqalədə ilk dəfə müasir musiqinin araşdırılması və eyni zamanda, düzgün təhlili haqqında bəzi elmi-nəzəri mülahizələr qələmə alınmışdır. Müasir bəstəkarlıq texnikaları və yeni yazı üsullarının istifadəsi ilə yazılmış əsərlərin araşdırılmasında özünü göstərən bəzi xüsusiyyətlər, burada təhlilin artıq yeni istiqamətlərini sübuta yetirir. Bu da, müasir musiqinin təhlili prosesinin həm musiqişünaslıq və eyni zamanda, fəlsəfi-estetik baxımndan araşdırılmasınında bəzi tələbləri qarşıya qoyur.

**Р.Рамазанов**

## НАУЧНО-ТЕОРЕТИЧЕСКИЕ РАССМОТРЕНИЯ ПО АНАЛИЗУ СОВРЕМЕННОЙ МУЗЫКИ

***Ключевые слова:*** *музыка, анализ, композитор, теория, произведение*

Статья посвящена некоторым научно-теоретическим особенностям, которые проявляются при анализе современной музыки, написанной в произведениях азербайджанских композиторов. Здесь некоторые

характерные черты, которые проявляются в структуре современной музыки, в то же время, правильный анализ и исследование произведений на основе использования композиционных приемов являются основным объектом исследования. Анализ современной музыки также оказался междисциплинарным исследованием нескольких дисциплин. Здесь, прежде всего, незаменима роль философии. В процессе исследования были приведены цитаты из некоторых произведений азербайджанских композиторов и показан правильный анализ в качестве примера.

Научная новизна: Впервые в статье написаны некоторые научно-теоретические соображения по поводу изучения современной музыки и в то же время ее правильного анализа. Некоторые особенности, проявляющиеся при изучении произведений, написанных с применением современных композиционных приемов и новых приемов письма, уже здесь обосновывают новые направления анализа. Это предъявляет определенные требования к процессу анализа современной музыки как с музыковедческой, так и с философско-эстетической точек зрения.

**R.Ramazanov**

## SCIENTIFIC THEORETICAL CONSIDERATIONS ON THE ANALYSIS OF MODERN MUSIC

***Keywords:*** *music, analysis, composer, theory, work*

The article is devoted to some scientific and theoretical features that appear in the analysis of modern music written in the works of Azerbaijani composers. Here are some of the characteristic features that appear in the structure of modern music, at the same time, the correct analysis and study of works based on the use of compositional techniques are the main object of study.

The analysis of contemporary music has also proven to be an interdisciplinary study of several disciplines. Here, first of all, the role of philosophy is indispensable. In the course of the study, quotations from some works of Azerbaijani composers were given and the correct analysis was shown as an example.

***Scientific novelty:*** For the first time in the article, some scientific and theoretical considerations are written about the study of modern music and at the same time its correct analysis. Some of the features that manifest themselves in the study of works written with the use of modern compositional techniques and new writing techniques already here substantiate new directions of analysis. This imposes certain requirements on the process of analyzing contemporary music, both from the musicological and philosophical and aesthetic points of view.

Müasir dövrümüzdə yaranan incəsənət əsərləri, özünün intellektual ifadəsi ilə, iyirmi birinci əsrin tələblərinə uyğun olmaqla, daha mürəkkəb quruluşa malikdir. İncəsənətin hər sahəsindən nümunə göstərməklə qeyd etmək olar ki, onun ilk-başlanğıc, klassik nümunələri, məhz dini mövzulara əsaslanaraq, insanın inanc və təriqətlərini ifadə etməklə interpritasiya olunmuşdur. Buna nümunə olaraq, təsviri incəsənətdə, rəssamlığın, heykəltəraşlığın əsas və aparıcı mövzuları, məhz dini epizodlara (Bibliyaya əsaslanaraq) müraciətində xarakterik xüsusiyyətə malikdir. Bu baxımdan, Leonardo da Vinçi, Tisian, Renuar və başqa dünya şöhrətli rəssamların əsərlərini xüsusilə nümunə göstərmək olar. Teatr sahəsində də, qədim Yunan mifologiyasına əsaslanaraq teatrlaşdırılmış epizodlar bu sənətin yaranması və inkişafında aparıcı rola malikdir.

Musiqinin də, Avropa-klassik janrlarında ilkin ifadə nümunələri, məhz kilsə ənənəsində özünü göstərən dini ayin və mərasimlərin müşayiətində olduqca böyük rol oynaması məlumdur.

Azərbaycan mədəniyyətində də, bir müsəlman ölkəsi kimi, bu proses məhz dini mövzular, ibadətlər əsasında yaranaraq, özünün ilk nümunələrini bərqərar etmişdir. Teatr sahəsində, mədəniyyət tariximizdən məlum olan "Şəbihlər" buna parlaq sübutdur. Bu mövzu əsasında "Azərbaycan musiqi tarixi" (I cild) kitabında yazılmışdır: - "Bu dövrdə, Azərbaycanda digər teatrlaşdırılmış dini tamaşalardan "Təziyə" misteriyalarını və "Şəbeh" dramlarını göstərmək olar." [1, s.19] Məhz şəbeh tamaşalarında ifadə olunan dini motivləv musiqinin müşaiyəti əsasında icra olunmuş və dövrün ziyalı təbəqəsi qarşısında göstərilmişdir.

Musiqinin ilk səslənməsi də, məhz dini ayinlərin icrası ilə ifadə olunması məlumdur."O dövrdə islam tərəfindən iki oxuma üsulu təsdiqlənmişdir. Bu ən əvvəl məsçidin minarəsindən azançının verdiyi azan idi. Azan gündə beş dəfə səslənirdi və camaatı namaza dəvət edirdi." [2, s.8] İstər Avropa mədəniyyətində, istər Şərq mədəniyyətində həmin incəsənət nümunələri, dövrünün insanları tərəfindən böyük rəğbət və dərin hörmət hissi ilə qarşılanmışdır. Ancaq qeyd etmək lazımdır ki, o dövrün insanları öz zamanında yaranmış incəsənət nümunələrini də, eynimənalı şəkildə dərk edib qəbul edə bilməmişlər.Bəzi hallarda, musiqinin dini mərasim əsasında səslənərək nümayiş olunması, o dövrün dinləyicisi və ya tamaşaçısı tərəfindən tanınması, onun məmuniyyətlə qəbul edilməsinə dəlalət etmişdir.

Müasir dövrümüzdə də, yaranmış bəzi incəsənət əsərləri, bu günün dinləyicisi və tamaşaçısı qarşısında müəyyən sədd yaratmışdır ki, bu da, onun düzgün dərk olunması və onun müqabilində qəbul olub-olunmaması haqda müəyyən təzadlı fikirləri yaratmaqdadır. Əlbəttə, müasir dövrümüzün dinləyici və tamaşaçısı intellekt cəhətdən yüksək səviyyəli, dünyagörüşü baxımından olduqca zəngin bir şəxsdir. Amma, qeyd etmək lazımdır ki, müasir dövrün incəsənət nümunələri də, xüsusi hazırlıq, mütaliyə səviyyəsi və zövq tələb edir. Məhz bu baxımdan, yaradıcı insanlarla xalq arasında müəyyən ziddiyyətlər və

anlaşılmazlıqlar yaranmaqdadır.

Müasir incəsənətin bu günü, “kölgələr” teatrı, “Pantomim” oyunu, bir aktyorun ifasında mono-teatr, musiqi sahəsində - müasir tərkibli (qeyri-ənənəvi instrumental qrup) üçün musiqi, hazırlanmış fortepiano, sonorika səslənməsi əsasında və s. əsərlər dövrümüzün aktual tələblərinə dəlalət edir. Məhz bu xüsusiyyət, müasir musiqinin auditoriyasını, ancaq professional musiqiçilərdən ibarət olaması ilə qənaətləndirir. Ancaq, cəmiyyətimizdə müxtəlif sahələrə aid olan yüksək səviyyəli, savadlı mütəxəssislər mövcuddur ki, onların maraq dairələri bu musiqini (həmçinin digər incəsənət sahələrini) dərk edib qavranılmasında bir qədər çətinlik çəkirlər. Bəzən, bəstəkarların əsərlərində, onun konseptual əsasında müəyyən yaradıcı tapıntılar və yeniliklərin mövcudluğu, dinləyicidə bəzi suallar yaradır ki, bu da, ancaq xüsusi hazırlığı olmamasına dəlalət edir. Bu problem ətrafında, görkəmli Alman filosofu Artur Şopenqauer belə söyləmişdir. – “ Bəzən mən insanlarla, kiçik yaşlı uşağın öz gəlinciyi ilə danışdığı kimi ünsiyyət qururam. Uşaq başa düşür ki, gəlincik onu anlamır. Ancaq o, bu ünsiyyətdən zövq alır.” [3, s.11] Müasir bəstəkarların öz əsərləri ilə çıxış etməsi, məhz bu kimi münasibətin yaranmasına bənzəyir. Bu baxımdan, müasir musiqinin düzgün anlaşılıb, dərk olunmasında müəyyən bir germenevtik problem meydana çıxmışdır ki, bu da, müasir musiqişünaslığın və eyni zamanda, musiqi tənqidinin bir qədər çətinliklərlə qarşılaşmasına gətirib çıxarmışdır. Bəstəkar öz əsəri, ideyası üzərində azaddır. O, bir azad, yaradıcı insan kimi, öz fikirləri ilə tam sərbəst və müstəqildir. Bəzən, yaradıcı insanlar, həmçinin bəstəkarlar öz əsərləri üzərində “kodlaşan” müəyyən ideyalarla bölüşmür və onları açıqlamır. Bu missiyanı, yalnız musiqişünasların öhdəsinə buraxır. Musiqişünas-alimlər bir çox müasir musiqi əsərləri əsasında yaddaqalan böyük elmi araşdırma və tədqiqatların qələmə alınması ilə musiqi tarixinə öz imzalarını atmışlar. Amma, digər tərəfdən, hər bir musiqişünas-alim öz tədqiqatında özünün individual elmi araşdırmasını yaradır ki, bu da, onun şəxsi fikir və ideyalarını ifadə edir. Bu baxımdan, görkəmli Hind filosofu Oşo Radjnişin bəzi fikirləri maraq doğurur:

- “ Əql bilə bilməz, əql ancaq nəzəriyyələşdirməyi bacarır. O, sözlərlə “oynayaraq” onu çox çevik şəkildə işlədir. Ancaq, bütün bunlar interpritasiyadır, real deyil.” [4, s. 126] Bu fikrə əsaslanaraq, qeyd etmək olar ki, bəstəkarın əsərində “kodlaşan” əsl yaradıcı həqiqət, musiqinin ideyası üzərində “gizlənməkdədir”. Elmi təhlil, yüksək dərəcədə yerinə yetirilsə də, müəllifin əsər əsasında konseptual ideyası, ancaq bəstəkarın öz “xətti” üzərində mövcud olur.

Müasir musiqinin təhlili, olduqca mürəkkəb və xüsusi elmi hazırlıq tələb edən bir prosesdir. Burada, qeyd etdiyimiz kimi, xüsusi hazırlıq, müasir musiqini dünya səviyyəsində bilmək, dinləmək bacarığı və eyni zamanda, geniş mütaliyə tələb olunur. Qeyd etmək lazımdır ki, bu kimi elmi təhlil əsasında paralel olaraq bir sıra elm sahəsinin də istifadəsi vacibdir. Yəni, burada təkcə musiqinin elmi mahiyyətindən başqa, fəlsəfənin. psixologiyanın, riyaziyyatın və nəhayət tarix kimi

elm sahələrinin müdaxiləsi vacibdir. Müasir incəsənətin tədqiqat prinsipi, qoyulmuş problemin həllində, onun əsas mahiyyətinin hərtərəfli təhlili əsasında araşdırılması zamanın tələbidir. Çünki, yaradıcılıq, özünün elmi mahiyyəti baxımından birtərəfli və məhdud olaraq araşdırıla bilməz.

Müasir dövrümüzdə incəsənətin bir sıra maraqlı nümunələri yaranmışdır ki, bu demək olar onun tabe olduğu janrın məntiqi çərçivəsindən çıxaraq,yeni bir məcrada özünü göstərmişdir. Məsələn, məşhur bəstəkar Ştokhauzen müəllifi olduğu "Qruppen" simfonik əsəri, eyni zamanda üç orkestrin ifası üçün nəzərdə tutulmuşdur ki, burada üç dirijorun ifası, (eyni vaxtda) bu janrın qeyri-adi yozumunu özündə sübuta yetirir. Bu fakt, məşhur fransız rəssamı Dübüfenin sözlərini bir daha yada salır: - " Mən rəngkarlıq əsərini o məqamda sevirəm ki, o artıq rəngkarlıq deyil." [5, s.356] Bununla, müasir bəstəkar yaradıcılığına məxsus olan əsərlərin təhlili, tədqiqatçılar qarşısında bəzi çətinliklərin yaranmasına səbəb olur. Belə əsərlərin təhlilində müəyyən yanaşma tərzi mövcuddur ki, bu da, musiqişünasların araşdırmasında bir növ istiqamətləndirici rol oynayır. Burada müəyyən təhlil qanunauyğunluğunu yaratmaq lazımdır ki, bu da, hazırki tədqiqatın əsas elmi məqsədini daşıyır. Qeyd etmək lazımdır ki, musiqişünas-tədqiqatçı əsərin müəllifi kimi yaradıcı insan olmaqla, bu pörosesə tam individual yanaşır. Hər bir musiqişünasın təhlili, bilavasitə onun bilik və təcrübəsi, eyni zamanda, onun mütaliyə səviyyəsi çərçivəsində özünü göstərir. Bununla, təhlilin bəzi vacib məqamlarını ardıcıl şəkildə qeyd olunmasını labüd hesab edirəm:

**1.** Musiqi əsərinin əsas təhlil obyekti kimi, onun <u>proqramlılıq</u> xüsusiyyətinə diqqət yetirmək lazımdır. Çünki, əsərin proqramı və ya onun istinad etdiyi əsas obraz xüsusiyyəti, musiqi əsərinin başlıca mahiyyətini təşkil edir. Əsərin proqramlılıq xüsusiyyətini müəyyənləşdirilməsi, artıq onun məqsəd və vəzifəsini, eyni zamanda, müəllifin ideya və konsepsiya quruluşunu büruzə verir ki, bu da, əsərin yazılmasının başlıca prinsiplərini qarşıya qoyur.

**2.** Digər təhlil prinsiplərindən biri də, əsərin <u>forma-quruluş</u> xüsusiyyətidir. Artıq əvvəlki elmi məqalədə qeyd etmişdik ki, müəyyən forma və konkret quruluşa malik olmayan əsər yoxdur. Hər bir əsər, mütləq müəyyən forma və quruluşa malikdir. Yaradıcı praktikama əsaslanaraq, qeyd edə bilərəm ki, əgər bəstəkar üzərində çalışdığı əsərin necə başlayıb və necə tamamlandığını öncədən bilirsə, deməli artıq musiqi əsəri mövcuddur. Başqa sözlə desək, əsərin bir yaradıcı ideya kimi cizgiləri artıq qurulmuşdur. Çünki, müəllifin ideyası əsasında ən başlıca, vacib prinsip, əsərin kompozisiya çərçivəsinin öz cizgilərini yaratmasıdır.

**3.** Növbəti təhlil obyekti, əsərin *əsas mövzusunun* üzərində müəyyənləşmişdir. Bu, olduqca mürəkkəb bir təhlil olmaqla, özündə bir neçə xüsusiyyətləri müəyyən etməlidir. Əsas məvzu, başqa sözlə desək, musiqi əsərinin əsas-aparıcı tematik nümunəsi, onun başlıca ideya-məqsədini ifadə edir. Əsərin əsas mövzusunun təhlili ilə paralel olaraq, musiqinin instrumental həlli, yəni orkestrləşməsini də, araşdırmaq lazımdır. Çünki, musiqi nümunəsi bu və ya digər

alətin, başqa sözlə desək, alərlər qrupunun müştərək səslənməsi ilə özünün dramaturji ifadəsini yaradır. Müasir musiqi əsərlərinin təhlili bir daha göstərir ki, əsas mövzu, müəllifin təxəyyülünə uyğun olaraq, klassik yozumda deyil, müasir quruluşa malik olur ki, bu da, ənənəvi stereotiplərdən kənar bir yozumda qələmə alınır. Bu baxımdan, həmin mövzu tədqiqatçı tərəfindən düzgün təhlil olunmalı və musiqi nümunəsinə elmi qiymət verilməlidir. Əsərdə əsas mövzunun düzgün təhlili, onun inkişafında işləmə prinsipini də qeyd edib, onun hansı bəstəkarlıq yozumu ilə həllini müəyyən edəcək. Nəzərə almaq lazımdır ki, "işləmə" mövzusu, adətən əsas mövzunun melodik nümunəsi əsasında öz həllini tapır. Burada, müəllifin yaradıcı fantaziyası, zövq və biliyi olduqca böyük rol oynayır.

Müasir musiqinin təhlili, əsərlərin yazılmasının vacib olduğu qədər mühüm və əhəmiyyətli olmaqla yanaşı, bəstəkar yaradıcılığının inkişafı üçün də, böyük rola malikdir.

## ƏDƏBİYYAT


1. Azərbaycan musiqi tarixi. I cild. Bakı. Şərq-Qərb, 2012, s.19, 592 s.
2. Yenə orada. s. 8.
3. Шопенгауэр А. Мир как воля и представление. М., Московский клуб, 1992, с. 11, 395 с.
4. Ошо Раджниш. Когда ботинки впору. М., Нирвана, 2000, с.126, 399 с.
5. Лифшиц М. Мифология древняя и современная. М., Искусство, 1980, с. 356, 582 с.



**Məqalənin redaksiyaya daxil olma tarixi: 01.05.2023**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.05.2023**
**Məqalənin çapa qəbul olunma tarixi: 01.06.2023**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**sənətşünaslıq doktoru, professor Nailə Rəhimbəyli**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

# KULTUROLOGİYA

**UOT 008**

**Zemfira Kəlpəli qızı Abdullayeva,**
sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor,
Azərbaycan Respublikası Əməkdar müəllimi
Azərbaycan Dövlət Pedaqoji Universiteti,
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
*E-mail: zemfira_abdullayeva@yahoo.com*

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN MƏDƏNİYYƏTİ

***Açar sözlər:*** *mədəniyyət, incəsənət, yaradıcılıq, inkişaf*

Məqalə Heydər Əliyevin milli mədəniyyət və incəsənətin inkişafındakı roluna həsr olunub. Milli mədəniyyətin, Azərbaycan musiqisinin, teatrının, kinematoqrafiyasının, təsviri incəsənətinin müasir yüksək inkişafı ulu öndərin dəyərli ideyaları sayəsində mümkün olub və dünya miqyasında şöhrət qazanıb.

Heydər Əliyev səriştəli bilici idi, yaradıcılığın incəliklərinə bələd idi və dərk edirdi ki, incəsənət kütləvi estetik tərbiyənin əsas silahıdır. O, Azərbaycan mədəniyyət xadimlərinin xidmətlərini yüksək qiymətləndirir, daim onlara qayğı ilə yanaşırdı. Məhz onun dövründə bir çox mədəniyyət xadimləri fəxri ad və ordenlər almış, dünya səhnəsinə çıxmışlar: Süleyman Rüstəm, Süleyman Rəhimov, Rəsul Rza, Mirzə İbrahimov, Bəxtiyar Vaqabzadə, Fikrət Əmirov, Qara Qarayev, Niyazi, Rəşid Behbudov, Zeynəb Xanlarova, Müslüm Maqomayev, Mustafa Topçubaşev, Mikayıl Hüseynoi və başqaları. Heydər Əliyev dost idi və T.Kuliyevin, F.Əmirovun, M.Maqomayevin əməyini yüksək qiymətləndirirdi. Ulu öndər Heydər Əliyevin Azərbaycan mədəniyyətinə, xalqın mənəviyyatına münasibəti və mövqeyi hər birimiz üçün böyük məktəbdir.

**З.К.Абдуллаева**

## ГЕЙДАР АЛИЕВ И АЗЕРБАЙДЖАНСКАЯ КУЛЬТУРА

***Ключевые слова:*** *культура, искусство, творчество, развитие*

Статья посвящена роли Гейдара Алиева в развитии отечественной культуры и искусства. Современный высокий уровень развития национальной культуры, азербайджанской музыки, театра, кинематографии, изобразительного искусства стал возможен благодаря ценным идеям великого лидера.

Гейдар Алиев был сведущим человеком, прекрасно разбирался в тонкостях творчества и понимал, что искусство является главным орудием в массовом эстетическом воспитании. Он высоко ценил заслуги деятелей азербайджанской культуры, постоянно заботился о них. Именно при нем многие деятели культуры, в том числе Сулейман Рустам, Сулейман Рагимов, Расул Рза, Мирза Ибрагимов, Бахтияр Вагабзаде, Фикрет Амиров, Кара Караев, Ниязи, Рашид Бейбутов, Зейнаб Ханларова, Муслим Магомаев, Мустафа Топчубашев, Микаил Гусейнов и другие были удостоены почетных званий и орденов и вышли на мировую арену. Гейдар Алиев высоко ценил творчество Т.Кулиева, Ф.Амирова, М.Магомаева и дружил с ними. Отношение и позиция великого лидера Гейдара Алиева к азербайджанской культуре, духовности народа – большая школа для каждого из нас.

**Z.K.Abdullaeva**

## HEYDAR ALIYEV AND THE CULTURE OF AZERBAIJAN

***Keywords:*** *culture, art, creativity, development*

This article is devoted to the impact Heydar Aliyev had on the development of Azerbaijan’s national culture and art. His valuable ideas and encouragement have led to the flourishing of the national culture, music, theater, cinematography and visual arts of Azerbaijan, which have earned worldwide fame.

Heydar Aliyev was a competent connoisseur who had deep understanding of art and recognized it being a key to aesthetical education. He highly appreciated the accomplishments of Azerbaijani artists and always took good care of them. Under his leadership, many Azerbaijani cultural figures received honorary titles and awards and were able to gain recognition across the world. Some of these cultural figures are Suleiman Rustam, Suleiman Rahimov, Rasul Rza, Mirza Ibragimov, Bakhtiyar Vagabzade, Fikret Amirov, Kara Karaev, Niyazi, Rashid Behbudov, Zeynab Khanlarova, Muslim Magomayev, Mustafa Topchubashev, Mikail Huseynoi and so on. Heydar Aliyev was also a friend of T.Kuliyev, F.Amirov, M.Magomayev and highly esteemed their work. The way Heydar Aliyev valued Azerbaijani culture and moral values of his people is a great example for all of us to learn from.

Heydər Əliyev şəxsiyyətinin Azərbaycan dövlətçilik tarixində müstəsna yeri vardır. Hər bir azərbaycanlı çox gözəl bilir ki, Ulu Öndər Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə Azərbaycan xalqının, Azərbaycan torpağının adını və şöhrətini dünyada necə yüksək zirvələrə qaldırmış və onu bütün dünyaya

tanıtmışdır. O, millətin yeni tarixinin memarı oldu, güclü Azərbaycanın, müstəqil Azərbaycanın, dünyanın saygı göstərdiyi, istiqlalı dönməz, iqtisadiyyatı günü-gündən qüdrətlənən çağdaş Azərbaycanın memarı oldu.

Heydər Əliyevin hakimiyyəti dövrü ictimai həyatın bütün sahələrində Azərbaycan xalqının yüksəlişi dövrüdür. Bu dövr Azərbaycan elm, mədəniyyət və incəsənətinin dünyada tanınması və qəbul olunması dövrüdür.

Heydər Əliyev Azərbaycanın partiya rəhbəri olaraq 1970-ci illərdə milli ovqatlı əsərlər yazan söz ustalarını müdafiə etməsi, ya milli memarlıq üslubu və əlamətlərinin qabarıq göründüyü tikililərin artmasına rəvac verdi.

Azərbaycan mədəniyyətinin və zəngin tarixi irsimizin dünya ictimaiyyətinə tanıdılması Heydər Əliyevin misilsiz xidmətlərindəndir. Ölkəmizin hüdudlarından kənarda keçirilən Azərbaycan ədəbiyyatı və incəsənətinnin görkəmli nümayəndələrinin yubileyləri, Nizami Gəncəvi və Nəsimi kimi dahi Azərbaycan şairlərinin, mütəfəkkirlərinin yubileyləri, 1974-cü ildə keçirilən milli teatrın 100 illik yubileyi, Azərbaycan dilinə dövlət dili statusunun verilməsi, Hüseyn Cavidin cənazəsinin Bakıya gətirilməsi həmin dövrdə mədəniyyət tariximizin görkəmli hadisələrindəndir.

Azərbaycan kinosunun böyük bir dövr inkişafı Heydər Əliyevin adı ilə bağlıdır. Məlumdur ki, bir sıra filmlərin yaranmasında ulu öndərin şəxsi təşəbbüsü olmuşdur. “Uzaq sahillərdə”, “İstintaq”, “Bir cənub şəhərində”, “Nəsimi”, “Babək” filmlərinin sovet senzurasından keçməsində Heydər Əliyevin səyləri danılmazdır.

Bir tarixi hadisəni oxucularla bölüşmək istərdim.

70-ci illərin əvvəlində Nəriman Nərimanovun anadan olmasının 100 illiyinə ciddi işlər aparılırdı. Bundan bir qədər öncə “Mosfilm” və “Azərbaycanfilm” kinostudiyaları birlikdə məşhur rejissorumuz Əjdər İbrahimovun quruluşunda “Ulduzlar sönmür” filmi istehsal edilmişdi. Həmin film hələ çəkiliş prosesində ikən ermənilər Mərkəzi Komitəyə məktublar göndərirlər, “millətpərəst”, “şovinist”, ”Erməni xalqının düşməni” N.Nərimanov barədə film çəkilişinin, onun yubileyinin keçirilməsinin qəti əleyhinə çıxırdılar. Onun abidəsinin Bakıda ucaldılması günlərində də ermənilərin həmin təntənəli mərasimə hər vəchlə maneçilik törədirdilər. Həmin o məqamlarda sinəsini qabağa verib Moskva ilə döş-döşə duran, ermənilərin ağzından vuran və bütün məsələlərin müsbət həllinə nail olan məhz Heydər Əliyev oldu.

Heydər Əliyev mədəniyyəti xalqın böyük sərvəti hesab edirdi. O deyidi ki, şübhəsiz ki, insanlara şeir qədər, ədəbiyyat qədər, mədəniyyət nümunələri qədər güclü təsir edən başqa bir vasitə yoxdur. Mədəniyyətimizin elə bir sahəsi yoxdur ki, musiqimiz də, teatrımız da, kino sənətimiz də, hekəltəraşlıq və rəssamlığımız da bugünkü inkişafında Ulu Öndərin çox dəyərli ideyalarından bəhrələnməsin.

Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə respublikamızın mədəniyyət və elm xadimlərinin, şair və yazıçıların dövlətin ən yüksək mükafatlarına layiq görülməsi, onun elmə, sənətə verdiyi qiymətin nəticəsidir.

Məhz Heydər Əliyevin səyləri nəticəsində Süleyman Rüstəm, Süleyman Rəhimov, Rəsul Rza, Mirzə İbrahimov, Bəxtiyar Vahabzadə, Fikrət Əmirov, Qara Qarayev, Niyazi, Rəşid Behbudov, Zeynəb Xanlarova, Müslüm Maqomayev, Mustafa Topçubaşov, Mikayıl Hüseynov kimi görkəmli sənətkarlar dünya miqyasına çıxa bilmiş və şöhrət qazanaraq məşhurlaşmışlar.

Heydər Əliyev yaradıcı ziyalıların parlaq, itedadlı nümayəndələrinə xüsusi rəğbət və diqqətlə yanaşırdı. O, həmişə sənətkarların yaradıcılıq işləri ilə maraqlanmış, problemlərinin operativ həllini həyata keçirmişdir. Ölkəyə rəhbərlik etdiyi bütün dövrlərdə Azərbaycan bəstəkarlarına dövlət səviyyəsində diqqət və qayğısını əsirgəməmiş, həmişə Azərbaycan musiqisini, onun bəstəkarlıq məktəbini yüksək qiymətləndirmiş, bütövlükdə musiqi sənətimizin inkişafına, onun beynəlxalq əlaqələrinin genişlənməsinə mənəvi zəmin yaratmışdır.

Heydər Əliyevin Azərbaycan bəstəkarlarının V qurultayındakı çıxışından bir parçanı oxucuların diqqətinə çatdırmaq istəyirəm: "Musiqini hər yerdə dinləyirlər, kəndli də, fələ də, zehni əmək adamı da, təqaüdçü də, uşaq da dinləyir, yaşından asılı olmayaraq, hamı dinləyir. Buna görə də insanların milli şüurunun yüksəlməsində musiqinin təsirini artırmaq, mənəvi-estetik tərbiyə problemlərinin həllində onun təsirini gücləndirmək, musiqinin geniş kütlələrə emosional təsirini qüvvətləndirmək sizin borcunuzdur. Bu, böyük və eyni zamanda çox nəcib bir vəzifədir. Biz əmin olmaq istəyirik ki, ayrılıqda hər bir bəstəkar və birlikdə hamınız bütün yaradıcılıq fəaliyyətinizlə Azərbaycan musiqisini inkişaf etdirməyə çalışacaqsınız".

Onu da deməliyik ki, Azərbaycan bəstəkarları da hörmət və ehtiram əlaməti olaraq, Ulu Öndərə həsr olunmuş bir-birindən dəyərli əsərlər yartmışlar. Bu əsərlər arasında Arif Məlikovun 8 saylı "Əbədiyyat" simfoniyası, Vasif Adıgözəlovun "Azərbaycan" kantatası, Ramiz Mustafayevin "Atamız Heydər", Ramiz Mirişlinin "Məşəl kimi yanan ürək", Sərdar Fərəcovun "Böyük vətəndaş haqqında" odaları, Tofiq Bakıxanovun "Xatirə Poeması"nı, Firəngiz Əlizadənin "İthaf" əsərini, Vasif Allahverdiyevin "Heydər Əliyev- ömür yolu" simfonik poeması, Arif Mirzəyevin violin və orqan üçün "Dahi prezidentə xatirə", Nailə Mirməmmədlinin "Ulu Öndər" kompozisiyası və bir çox əsərləri qeyd etmək olar. Bu əsərlərdə Heydər Əliyevin mənalı həyat yolu, onun müstəqil Azərbaycan, milli inkişaf, Vətənə və xalqa sonsuz məhəbbətlə döyünən ürəyi, möhtəşəm tarixi şəxsiyyət kimi obrazı canlandırmışdır.

Musiqi sənətimizin inkişafına xüsusi qayğı ilə yanaşan ulu öndərin sərəncamı ilə 24 bəstəkar və musiqişünasa Prezident təqaüdü verildi. Onların bir çoxu "Şöhrət" ordeninə layiq görüldülər. 1995-2003-cü illər ərzində Prezident Heydər Əliyevin fərmanı ilə bir çox görkəmli incəsənət xadimləri "İstiqlal" ordeni ilə təltif olunmuşlar.

Burada Azərbaycanın görkəmli bəstəkarı Tofiq Quliyevin Heydər Əliyevlə bağlı xatirələrini xatırlamaq yerinə düşərdi. "Heydər Əliyevlə mənim ilk tanışlığım

çox-çox əvəllər – 1941-ci ildə Naxçıvan şəhərində olub. O zaman Azərbaycan Dövlət caz orkestrinə rəhbərlik edirdim. Bu orkestr fəaliyyətə başladığı ilk günlərdən geniş rəğbət qazanmışdı. Onun bütün üzvləri hərbi xidmətə çağırış yaşında idilər. Ölkədə müharibə getdiyi üçün onları tez-tez hərbi komissarlığa çağırırdılar. Çox çətinliklə ona nail oldum ki, caz kollektivi orduya bütöv şəkildə getdi. Beləliklə, 1941-ci ilin yayında 30 nəfərlik kollektiv Naxçıvan şəhərində yerləşən hərbi hissəyə gəldi. Bizim orkestr ayrı-ayrı hərbi hissələrdə çıxış etməklə yanaşı, Naxçıvanın özündə də konsertlər verirdi. Bəzən bu konsertlərdə Heydər Əliyevi görürdüm. Bu gəncin bizim konsert proqramımıza marağı məni sevindirsə də səbəbini bilmirdim. Sonralar Heydər Əliyev Azərbaycana rəhbər vəzifəyə gətirilərkən çıxışlarından bəlli oldu ki, o, konsertlərə adi tamaşaçı kimi deyil, səriştəli musiqi həvəskarı kimi gəlir və caz musiqisindən zövq alırmış"(4).

Qeyd etmək vacibdir ki, Azərbaycanın görkəmli sənət xadimləri ilə şəxsi ünsiyyət quran, onlara daim qayğı və köməyini əsirgəməyən Heydər Əliyevlə Tofiq Quliyev arasında da sıx dostluq təması mövcud idi. 1997-ci ildə bəstəkarın anadan olmasının 80-cı ildönümü münasibəti ilə Azərbaycan Respublikası prezidenti Heydər Əliyev Tofiq Quliyevi "İstiqlal" ordeni ilə təltif etmiş və bu ordeni xəstəxanada yatan bəstəkara şəxsən özü təqdim etmişdi:

*"80 yaşın tamam olanda mən səni "İstiqlal" ordeni ilə təltif etmişəm. Bu Azərbaycanın ən yüksək ordenidir. Mən bu gün də görkəmli ədəbiyyat və incəsənət xadimlərindən bir dəstəsinə ordenlər təqdim etdim. Ancaq mənə dedilər ki, Tofiq Quliyev xəstəxanadadır. Fikirləşdim ki, bu ordenləri onlara təqdim etmişəm, amma sənə təqdim etməsəm olmaz. Ona görə də birbaş bura, sənin yanına gəldim. Birincisi ona görə ki, səndən hal-əhval tutum, görüm nə var, nə yox. İkincisi də həmin "İstiqlal" ordenini sənə təqdim edim. Bu, müstəqil Azərbaycanın ilk və yüksək mükafatıdır. Sənə cansağlığı arzu edirəm."*

Bir müddət sonra T.Quliyevin Respublika sarayında keçirilən 80 illik yubiley gecəsində Ulu Öndərin çıxışında dahi sənətkara verdiyi dəyəri belə ifadə edir*:"Əziz qardaşım, 80 yaşın tamam olarkən fəxr edə bilərsən ki, sən şərəfli bir ömür yaşamısan, böyük işlər görmüsən, xalqına sədaqətlə xidmək etmisən və xalqın üçün gözəl əsərlər yaratmısan... Biz hamımız bu dünyadan gedəcəyik. Amma mahnı, musiqi yaşayacaq, Tofiq Quliyevin manıları, musiqisi daim yaşayacaqdır.*

*Eşq olsun musiqiyə!*

*Eşq olsun incəsənətə!*

*Eşq olsun Tofiq Quliyeva!"*

Heydər Əliyevin Fikrət Əmirovla da çox səmimi münasibəti var idi. Unudulmaz bəstəkar 1981-ci ildə SSRİ Dövlət mükafatına layiq görülmüşdü. Bu münasibətlə Kreml sarayında onun "Min bir gecə" baleti nümayiş etdirilirdi. O zaman H.Əliyev Siyasi Büronun üzvü və SSRİ Nazirlər Kabineti sədrinin birinci müavini olduğundan çox məşğul idiş Tamaşadan əvvəl hamını bir sual maraqlandırırdı: "Görəsən Heydər Əliyev gələcək?" Heydər Əliyev Zərifə xanımla

salana daxil olanda hamının ürəyində sevinc və qürur hissi oyandı.

Bu, Ulu Öndərin incəsənət xadimlərinə, xalqına, onun sənətkarlarına verdiyi qiymətin, böyük segi və hörmətinin, qayğısının bariz nümunəsi idi.

Heydər Əliyevin Müslüm Maqomayevlə də özəl, atalıq münasibətləri vardı. Onu həm sevir, onunla qürur duyurdu, onu himayə edirdi.

Tanınmış rus müğənnisi İosif Kobzon Bakıda keçən M.Maqomayevin yubiley gecəsində dahi müğənnini belə xatırlayır:"Mən Müslümə deyirdim ki, sənə yalnız ona görə qibtə edirəm ki, sənin Heydər Əliyev kimi dostun var".

Heydər Əliyev bizimlə eyni dövrdə yaşayırdı , bəxtimizə dahi ilə müasir olmaq səadəti düşmüşdü və əl çatacaq qədər yaxında olsa da onun əlçatmaz qədər uca şəxsiyyət olduğunu dərk edirdik. Lakin Heydər Əliyevin kimliyini ,onun təfəkkürünün zənginliyini, əməllərinin qiymətə sığmazlığını, Azərbaycanın müstəqillik tarixinin yeni və ən şərəfli səhifələrinin müəllifi olmasının Ali mənasını bizdən sonra gələnlər onilliklərin zirvələrindən daha aydın görəcəklər.

## ƏDƏBİYYAT


1. Azərbaycan bəstəkarlarının V Qurultayının materialları. 1 oktyabr 1979-cu il.
2. Heydər Əliyev işığı – ipək yolu. Bakı: "Çağışoğlu", 2000
3. Qasımova S., Abdullayeva Z. Fikrət Əmirov. Bakı: "Nağıl evi", 2004
4. Abdullayeva Z. Ecazkar sənətkar. Bakı: "Çinar-çap", 2007.
5. Fazil Rəhmanzadə "Bu isimdə bir can..." Bakı, 2015



**Məqalənin redaksiyaya daxil olma tarixi: 01.05.2023**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.05.2023**
**Məqalənin çapa qəbul olunma tarixi: 01.06.2023**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**fəlsəfə elmləri doktoru, professor Mübariz Süleymanlı**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 316.33; 327.39**
**UOT 32:008; 32:316.7**

**Л.Д.Гулиева**
доктор философии по философии, доцент
Азербайджанский Государственный
Педагогический Университет,
AZ 1000, г. Баку, ул. У.Гаджибейли, 68
e-mail: Leyli.Quliyeva@adpu.edu.az

# ИДЕИ ТОЛЕРАНТНОСТИ И МУЛЬТИКУЛЬТУРАЛИЗМА В ИСТОРИИ СОЦИАЛЬНО-ФИЛОСОФСКОЙ МЫСЛИ АЗЕРБАЙДЖАНА

***Ключевые слова:*** *мультикультурализм, толерантность, демократическое общество, мультикультуральная безопасность, культура, этнокультурные ценности*

Статья посвящена значению и роли идей мультикультурализма и толерантности в истории социально-философской мысли Азербайджана. Подчёркивается, что мультикультурализм в нашей республике является целенаправленной политикой, выбранной руководством страны во главе с уважаемым Президентом Азербайджана Ильхамом Алиевым. Мультикультурализм является образом жизни азербайджанского народа, политикой сохранения, развития и гармонизации этно-культурного разнообразия представителей различных народов, проживающих в нашей стране.

Научная новизна данной статьи заключается в том, что на примере произведений богатой азербайджанской культуры автор рассматривает прояление в них идей мультикультурализма и толерантности, также анализируются проблемы культурогенезиса в азербайджанской культуре, который инициирует процессы гармоничного синтеза традиций национальной культуры с культурными инновациями других народов.

**L.D.Quliyeva**

# AZƏRBAYCANIN SOSİAL-FƏLSƏFİ FİKRİNİN TARİXİNDƏ MULTİKULTURALİZM VƏ TOLERANTLIQ İDEYALARI

***Açar sözlər:*** *multikulturalizm, tolerantlıq, multikultural təhlükəsizlik, etnik-mədəni dəyərlər, mədəniyyət, demokratik cəmiyyət*

Məqalədə Azərbaycanda multikulturalizm siyasətinin həyata keçirilməsindən bəhs edilir. Qeyd olunur ki, multikulturalizm Azərbaycan Respublikasının dövlət siyasətidir. Bu siyasətin əsas məqsədi ölkədə yaşayan xalqların etnik-mədəni dəyərlərinin qorunması, inkişafı və cəmiyyət daxilində onların inteqrasiyasına nail olmaqdır. Ölkə ərazisində yaşayan bütün xalqların, o cümlədən milli azlıqların etnik-mədəni dəyərlərinin qorunması və inkişafı məsələsinə Azərbaycan dövləti özünün bu sahədəki siyasətində həm məqsəd, həm də vasitəsi kimi yanaşır. Eləcə də müəllif «multikulturalizm», «tolerantlıq», «multikultural təhlükəsizlik», «etnik-mədəni dəyərlər», «mədəniyyət» kimi anlayışları təhlil edir.

**L.D.Guliyeva**

**THE IDEAS OF TOLERANCE AND MULTICULTURALISM IN HISTORY OF SOCIAL-PHILOSOPHICAL THOUGHT OF AZERBAIJAN**

***Keywords:*** *multiculturalism, tolerance, multicultural security, democratic society, culture, ethno-cultural values*

The article focuses on issues of the multiculturalism policy of Azerbaijan. It is emphasized that multiculturalism is the state policy of the Republic of Azerbaijan. The major objective of the policy is to protect and develop the ethnocultural values of different ethnic groups living in the country and integrate them into society. The Republic of Azerbaijan considers the protection and development of the ethnocultural values of ethnic groups and national minorities living in the territory of Azerbaijan as both a goal and tool of its state policy. In addition, the author reviews such concepts as "multiculturalism", "tolerance", "multicultural security", "ethno-national values" and "culture".

Азербайджан, расположенный в месте стыковки различных культур, этносов и цивилизаций, на протяжении большого исторического периода прославился как страна, где существует специфическая среда национально-культурного многообразия, в которой представители самых различных народов, национальностей, конфессий на протяжении веков живут в атмосфере сотрудничества, добрососедских отношений, мира и благополучия, взаимопонимания и диалога. Наша страна, являясь своеобразным мостом между Востоком и Западом, представляет собой пример мультикультурального и толерантного общества. На этом пространстве на протяжении веков бок о бок с азербайджанцами проживают представители различных наций и конфессий, в том числе евреи, русские, талыши, аварцы, таты, татары, цахуры и многие другие. Азербайджанская Республика входит

в число пяти самых мультикультуральных и толерантных стран мира. Мультикультурализм и толерантность, являющиеся специфическими чертами менталитета и образа жизни азербайджанского народа, ныне превратились в неотъемлемые органические черты повседневной жизни каждого гражданина Азербайджанской Республики, независимо от их национальности, культуры, религии, языка.

«Мультикультурализм – продукт развития общества. Он возникает под влиянием протекающих в обществе процессов и событий» [8, с. 35].

Как отмечает Президент Азербайджана Ильхам Алиев, - «мультикультурализм в Азербайджане образ жизни. На протяжении веков в Азербайджане существовали мультикультуральные общества» [4].

О богатом и насыщенном мультикультуральном прошлом и древней истории азербайджанского народа свидетельствуют не только современный толерантный образ жизни нашего народа, но также и сотворенные народом научно-философские, политико-правовые, литературно-художественные произведения, источники и документы. Все эти идеи нашли яркое оригинальное художественное воплощение в образцах азербайджанской литературы, философии, публицистики различных периодов.

Конкретные образцы истории социально-философской и художественно-эстетической мысли азербайджанского народа, в которых ярко выражены идеи мультикультурализма и толерантности, очень многогранны, многоаспектны и богаты. Как верно отмечает академик К.Абдулла: «Желание воспринять человечество как нечто целостное, потребность найти ментальные параллели, объединяющие отдельные народы, попытки сблизить различные религии, одинаково уважительное отношение к святыням всех религий, мораль, обязывающая оценивать людей не по религиозной принадлежности, а по личным достоинствам каждого, призыв к состраданию, милосердию, сопереживанию, любовь как высшее чувство, как общий жизненный принцип, объединяющий все народы, независимо от их языка и религии, и ряд других ценностей, как нельзя лучше характеризуют внутренний дух, царящий в глубинах истории нашей общественной мысли» [8, с. 77].

В истории, философии, литературе Азербайджана на протяжении веков были выражены такие качества, характерные для нашего народа, как способность не только воспринимать и ценить все многообразие культур мира, понимать богатство и широту проявлений человеческого гения, расширять свое видение мира, жизнеустройства, но и, воссоздавая в своем внутреннем мире, в своем восприятии лучшие их образцы и произведения, обогащать окружающую действительность также и произведениями своей богатой прекрасной культуры.

Диалектика истории такова, что познание, осмысление истоков и особенностей национальной культуры, соответственных исторических корней, своей этнокультурной самобытности и индивидуальности напрямую связано с осознанием себя неотъемлемой частью человечества, с открытием новых граней исторического, этнического духовного родства со многими народами мира и с культурной эволюцией человечества. «Проблемы этноса, этногенеза, этно-национальной истории, истории этно-национальной культуры, этнического права на культуру в свете глобальных идеологических и политических процессов приобретают в настоящее время большое значение» [9, с. 77].

В азербайджанской культуре отражены идеи мультикультурализма, толерантности нашего народа к другим культурам, религиям, языкам, осознание и понимание того факта, что во всех священных книгах отражены мудрые послания единого Бога всему человечеству. На протяжении всей истории, мультикультурализм и толерантность служат ключом к пониманию многих аспектов исторической динамики и функционирования общечеловеческой и национальной культур. Наша национальная литература, философская наука, культура всегда призывали любить все человечество независимо от социально-общественных, политических, культурных парадигм, от религии, языка и других отличий. В современный период все это культурное наследие с провозглашенными в нем мультикультуральными, толерантными, нравственными ценностями и идеями, является составной частью сокровищницы мировой культуры. Каждый из представителей нашей культуры, литературы, философии, публицистики, истории общественной мысли, будучи частью своего народа, был не только носителем и выразителем этих ценностей, воплощенных в произведениях, но и превратил их в часть мировоззрения, мироощущения, и духовности своего народа.

В своем литературном, философском наследии наши великие деятели культуры воплотили вековую народную мудрость, переходящую из поколения в поколение, сохраняющуюся и оберегаемую веками. Этническому слою, этническим компонентам культуры Азербайджана принадлежит исключительная роль в национальном самоопределении, духовном выживании и возвышении азербайджанского народа, сохранении его исторической самобытности, духовной и душевной уникальности. В нашем культурном наследии, в прекрасных образцах творчества наших предшественников со всей очевидностью можно почувствовать атмосферу общественной и социальной среды, в которой они жили и творили, уловить ритм и пульс жизни того исторического периода.

Дошедшие до нас произведения культуры являются ярким свидетельством того, что в нашей стране в различные периоды истории уже существовала атмосфера мультикультурализма и толерантности. То есть,

когда еще слов «мультикультурализм» и «толерантность» еще не было в лексиконе, человечество с древнейших времен почувствовало важность мультикультурального образа жизни, осознав его необходимость. И поэтому еще с древних времен в тех регионах, где существовал мультикультуральный образ жизни, там преобладали стабильная жизнь общества, его расцвет и прогрессивное развитие. Что касается государств, не придерживавшихся мультикультуральных отношений, допустивших ошибки и неверные политические решения в области общественного равновесия межэтнических процессов, то их население постоянно сталкивалось с кризисами, конфликтами, трудностями во всех сферах общества. Все эти явления способствовали тому, что мультикультурализм стал важным фактором и силой солидарности и сосуществования мирной, доверительной деятельности народов и стран. Все эти идеи нашли свое яркое художественное и философское отражение в образцах азербайджанской культуры различных периодов.

Многовековая богатая азербайджанская культура в лучших своих образцах, призывавшая к возвышению человечности, гуманизма, мирному сосуществованию, взвешенности в общественных отношениях, тем самым демонстрировала готовность к диалогу, солидарности и доверии между народами. В свою очередь, все эти характерные черты и особенности, наряду с национальными ценностями, усиливали и общечеловеческие мотивы. В качестве примеров, подтверждающих данные положения, следует отметить мультикультуральные и толерантные мотивы в таких философско-религиозных течениях, существующих в древности на территории Азербайджана как зороастризм, манихейство, маздакизм. Взгляд на эти направления и течения с позиций мультикультурализма и толерантности является одним из показателей и критериев их значимости при рассмотрении вышеназванной проблемы.

В свете рассматриваемых проблем особое внимание необходимо привлечь к историческому эпосу «Китаби – Деде Коркут», который играет большую роль в сохранении и увековечивании национально-культурного наследия, в воспитании нового поколения в духе азербайджанства, прививает ему мультикультуральные и толерантные ценности. Прекрасное повествование о целостности Азербайджана, традиции и обычаи, быт, этнография, топонимы, героические события, воплощенные в эпосе, мультикультуральные и толерантные идеи, нашедшие свое воплощение в эпосе, представляют собой яркое литературно-художественное и философское отражение образа жизни наших далеких предков, их образа мышления, мироощущения, мировоззрения. Великолепный по языку и стилю эпический памятник – «Книга моего деда Коркута» является эпической историей народа, в сказаниях отражены и социально-нравственные черты огузов, родоплеменные связи и узы дружбы в семье и за ее пределами.

Многовековая азербайджанская литература в своих лучших образцах всегда ставила в центр своего внимания гуманизм, дружбу, взаимосвязь культур, сосуществование, диалог, взаимное доверие, в яркой форме демонстрировала место и значение мультикультуральных и толерантных идей и ценностей в духовном мире личности и общества. Все эти факторы обусловили тот факт, что литература всегда подчеркивала роль и важность гармонии во всех сферах развития общества, способствовала регулированию отношений человека и его места в историческом процессе, создавала условия для проживания в едином пространстве различных народов в мире, любви и мирном сосуществовании, солидарности, содружестве и равноправии, взаимоуважении в служении прогрессу и процветанию страны.

В бессмертных произведениях Низами, Физули, Насими, Урмяви, Миянечи, Шабустари, Ахундзаде, Зардаби, Джавида, Абдуллы Шаига и многих других представителей азербайджанской культуры мы встречаем ряд интересных моментов, в которых звучат мультикультуральные идеи, идеи равенства разных народов. Во многих их произведениях мультикультуральное и толерантное мышление проявлено в конкретной, яркой и красочной форме. В их творениях можно найти большое количество примеров и различных моментов, демонстрирующих толерантные духовные ценности, ключевые принципы азербайджанского мультикультурализма, приверженность к мультикультуральным ценностям. Многие из авторов проводят мысль о том, что в основе содержания понятия мультикультурализм лежит любовь людей друг к другу, взаимопонимание, сотрудничество, доброжелательные отношения, но вовсе не принудительное или искусственное его внедрение в регулирование отношений людей.

Ведь произведения искусства, литература, культуры не просто отражают окружающую действительность, но в своих лучших реалистических образцах они способны воздействовать на процессы социальной жизни, вызывая те или иные изменения в общественном сознании и общественной практике. Произведения деятелей азербайджанской культуры были не только знаменательными явлениями художественной жизни своего времени, но и явились мощными катализаторами прогрессивных социальных, демократиических, мультикультуральных, толерантных тенденций в мировоззрении, нравах и взаимоотношениях людей в обществе, в создании мультикультуральной среды. Возникшие с древнейшие времена и продолжавшие свое развитие в последующие эпохи, тенденции мультикультурализма и толерантности оставались характерными для менталитета нашего народа и демонстрировали прогрессивный и позитивный характер.

«Государство тем богаче, - говорил общенациональной лидер Гейдар Алиев, - чем больше народов оно объединяет, что каждый из них вносит в мировую культуру и цивилизацию свою лепту» [10]

Можно сделать вывод, что изучение и анализ образцов азербайджанской культуры, литературы, философии со всей очевидностью демонстрируют тот факт, что мультикультуральные мотивы и ценности зародились в древности и имеют глубокие корни в общественно-исторической и художественно-эстетической мысли нашего народа. Как верно отметил Президент Азербайджана Ильхам Алиев, «мультикультурализм – это образ жизни, который на протяжении веков был присущ азербайджанскому народу».

## ЛИТЕРАТУРА


1. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 20 cilddə. Bakı, 1997-2007.
2. İlham Əliyev. İnkişaf məqsədimizdir. I-III cildlər. Bakı, 2008-2009.
3. Prezident İlham Əliyev: Multikulturalizm Azərbaycanda həyat tərzidir // https: //azertag.az/xeber/Prezident_İlham_Aliyev_Multikulturalizm_Azerbaycanda_heyat_terzidir-918878 [15.01.2016]
4. Алиев И.Г. Выступление на Бакинском Международном Гуманитарном Форуме // Материалы форума, 2-3 октября 2014 года. Баку, 2015.
5. Azərbaycan multikulturalizmi. Ali məktəblər üçün dərslik. Bakı: BMM, 2017, – 416 s.
6. Культура и культурные шедевры Азербайджана – уникальное послание будущим поколениям: о деятельности Первого Вице-президента Азербайджанской Республики Мехрибан ханум Алиевой // доп. и перераб. изд. – Баку, Çinar-Çap, 2009. 798 с.
7. Алакбаров У. Основы управления устойчивым развитием и экологической цивилизацией. Учебник для высших учебных заведений. – Баку: “Aspoliqraf”. – 2017. – 192 с.
8. Азербайджанский мультикультурализм. Учебник для высших учебных заведений. Баку: БМЦМ, 2019, 528 с.
9. Кулузаде З. Четко-нечеткое постижение логики бытия. Баку, 2017, –185 с.
10. https://heydar-aliyev-foundation.org/ru/content/index/85/



**Məqalənin redaksiyaya daxil olma tarixi: 01.05.2023**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.05.2023**
**Məqalənin çapa qəbul olunma tarixi: 01.06.2023**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**fəlsəfə elmləri doktoru, professor Niyazi Mehdi**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №1, 2023, **s. 105-109**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №1, 2023, **с. 105-109**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №1, 2023, **pp.105-109**

# MƏKTƏBƏQƏDƏR TƏLİM, TƏRBİYƏ

**UOT 37.01**

**Arifə Hacıbaba qızı Qəribova,**
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universiteti,
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
*E-mail: qaribova.arifa@gmail.com*

## UŞAQ BAĞÇALARINDA MUSİQİ REPERTUARI MƏSƏLƏLƏRİ

***Açar sözlər:*** *musiqi tərbiyəsi, repertuar, dinləmə, oxuma, rəqs, oyun*

Məqalədə məktəbəqədər müəssisələrində müxtəlif uşaq musiqili fəaliyyət növləri üçün repertuarın seçiminin prinsiplərindən bəhs olunur. Burada qeyd olunur ki, musiqini dinləmə, oxuma və ritmika üzrə seçilən repertuar musiqi tərbiyəsinin proqramına müvafiq olmalıdır. Bununla yanaşı, seçilən musiqi nümunələri parlaq, obrazlı, uşaq hisslərinə və həyacanlarına yaxın, lakin forma cəhətdən sadə olmalıdır ki, uşaqlar onları asanlıqla qavraya bilsin.

**А.Г.Гарибова**

## ВОПРОСЫ МУЗЫКАЛЬНОГО РЕПЕРТУАРА В ДЕТСКИХ САДАХ

***Ключевые слова:*** *музыкальное воспитание, репертуар, слушание, пение, танцы, игры*

В данной статье рассматриваются принципы подбора репертуара для различных видов музыкальной деятельности детей в дошкольных учреждениях. Отмечается, что подбираемый репертуар по слушанию, пению и ритмике должен соответствовать программе по музыкальному воспитанию. Вместе с тем, подбираемые музыкальные номера должны быть яркими, образными, близкими к чувствам и переживаниям детей, но по форме простыми, чтобы дети могли их легко воспринимать.

**A.H.Garibova**

## QUESTIONS OF THE MUSICAL REPERTOIRE IN KINDERGARTEN

***Keywords:*** *musical education, repertoire, listening, singing, dancing, games*

This article discusses the principles of selecting a repertoire for various types of musical activities of children in preschool institutions. It is noted here that the selected repertoire for listening, singing and rhythm should correspond to the program of musical education. At the same time, the selected musical pieces should be bright, imaginative, close to the feelings and experiences of children, but simple in form, so that children can easily perceive them.

Dinləmə, mahnı oxuma və ritmik hərəkətlər üçün əsərlər uşaqların tərbiyəsinə dair proqram məsələlərini nəzərə alaraq seçilməlidir və pedaqoji-bədii tələblərə cavab verməlidir:

- musiqi formasının və məzmunun vahidliyi;
- uşaq musiqi fəaliyyətlərinin bütün növlərinə uyğunluq;
- uşaq bağçasının bütün yaş qrupları üçün qavramağa və ifa etməyə əlverişli (mümkün) olması.

Xalq və ya bəstəkarlar tərəfindən yaradılan uşaq musiqisi hər zaman parlaq, obrazlı, uşaq hisslərinə və həyacanlarına yaxın olmalıdır ki, onu idrak və emosional cəhətdən zənginləşdirsin. Musiqi aləminə daxil olma – xüsusi “musiqi dilini” (melodik intonasiyaları, harmonik birləşmələri, lad boyasını) anlamağı öyrənmək deməkdir. Bunula yanaşı uşaq musiqisinin forması çox mürəkkəb, ağır olmamalıdır.

Uşaq musiqini, onun obrazlarını musiqi ifadəlilik vasitələri ilə vahid şəkildə qavrayır. Belə ki, əgər S.Ələsgərovun “Ölməz sərkərdə” mahnısını pianoda (oxumadan) ifa etsək, uşaqlar musiqi girişinin ifadəliliyini, sonra mahnının kupletinin gərgin-ciddi (“Düşmənin gözündə qoydun kamını”) və nəqarətin inamlı dinamik (“Nəzlimiz adını daşıyır, Həzi”) xarakterini hiss etməyə qadirdilər. Formanın və məzmunun vəhdətində yadda qalan musiqili obraz yaradılmışdır, əsərin yüksək bədiiliyinə nail olunmuşdur ki, bu da uşaqlar üçün əsərlərin seçimində əsas tələbdir.

Musiqini dinləmə, oxumavə ritmika üzrə repertuar musiqi tərbiyəsinin proqramına müvafiq olmalıdır. Dinləmə üçün vokal və instrumental, çox vaxt proqramli musiqi (yəni konkret mövzusu olan, məsələn, Ü.Hacıbəylinin “Axşam oldu”, M.Nəsirbəyovun “Pişiyim”, Q.Qarayevin “Qəmli nağıl”, P.Çaykovskinin “Kamarinskaya”) seçilməlidir.

Müxtəlif mövzulu, janrlı və xarakterli musiqi nəzərdə tutulmalıdır: həm

vətənpərvər, həm lirik, həm şən oynaq, həm vokal, həm instrunental, həm mahnı, həm rəqsvari və s. Üstünlük azərbaycan musiqisinə verilsə də, digər xalqların klassik və xalq musiqisi ilə tanışlıq olmalıdır.

Xalq yaradıcılığından laylalar, müxtəlif rəqslər (İnnabı, Darçını, Turacı və s.), zarafatsayağı oyunlar, yumşaq və lirik, şən və oynaq mahnılar seçilməlidir. Bu nəinki Azərbaycan musiqisinə, həm də rus, gürcü, ukrayna, baltikyanı, ingilis, alman, fransız və digər xalqların musiqisinə də aiddir.

Uşaq musiqisinə yüksək bədiiliyi ilə seçilən Azərbaycan, rus və Qərb bəstəkarlarının klassik əsərlərini də aid etmək olar. A.Zeynallının "Uşaq albomu", F.Əmirovun "12 miniatür", O.Rəcəbovun "Tıq-tıq xanım" operasından fraqmentlər, P.Çaykovskinin "İllərin fəsilləri", M,Qlinkanın polkaları, L.Betxovenin "Surok", E.Qriqin "Per-Qünt" əsərindən fraqmentlər, F.Şubertin "Şən dəyirmançı", "Forel" və s. əsərlərin adlarını çəkmək olar.

Uşaqlar üçün bir çox mahnıları sovet dövrünün bəstəkarları da yaratmışdır, bunlardan bir çoxu indi də öz bədii məzmununu saxlayır. F.Əmirov, O.Zülfüqarov, C.Cahangirov, O.Rəcəbov, R.Şəfəq, D.Kabalevski, A.Filippenko, Y.Tiliçeyevanın və b. mahnıları bu qəbildəndir. Öz yaradıcılığında bəstəkarlar çox vaxt çətinliklərlə üzləşirlər: uşaqlar üçün musiqi bəstələyərkən, onlar mahnının melodiyası, harmoniyası, fakturası və formasında çox məhdud vasitələrdən istifadə edə bilərlər.

Dinləmə üçün seçilmiş əsərlərin mövzusu bütün ümumtərbiyə prosesində həyati hadisələrlə tanışlığa həsr olunmalıdır, musiqidə əks olunan təsəvvürlər yeni rənglərlə boyalanmalı, dərinləşməlidir. Məsələn, O.Rəcəbovun "Sərhədçilər marşını" dinlədikdə uşaqlar nəinki əsgərlərin sərhədlərimizi qoruduğu barəsində öyrənirlər. Onlar "səsi səsdən, izi izdən seçər o..." sözlərində melodiyanın gərgin sinkopalı intonasiyalarını çox yaxşı hiss edirlər. Eyni zamanda onlar "Ayıq, sayıq dayanıbdır sərhədçi" sözlərində melodiyada dəqiq marş ritmi vasitəsilə əks olunan qətiəti, iradəni də hiss edirlər.

Uşaqların öyrəndikləri və oxuduqları mahnılar bir xüsusiyyətə malik olmalıdır – onların melodiyası parlaq olmalıdır. İfadəli oxumaq üçün uşaqlar nəinki mahnının xarakterini hiss etməli, həm də onu düzgün oxumalıdırlar. Deməli, mahnıları seçərkən müəllim aydın şəkildə təsəvvür etməlidir ki, hansı vərdişlər üzərində daha çox işləmək lazımdır. Məsələn, böyük qrup uşqlarla işləyərkən, səsin yüngüllüyünü və çəldliyini formalaşdırmaq üçün O.Zülfüqarovun "Sərçə" mahnısını, kantilena legato səsaparıcılığına nail olmaq üçün isə S.Rüstəmovun "Maral" mahnısını seçmək olar.

Müxtəlif musiqili oyunlar, gimnastik məşğələlər, rəqslər üçün repertuar musiqili-ritmik vərdişlərin mənimsənilməsinə vasitə kimi çıxış edir. Hər bir fəaliyyət növü öz funksiyasını yerinə yetirir. Məsələn, süjetli oyunlar və yallı tipli oyunlar müxtəlif personajların səciyyəvi hərəkətlərini göstərməyəimkan verir; məşgələlər rəqslərin rəqsin müxtəlif elementlərini mənimsəməyə

köməklik edir və s. Lakin hərəkətlər hansı forma almasından asılı olmayaraq öz funksiyalarını yerinə yetirməlidir – proqrama müvafiq lazimi vərdişləri öyrətməlidir. Məsələn, T.Lomovanın musiqisinə "Metro" oyununda uşaqlar tempə uyğun olaraq hərəkət etməlidirlər: gah sakit gəzişir, gah tez qatarda gedir, gah dayanırlar və s. Musiqi quruluşlarına, tempin dəyişməsinə, aksentlərə dəqiq reaksiya verərək uşaqlar musiqili-ritmik vərdişlərini mənimsəyir.

Proqrama daxil edilən əsərlərə qarşı sonuncu tələb – uşaqlara qavramağa və ifa etməyə əlverişli (mümkün) olması. Uşaqların hiss və düşüncələrinə yaxın olan bədii obrazlar, başa düşdükləri mövzular həyati hadisələr barəsində təsəvvürlərin həcminə uyğundur. Lakin musiqi dili müxtəlif mürəkkəblik səviyyəsində olur. Misal üçün iki fortepiano pyesini müqayisə edək:biri sadə melodiya və harmoniyalı «Rus xalq mahnısı", digəri isə P.Çaykovskinin "Uşaq albomu"ndan "Kamarinskaya", harada ki, rus xalq mahnısı parlaq və obrazlı variasiya şəklində verilmişdir. Hər bir variasiya öz xarakterinə və dinamikaya malikdir. Eləcə də mahnıların mürəkkəblik səviyyəsi də uşaqların ifası üçün əhəmiyyət kəsb edir. Əgər müxtəlif qruplar üçün nəzərdə tutulmuş mahnıların melodiyalarını müqayisə etsək, görərik ki, onlar diapazonu, interval gedişatların özünəməxsusluğu, frazaların uzunluğu və mətndə sözlərin tələffüzünün çətinlik dərəcəsi ilə fərqlənirlər.

Rəqs, oyun və məşğələlər üçün nəzərdə tutulmuş əsərlər də musiqi obrazlarının inkişafı, quruluşu, harmonik müşayiəti, temp və dinamik dəyişiklikləri, həmçinin də hərəkətlərin tədricən mürəkkəbləşməsi ilə fərqlənirlər. Bütün bunları proqram repertuarını seçərlən nəzərə almaq lazımdır ki, onun vasitəsilə müxtəlif yaş qrupundan uşaqların musiqili-ritmik vərdişləri inkişaf etdirilir. Musiqi repertuarı daima yeni yaradılmış və müasir şəraitə uyğun olan əsərlərlə yenilənməlidir. Bu zaman unutmaq olmaz ki, bunlar hökmən proqram tələblərinə və uşaqlarla iş şəraitinə uyğun olmalıdır. Bunula belə stabil repertuarın üstünlükləri daha çoxdur. Tez-tez səslənən və yaxud uşaqlar tərəfindən ifa olunanmahnı və ya digər musiqi əsəri onlar tərəfindən özünkiləşdirilir və müstəqil fəaliyyətlərində istifadə olunur. Bu, öz növbəsində, möhkəm mənimsənilməyə, düzgün və təbii ifaya gətirib çıxarır ki, bununla da uşaqlar məktəbə musiqi cəhətdən hazırlıqlı gəlirlər. İllik proqram repertuarı kvartallara (üçaylıq dövrlərə) bölünür və aşağıdakıları nəzərdə tutmalıdır:

- o, tədricən mürəkkəbləşməlidir və hər bir mahnı, oyun, rəqs və ya məşğələnin xüsusiyyətlərini nəzərə almalıdır;
- o, ümumtərbiyəvi məsələlərin həllinə qulluq edərək, həyatın axarına, müasir uşaqların tələbatlarına uyğun olaraq öyrədilməlidir. Buna görə mahnı, oyun və rəqslərin mövzusunda ictimai hadisələr, bayramlar, fəsillərlə bağlı hadisələr və bunlarla bağlı insan fəaliyyəti əks olunmalıdır.

Repertuar məktəbəqədər yaşlı uşaqların tərbiyəsi kimi mühüm bir funksiyanı yerinə yetirir. Uşaqların tərbiyəsi məsələlərini həll etməyə yönəlmiş

musiqi əsərləri bir sıra tələblərə cavab verməlidir: bədiilik, uşaqlara qavramağa və ifa etməyə əlverişlilik (mümkünlük), pedaqoji məsələlərə uyğun olması. Bağça müəllimləri uşaqların estetik tərbiyəsini həyata keçirərək, müxtəlif musiqi ədəbiyyatından istifadə etməlidir. Bir çox vəsaitlər və toplular görkəmli və təcrübəli metodist və elmi işçilər tərəfindən tərtib edilmişdir. Dövlətimiz tərəfindən uşaqlar üçün musiqi ədəbiyyatının nəşr edilməsinə böyük diqqət yetirilir və bu iş daima davam etdirilir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasında məktəbəqədər təhsil proqramı (kurikulumu), İ.Cavadov, L.Cəfərova. Bakı, 2015
2. A.Qəribova. Musiqi və onun tədrisi metodikası (məktəbəqədər müəssisələrdə). Bakı, 2021
3. İ.Məmmədova “Uşaqların musiqi dünyası”, B., 2004
4. Z.Sədraqızı “Uşaq bağçalarında musiqi məşğələlərinin müntəxabatı”. Bakı, 2005
5. A.Vəliyeva, Z.Mayılova, N.Əliyeva. Uşaq bağçalarında musiqi / Proqram və Müntəxabat. Bakı, 2006

**Məqalənin redaksiyaya daxil olma tarixi: 01.05.2023**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.05.2023**
**Məqalənin çapa qəbul olunma tarixi: 01.06.2023**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru Pərişan Həsənova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №1, 2023, **s. 110-115**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №1, 2023, **с. 110-115**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №1, 2023, **pp. 110-115**

**UOT 37.013**

**Gülnarə Həmzəbəyovna Əlixanova**
psixologiya üzrə fərsəfə doktoru, baş müəllim
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
*E-mail: gülnare.alixanova @mail.ru*

# YENİYETMƏ UŞAQLARDA PEŞƏ SEÇİMİNƏ MÜNASİBƏTİN FORMALAŞMASI

***Açar sözlər:*** *yeniyetməlik yaşı, peşə seçimi, peşəyönümü, ixtisas, maraq, istək, tələbat*

Məqalədə gənc nəslin təlim-tərbiyə işləri sistemində mühüm yer tutan problemlərdən biri olan peşə seçimindən bəhs edilir. Peşəyönümünün əsas məqsədi yeniyetmə və gənclərə həyatda öz yerini düzgün tapa bilməsi, özlərinin arzusuna, marağına, eyni zamanda qabiliyyət və bacarığına müvafiq peçə və ixtisas seçmələrində köməklik göstərməkdir. Buna görə də hazırda məktəbdə aparılan təlim-tərbiyə işlərinə şagirdlərin peşə və ixtisas seçimləri sərbəst olaraq, şüurlu və elmi şəkildə həll edilməsi səviyyəsində yanaşmaq lazım gəlir. Peşə seçimi edən gənc öz peşəsinə, ixtisasına qəlbdən bağlanmalı, onu sevməli və bu istiqamətdə daha böyük uğurlar əldə etməyə səy göstərməlidir. Onda özünün seçdiyi peşə ilə gələcək karyerasını qura bilmək inamı yaranmalı və nəhayət, öz bacarıq və qabiliyyətinə müvafiq peşəyə, ixtisasa yiyələnməlidir.

**Г.Г.Алиханова**

## ФОРМИРОВАНИЕ ОТНОШЕНИЯ К ВЫБОРУ ПРОФЕССИИ У ДЕТЕЙ ПОДРОСТКОВОГО ВОЗРАСТА

***Ключевые слова:*** *подростковый возраст, выбор профессии, профессиональное направление, специальность, интерес, желание, спрос*

В статье рассматривается выбор профессии, который является одной из проблем, занимающих важное место в системе воспитания и обучения подрастающего поколения. Основная цель профориентации - помочь подросткам и молодежи найти свое место в жизни, помочь им выбрать профессию и специальность в соответствии с их желанием, интересом и в то же время способностями и навыками. Поэтому необходимо подходить к воспитательной работе, проводимой в школе, на уровне свободного, осознанного и научного решения профессионального выбора

обучающихся. Молодожь, выбирающий профессию, должен быть предан своей профессии и специальности, любить ее и стремиться к достижению больших успехов в этом направлении. Он должен иметь уверенность в том, чтобы строить свою будущую карьеру с выбранной им профессией, и, наконец, он должен приобрести профессию и специальность, соответствующие его навыкам и способностям.

**G.H.Alikhanova**

## FORMATION OF ATTITUDE TOWARDS CAREER CHOICE IN ADOLESCENT CHILDREN

***Keywords:*** *teenage age, choice of profession, professional direction, specialty, interest, desire, demand*

The article deals with the choice of profession, which is one of the problems that occupies an important place in the system of education and training of the young generation. The main goal of the vocational guidance is to help teenagers and young people to find their place in life, and to help them choose the profession and specialty according to their desire, interest, and at the same time, their abilities and skills. Therefore, it is necessary to approach the educational and educational work carried out in the school at the level of freely, consciously and scientifically solving the professional and professional choices of the students. A young person who chooses a profession should be devoted to his profession and specialty, love it and strive to achieve greater success in this direction. He should have the confidence to build his future career with the profession he has chosen, and finally, he should acquire a profession and specialty corresponding to his skills and abilities.

İnsan həyatında ən önəmli və əsas mərhələrdən biri olan peşə seçimi mərhələsi yeniyetməlik yaşı dövrünə təsadüf edir. Peşə seçimi - yeniyetmə və gənclərin qarşısında duran vacib vəzifələrdən biridir, çünki insanın seçdiyi peşə onun həyat tərzini, dəyərlərini, sosial statusunu müəyyən etməkdə mühüm rol oynayır. Bundan əlavə, seçilən peşədə icra edilən fəaliyyətlər insanın psixi ehtiyaclarını ödəməyə və öz qüvvəsini nümayiş etdirməyə kifayət qədər fürsət yaradır. Ümumiyyətlə seçim edilən peşə insana fərəh hissi, mənəvi zövq gətirməli və başqalarına da fayda verməlidir. Peşə təkcə vasitə yox, eyni zamanda zəruri ehtiyacdır. Bu ehtiyacın təmin olunması insanı bir çox cəhətdən - həm mənəvi, həm də maddi tərəfdən təmin etmiş olur. Qeyd etmək vacibdir ki, seçilmiş peşə gəncin zövqünə, biliyinə, bacarıq, qabiliyyət və imkanlarına uyğun gəldikdə insan davamlı olaraq öz işindən zövq alır. Eyni zamanda, öz

işini sevir, onu həvəslə, zövqlə yerinə yetirir. Bu seçim düzgün aparılmadıqda isə şəxsiyyət daima özündən, seçimindən, öz peşə və ixtisasından narazı olur. Bu zaman o, bütün həyatı boyu narazılıqlar içərisində yaşayır və ya ixtisas sahəsini dəyişmək, başqa sahələrə üz tutmaq məcburiyyətində qalır. Bu isə əlavə vaxt və vəsait itkisi, gözlənilməyən çətinliklərlə qarşılaşmaq deməkdir. Deyilənləri nəzərə alaraq, yeniyetmə və gənclərin düzgün peşə seçimi etməsi üçün ilkin mərhələdə onların maraq və meyllərini müəyyən etmək daha zəruridir. Maraq insanın hər hansı fəaliyyəti məsələn, kitab oxumaq, musiqi, idman, peşə, təsviri sənət və sairə ilə bağlı fəaliyyətini həyata keçirməkdə böyük rol oynayır. O, insanın arzu olunan fəaliyyət sahəsinə aid biliklərinin artırmasına, dünyagörüşünü genişləndirməyə və idraki fəallığa stimullaşdırır. Maraq insanın öz istəyi, zövqü əsasında formalaşsa da onun yaranmasına bir çox mühüm amillər - məsələn, ailə, valideynlər, dostlar, yoldaşlar, sosial mühit, şəxsin özünün istedadı və qabiliyyəti də təsir göstərir.

Peşəyönümü xidmətinin vacibliyi “Peşə təhsili haqqında” qanunda da təsbit olunmuşdur. Eləcə də Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 may tarixli 167 nömrəli qərarı ilə “Ümumi təhsil müəssisələrində peşəyönümü xidmətinin həyata keçirilməsi qaydası” sənədində peşəyönümü xidmətinin məqsədləri və təşkili qaydaları, tam orta təhsil səviyyəsində peşə təmayüllü siniflərin təşkili məsələsi öz əksini tapır. Nəticə olaraq, bir çox amillərin peşə seçiminə təsiri olduğu da məlumdur. Bəzi hallarda fərd almaq istədiyi təhsili, yiyələnmək istədiyi ixtisası xüsusilə də bu təhsildən sonra əldə edəcəyi peşəni seçərkən sosial mühitin təzyiqini hiss edir.

Yeniyetmələr peşə seçərkən özlərinin temprament tipini, xarakterini, şəxsi qabiliyyətlərini, maraqlarını, təhsil nəaliyyətlərini və digər nəzərə çarpacaq amilləri nəzərə almalıdırlar. Yeniyetmələr üçün təşkil edilmiş peşə seçimi testləri mövcuddur. Onlar bu testləri iistifadə etməklə nəyi istəyib – istəmədiklərini müəyyənləşdirə bilərlər. Bu da peşə seçimində yeniyetmələrə çox böyükköməklik göstərəcəkdir.

Yeniyetmələr bu testlər vasitəsi ilə hansı peşənin onlara uyğun olduğunu öyrənə bilərlər. İnsanlar peşə seçməzdən öncə, seçdikləri peşənin onların gələcək həyatında çox önəmli bir yer tutduğunu nəzərə almalıdırlar. Yeniyetməlik dövründə tez-tez qərarsızlıq hallarına rast gəlindiyinə görə, onlar öz maraqlarını, nələri sevib-sevmədiklərini, xoşlayıb – xoşlamadıqlarını kəşf etməlidirlər, seçəcəkləri peşə haqqında da ilk öncə ətraflı məlumata sahib olmalıdırlar. Peşə seçərkən nəzərə alınmalı əsas məsələlərdən biri də peşənin müasir dövrümüzdəki hal –hazırda olan gündəlik tələbatıdır.

Peşə seçimində ailənin xüsusilə önəmli rolu vardır. Peşə seçimi zamanı yeniyetmə ailənin, valideynlərinin fikir və maşahidələrinə diqqət yetirmə-lidirlər. Valideyn də övladını müəyyən peşəyə istiqamətləndirərkən övladının arzu, maraq, qabiliyyət və istəklərini nəzərə almağa səy göstərməlidır.

Yeniyetməni istəmədiyi peşəni seçməyə məcbur etməməlidir. Çünki, peşə insan həyatında çox önəmli bir rol oynayır. Peşə seçimi insanın öz həyatında son nəticəyə gəlıdiyi ən önəmli qərarlardan mühümüdür. İnsan sevmədiyi bir peşə ilə məşğul olarsa, bu ona yaradıcı müvəffəqiyyət gətirə bilməz və həyatda uğur qazana bilməz. Bütün bu am illər insanın psixologiyasına öz mənfi təsirini edər. Valideynlərin yeniyetmə və gənclərə peşə seçimində göstərdikləri dəstək zamanı bütün bu problemləri nəzərə almalıdırlar.

Peşə seçiminə eyni zamanda müxtəlif amillər də təsir edir. Peşə seçimi prosesi şəxsin öz işini seçməkdən çox əvvəl başlayır. Peşə seçimi mövcud olan işlər arasından ən uyğun gələnə qərar verməkdən ibarət deyil. Fərdin keçmişi və özülü, rol modelləri, qazandığı həyat təcrübəsi, maraq dairəsi, şəxsiyyəti, təhsil uğurları və onu əhatə edən mühit də peşə seçməyə təsir edən mühüm şərtlərdəndir. Pedaqoji-psixoloji ədəbiyyata görə alaraq fərdin peşə seçiminə təsir edən amilləri aşağıdakı kimi təsnif etmək mümkündür.

1. Bioloji amillər - fərdin fiziki xüsusiyyətləri, cinsiyyət, bədən quruluşu, görmə, eşitmə və sairə;
2. Sosioloji amillər – fərdə ətrafındakı insanların, (sinif yoldaşlarının, dostlarının və sairə) təsiri, ailənin sosial vəziyyəti;
3. Psixoloji və ya şəxsi amillər - fərdin ehtiyacları, duyğuları, münasibəti, dəyərləri, maraq dairəsi və qabiliyyətləri;
4. İqtisadi amillər – ailənin iqtisadi vəziyyəti, mühitin ya da ölkənin ümumi iqtisadi vəziyyəti, texnoloji inkişaf bunların, cəmiyyətdəki insanların ehtiyacına təsirləri;
5. Siyasi amillər – peşəyə sahib olma imkanları, iş tapma imkanı, müxtəlif təhsil və inkişaf imkanları və sairə.

Müasir gənclər həyatın təxminən bütün sahələrinin qlobal rəqəmsallaşdırılması və vahid informasiya məkanı olan "İnternet"in formalaşması istiqamətində müxtəlif mədəniyyət və iqtisadiyyat modelləri, müxtəlif həyat tərzləri, standartları haqqında fikirlərlə tanış olurlar.

Şagirdlərin peşə maraqlarının müşahidə metodu ilə təyini elmi metod kimi XIX əsrin axırlarından klinik, sosial, pedaqoji psixologiya və inkişaf psixologiyasında geniş istifadə edilirdi. Bu metod əsasən təbii şəraitdə insan davranışlarını öyrənmək məqsədi ilə tətbiq olunmaqdadır. Müşahidə eyni zamanda psixoloqdan peşəkar biliklər və psixoloji analiz bacarıqları da tələb edir. Praktik psixoloqun həyata keçirdiyi diaqnostik müayinə zamanı müşahidənin aparılmasına bir sıra tələblər (planlaşdırma, protokol tərtibi, nəticələrin təhlili və s.) irəli sürülür. Müşahidə protokollarında uşağın davranış reaksiyaları, özünü necə aparması, qarşılıqlı münasibət formaları, fəaliyyət növü və psixi hadisənin kəmiyyət və keyfiyyət göstəricilərinin dinamikası qeyd olunur. Müşahidə psixoloqun subyektiv mövqeyinin təsirinə məruz qala bilər, ancaq mütəxəssis çalışmalıdır ki, subyektiv mövqeyini əks etdirməsin. Burada

psixoloqun elmi baxışları, təcrübəsi, peşə hazırlığı ilə yanaşı formalaşmış qiymətləndirmə stereotipi, etik prinsipləri və sairə öz təsirini göstərə bilər. Müşahidə aparan psixoloq bu cür təsirlərin aradan qaldırılmasına çalışmalıdır. Müşahidənin çətinliklərindən biri də, bu və ya digər psixi hadisənin, davranış tərzinin təzahürünü uzun müddət gözləmək lazım gəlməsi ilə bağlıdır. Bəzən müşahidələr zamanı aşağıdakı tipik müşahidə səhvlərinə də rast gəlinir:

1. Halo-effekt. Müşahidəçi görünənləri ümumiləşdirir, kiçik fərqlərə, detallara diqqət yetirmir.
2. Güzəşt effekti. Baş verənlərə daim pozitiv yanaşma, situasiyanı müsbət qiymətləndirmə.
3. Oreol effekti. İnsanın konkret bir situasiyada, şəraitdə əldə etdiyi müşahidə nəticələri digər situasiyalara da aid edilir.
4. Yanlış razılıq effekti. Davranışın qiymətləndirilməsi zamanı müşahidəçi real davranışlara deyil, şəxs haqqında digərlərinin söylədiyi fikir və mülahizələrə əsaslanır.
5. Mərkəzi tendensiya səhvi. Müşahidəçi hər zaman müşahidə edilən hadisəni, davranışı orta qiymətləndirir.
6. Korrelyasiya səhvi. Müşahidə edilən hər hansı bir davranışa digər müşahidə edilmiş davranış növü, bacarıq və ya psixi funksiya əsasında qiymət verilir..
7. Kontrast səhvi. Müşahidə etdiyi obyektdə özünə xas hər hansı bir xüsusiyyətin əksini qeyd etmək.
8. İlk təəssürat səhvi. Sonrakı müşahidələrin nəticələrinə ilk müşahidə zamanı yaranan təəssüratın təsiri.

Şagirdlərin peşə seçimində motivasiyanın müəyyən edilməsinə dair bir sıra "Peşə seçimində şəxsi motivlərin rolunun müəyyənləş-dirilməsi", "Peşə seçimində daxili və xarici motivlərin müəyyənləşdirilməsi", "Peşənin cəmiyyətdə rolu və maddiyyat motivini müəyyənləşdirilməsi"," Fəaliyyət sahələri üzrə "maraqlar və meyllər" sorğuları, "Şagirdlərin müxtəlif fəaliyyət sahələrinə olan meyl və maraqlarının müəyyən olunması" metodikaları, "Fərdin peşə yönümünün növünün təyin edilməsi" testi və sairə metodikalardan geniş istifadə olunur.

**Məqalənin aktuallığı.** Yeniyetmə yaşlı uşaqlarda peşə seçiminə düzgün münasibətin formalaşması məsələlərində müasir cəmiyyətin qarşısında duran vəzifələrin yerinə yetirilməsi prosesinin səmərəliliyinin təhlilini verməkdən ibarətdir.

**Məqalənin elmi yeniliyi.** Yeniyetmə yaşlı uşaqlarda peşə seçiminə münasibətin formalaşmasına təsir göstərən psixoloji mühitin, fəaliyyətin və ailə üzvlərinin rolununun müəyyənləşdirməsindən ibarətdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən elmi yaradıcılıq işində bu mövzu ilə maraqlananlar, psixoloq və pedaqoqlar, eləcə də ali və orta

ixtisas məktəblərinin tələbə və magistrləri istifadə edə bilərlər.

## ƏDƏBİYYAT


1. Qədirov Ə.Yaş psixologiyası. B., 2000
2. Əlizadə Ə.Ə. Yeni pedaqoji təfəkkür. Bakı: Adiloğlu, 2004, 184 s.
3. Əmrahlı L.Ş. Şəxsiyyət və cəmiyyət. Psixoloji etüdlər/Bakı:MBM, 2007, 200 s.
4. Qasımzadə F. Şəxsiyyət: formalaşması və inkişafı. "Azərbaycan məktəbi" jurnalı. 1989, № 10, s. 49 – 53.
5. Məmmədov T.M. Azərbaycan psixoloji fikir tarixində şəxsiyyət problemi. Bakı: Mütərcim, 2011, 552 s.
6. Елисеев О.П. Практикум по психологии личности. СПб: Издательство «Питер»,2000, 560 с.
7. Куликов, Л. Психология личности в трудах отечественных психологов / Питер: СПб: 2009, 288с.
8. Столин В.В. Самосознание личности. М.: МГУ, 2007. 286 с.



**Məqalənin redaksiyaya daxil olma tarixi: 01.05.2023**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.05.2023**
**Məqalənin çapa qəbul olunma tarixi: 01.06.2023**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru Sədaqət Əliyeva**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

# QAYDALAR

Azərbaycan Dövlət Pedaqoji Universitetinin «Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri» jurnalında məqalələr Azərbaycan, rus və ingilis dillərində çap olunur. Məqalənin əlyazmasını kompüterdə Microsoft Word redaktorunda Azərbaycan, rus və ingilis dillərində, Times New Roman şrifti ilə, 12 ölçüdə, 1 intervalla, A4 formatlı ağ vərəqdə tərtib etmək lazımdır. Məqalənin həcmi 4-5 səhifədən az olmamalıdır.

Məqalənin başlanğıcında məqalənin UOT indeksi, müəllifin soyadı, adı, atasının adı, işlədiyi müəssisə və onun ünvanı, vəzifəsi, elmi adı, elmi dərəcəsi və ya fəxri adı, e-mail ünvanı, daha sonra, məqalənin adı, məqalə hansı dildə yazılmışsa həmin dildə qısa xülasəsi və açar sözlər (6-10 söz) verilməlidir. Məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və sair aydın şəkildə verilməlidir.

Daha sonra digər iki dildə xülasə (müəllifin adı və məqalənin adı həmin dillərdə göstərilməklə) («Резюме» və «Summary») və həmin dillərdə açar sözləri («Ключевые слова» və «Keywords») verilməlidir. Məqalələrin müxtəlif dillərdə olan xülasələri bir-birinin eyni və məqalənin məzmununa uyğun olmalıdır. Xülasələr elmi və qrammatik baxımından ciddi hazırlanmalıdır.

Məqalədə verilən ədəbiyyat siyahısı əlifba ardıcıllığı ilə deyil, istinad olunan ədəbiyyatların mətnində rast gəlindiyi ardıcıllığı ilə nömrələnməli və məsələn, [1] və ya [1, s. 119] kimi işarə olunmalıdır. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.

**Kitab və jurnallara istinad aşağıdakı qaydada verilməlidir:**

1. Müəllifin soyadı və inisialı. Kitabın adı. Cildin nömrəsi. Şəhər: nəşriyyat, nəşr ili, ümumi səhifələrin sayı;
2. Müəllifin soyadı və inisialı. Məqalənin adı // Jurnalın adı, nəşr ili, buraxılış nömrəsi, başlanğıc-son səhifələr.

**Məqalənin quruluşu:**

- Məqalənin UOT indeksi;
- Müəllifin soyadı, adı, atasının adı;
- İşlədiyi müəssisənin adı, vəzifəsi, elmi adı və elmi dərəcəsi, fəxri adı (və ya doktorant və ya dissertant olduğu təşkilatın adı, təhsilin forması);
- İşlədiyi müəssisənin (və ya doktorant olduğu təşkilatın) ünvanı (poçt nömrəsi göstərilməklə);

- Müəllifin e-mail ünvanı;
- Məqalənin yazıldığı dildə qısa xülasəsi və açar sözlər (6-10 söz);
- Baş hərflərlə məqalənin adı;
- Məqalənin mətni;
- İstinad olunmuş ədəbiyyat siyahısı;
- Digər iki dildə məqalənin adı və müəllifin adı və soyadı göstərilməklə qısa xülasəsi və açar sözlər (6-10 söz).

**Məqalə aşağıdakı hissələrdən ibarət olmalıdır:**

- Giriş;
- Məsələnin qoyuluşu;
- Məsələnin həlli;
- Nəticə (elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və sair);
- Ədəbiyyat.

**Məqalənin redaksiyaya təqdim olunması:**

- Məqalənin çap olunmuş əlyazması (1 nüsxədə) və onun elektron variantı Compact Diskdə (CD və ya CD-RW) və məqalənin çap olunması üçün müəssisə tərəfindən təsdiq olunmuş müvafiq sənədlərlə (məqaləyə 2 rəy və təşkilatın (kafedranın) iclas protokolundan çıxarış) birlikdə jurnalın məsul katibinə (Üzeyir Hacıbəyli küçəsi 68, ADPU, AZ 1102) təqdim edilməlidir.
- Ayrıca vərəqdə müəllif haqqında anket-məlumat əlavə olunmalıdır. Məlumatda müəllifin soyadı, adı, atasının adı, elmi dərəcəsi, elmi adı, müəssisənin adı, müəssisənin ünvanı, ev ünvanı, e-mail ünvanı və telefon nömrəsi göstərilməlidir.
- Məqalə jurnalın İnternet səhifəsinə göndərilə bilər. E-mail: n_s_q@mail.ru
- Lazım gəldikdə jurnalın redaksiyası məqalənin nəşri üçün əlavə sənədlər tələb edə bilər.
- Məqalənin əlyazması və CD geri qaytarılmır.

***Qeyd: Qaydalar Ali Attestasiya Komissiyasının tələblərinə uyğun tərtib olunub.***

# ПРАВИЛА ОФОРМЛЕНИЯ СТАТЕЙ

В журнале «Актуальные проблемы музыкальной науки, культуры и образования» Азербайджанского Государственного Педагогического Университета статьи публикуются на азербайджанском, русском и английском языках. Рукопись статьи должна быть набрана на компьютере в программе Microsoft Word на азербайджанском, русском и английском языках шрифтом Times New Roman, размером 12, интервалом 1, форматом А4. Объем, статьи должен быть не менее 4-5 страниц.

В начале статьи дается индекс УДК, фамилия, имя, отчество автора, место работы (адрес учреждения), должность, ученое звание, ученая степень или почетное звание, e-mail, затем дается название статьи, краткое резюме и ключевые слова (6-10 слов) на том языке, на котором написана статья. В конце нужно четко и ясно показать новизну, практическую значимость и эффективность работы в соответствующей области науки.

Далее дается краткая аннотация на двух других языках (указать автора и название статьи) («Резюме» и «Summary») и ключевые слова («Ключевые слова» и «Key words») на этих языках. Все резюме должны отражать содержание и подготовлены очень строго с научной и грамматической точки зрения.

В статье список литературы дается не по алфавитному порядку, а по порядку цитат, например, [1] или [1, с.119]. Цитата из одной и той же литературы дается предыдущим номером.

**Цитаты из книг и журналов даются в следующем порядке:**

1. Фамилия и инициалы автора. Название книги. Том. Город: издательство, год издания, количество страниц.
2. Фамилия и инициалы автора. Название статьи // Название журнала, год издания, номер издания, начальная и последняя страницы.

**Последовательность оформления (структура) статьи:**

- Индекс УДК;
- Фамилия, имя, отчество автора;
- Название учреждения, место работы, должность, ученое звание, ученая степень или почетное звание (или название организации докторанта или диссертанта, форма учебы) адрес учреждения (или организации докторанта), где работает (указать почтовый номер);
- e-mail автора;

- Краткое резюме и ключевые слова (6-10 слов) на том языке, на котором написана статья;
- Название статьи прописными буквами;
- Текст статьи;
- Список использованной литературы;
- Краткое резюме на двух других языках (с указанием автора и названия статьи) и ключевые слова (6-10 слов) на этих языках.

**Статья должна состоять из следующих частей:**

- Введение;
- Постановка проблемы;
- Решение проблемы;
- Выводы (новизна, практическая значимость и эффективность работы в соответствующей области науки);
- Литература.
- **Представление статьи в редакцию:**
- Рукопись статьи (1 экземпляр) и ее электронный вариант на Compact Disk (CD или CD-RW) и соответствующие документы для публикации статьи, утвержденные учреждением (2 рецензии и выписка из протокола заседания организации (кафедры)) должны быть представлены ответственному секретарю журнала (улица Узеира Гаджибейли 68, АГПУ, AZ 1102).
- Анкета-справка об авторе представляется отдельно. В справке нужно указать фамилию, имя, отчество автора, ученое звание, ученую степень, название и адрес учреждения, домашний адрес, e-mail и номер телефона.
- Статью можно послать на Интернет-страницу журнала. E-mail: n_s_q@mail.ru
- В случае необходимости редакция журнала может потребовать дополнительные документы для публикации статьи.
- Рукопись статьи и CD не возвращаются.

***Примечание: Правила сставлены в соответствии с требованиями Высшей Аттестационной Комиссии.***

# RULES

In the journal of «Actual problems of the science, culture and education of music» of Azerbaijan State Pedagogical University articles are published in Azerbaijani, Russian and English languages. Articles must be written on the computer in Microsoft Word with Times New Roman type of 12 size, l interval and on a white paper of A4 format. Pages of the article must be not less than 4-5.

At the top of the article it must be noted UOT index of article, name and surname of the author, his place of work and post address, scientific degree, honorary title, e-mail, title of the article, its short summary, and key words (6-10) At the end of the article it must be clearly written about scientific novelty of the article, importance of its research, economical benefit etc.

At the end of the article it must be noted list of references, in two languages title of the article, name of the author summary and keywords.

Content of the summaries in two languages must be same and suit to the content of the article. Summaries must be written grammatically and scientifically. List of references must not be given in alphabetical order but in the order of their place in the article, for example, [1] or [1, p. 119]. If any literature is used in the article repeatedly it must be noted by the previous number.

**Reference to books and journals must be given as below:**

1. Surname and initials of the author. Title of the book. Number of the volume. City: edition, publication year, number of pages.
2. Surname and initials of the author. Title of the article// Name of the journal, publication year, issue number, the first and the last pages.

**Structure of the article:**

- UDC index of the article;
- Name and surname of the author;
- Place of work and post, scientific degree, honorary title (it must be noted name of the institution where one is a candidate for a degree or a doctor for a degree);
- Address of work (or institution where one is a doctor for a degree);
- E-mail of the author;
- A short summary and keywords (6-10 words) of the article in the same language that was the article written in;
- Title of the article in capital letters;
- Text of the article;
- List of references;

- Short summary and key words by indicating the name of article, name and surname of author in other two languages (6-10 words).

**The article must consist of the following parts:**

- Introduction;
- Putting of task;
- Solution of task;
- Conclusion (scientific innovation, applied significance, economic benefit of the work conforming to character of the scientific field and article, etc.);
- Literature.

**Submission of the article to revision:**

- The printed manuscript of the article (in 1 copy) and its electron variant is to be submitted to the responsible secretary of the journal in Compact Disc (CD or CD-RW) together with proper documents certified by institution for printing of the article (2 references to the article and extract from meeting protocol of the organization (department)) (68, Uzeyir Hajibayli str., ASPU, AZ 1102).
- Information form about author is to be attached in separate sheet. Surname, name, father's name, scientific degree, scientific title of author, name of institution, address of institution, home address, e-mail address and phone number is to be indicated in the information.
- The article may be sent to internet page of the journal. E-mail: n_s_q@mail.ru
- If necessary, revision of the journal may require further documents for publication of the article.
- Manuscript of the article and CD is not returned.

***Note: The rules framed in accordance with the requirements of the Higher Attestation Commission.***

*Nəşriyyatın direktoru:* Hüseyn Hacıyev
*Texniki redaktor:* Mustafa Şəfiyev
*Korrektor:* Sevinc Mamoyeva

Çapa imzalanmış: 01.06.2023.
Kağız formatı $70\times100^{1/16}$. 7,625 ç.v.
Sifariş 203. Sayı 200.

---

**ADPU-nun mətbəəsi**
Bakı, Ü.Hacıbəyli küçəsi, 68
Tel.: 493-74-10